RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

№ 53 (10073) 1 aprel 2026-cı il ÇƏRŞƏNBƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR



## Çin və Azərbaycan hərtərəfli strateji tərəfdaşlardır



### Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Hörmətli cənab Prezident!

Bahar bayramı münasibətilə göndərdiyiniz təbrik məktubuna görə Sizə səmimi təşəkkürümü bildirirəm. Çin Hökuməti və xalqı adından Sizi, Azərbaycan Hökumətini və bütün Azərbaycan xalqını ənənəvi Novruz bayramı münasibətilə ürəkdən təbrik edirəm.

Çin və Azərbaycan hərtərəfli strateji tərəfdaşlardır. Son illərdə qarşılıqlı siyasi etimad möhkəmlənir, bütün sahələrdə əməkdaşlıq inkişaf edir. Çin ilə Azərbaycan arasında əlaqələrin inkişafına böyük əhəmiyyət verirəm və iki ölkə xalqlarının mənafeləri naminə Çin-Azərbaycan hərtərəfli strateji tərəfdaşlıq münasibətlərinin bundan sonra daha da inkişaf etdirilərək yeni səviyyəyə yüksəldilməsi üçün Sizinlə birlikdə səylər göstərməyə hazıram.

Sizə möhkəm cansağlığı və firavanlıq arzulayıram.

***Si CİNPİN,***
***Çin Xalq Respublikasının Sədri***

## İlham Əliyevlə Məhəmməd Şahbaz Şərif arasında telefon danışığı olub



**Martın 20-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevlə Pakistan İslam Respublikasının Baş naziri Məhəmməd Şahbaz Şərif arasında telefon danışığı olub.**

Prezident İlham Əliyev və Baş nazir Məhəmməd Şahbaz Şərif bir-birini müqəddəs Ramazan bayramı münasibətilə təbrik edib, xalqlarımıza firavanlıq və yeni-yeni uğurlar arzulayıblar.

Azərbaycan Prezidenti və Pakistanın Baş naziri ölkələrimiz arasında dostluq və qardaşlıq münasibətlərinin inkişafından məmnunluqlarını ifadə edib, əməkdaşlığın perspektivləri və gələcək təmaslara dair fikir mübadiləsi aparıblar.

Telefon danışığı əsnasında Yaxın Şərqdəki mövcud vəziyyətə toxunulub, gərginliyin siyasi yollarla tezliklə həllinin vacibliyi vurğulanıb.

***Prezidentin Mətbuat Xidməti***



## Prezident İlham Əliyev "Abşeron" Batareya Enerji Saxlanc Mərkəzinin açılışında iştirak edib

# Azərbaycanda ilk

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 25-də "AzərEnerji" Açıq Səhmdar Cəmiyyətinin (ASC) "Abşeron" Batareya Enerji Saxlanc Mərkəzinin açılışında iştirak edib.**

AZƏRTAC xəbər verir ki, "AzərEnerji" ASC-nin İdarə Heyətinin sədri Baba Rzayev dövlətimizin başçısına "Abşeron" Batareya Enerji Saxlanc Mərkəzi barədə məlumat verdi.

Qeyd edək ki, Azərbaycan enerji sahəsində yeni inkişaf mərhələsinə daxil olur. Prezident İlham Əliyevin tapşırığına əsasən "AzərEnerji" ASC tərəfindən 100 faiz daxili maliyyə vəsaiti hesabına iki əsas yarımstansiyada - 500 kV-luq "Abşeron" və 220 kV-luq "Ağdaş" yarımstansiyalarının ərazilərində ümumi gücü 250 MVt, enerji tutumu isə 500 MVt/saat olan böyük enerji saxlanc mərkəzləri yaradılıb. Belə miqyasda bu cür mərkəzlərin qurulması yalnız Azərbaycanda deyil, ümumilikdə MDB regionunda ilkdir.

Layihə çərçivəsində "Abşeron" Batareya Enerji Saxlanc Mərkəzinin ərazisində 50 akkumulyator batareya və 13 invertor konteyneri quraşdırılıb. Beynəlxalq məsləhətçi şirkətlərin (ABŞ-nin TETRA Tech və Türkiyənin EPRA) apardıqları araşdırma Azərbaycanda təxminən 1850 MVt gücündə bərpaolunan enerji mənbələrinin təhlükəsiz şəkildə enerji sisteminə qoşulması üçün bu cür batareya sistemlərinin yaradılmasının zəruri olduğunu göstərib.

Batareya Enerji Saxlanc Mərkəzi çevikliyi ilə seçilir. Belə ki, onlar 2 saat ərzində tam doldurula və ya boşaldıla bilər. Artıq enerji, o cümlədən günəşli saatlarda istehsal olunan enerji burada toplanır və pik saatlarda - enerjiyə tələbat artan zaman avtomatik olaraq şəbəkəyə verilir. Bir sözlə, bu sistemlər enerjini yığıb saxlayır, lazım gəldikdə isə onu istifadəyə yönəldir.

3



# "Elə etməliyik ki, insanlarımız daha yaxşı yaşasın"

## Prezident İlham Əliyev Şamaxı rayonuna səfər edib

2

## Prezident İlham Əliyevin sosial media hesablarında Azərbaycanlıların Soyqırımı Günü ilə bağlı paylaşım edilib




## Birinci vitse-prezident Mehriban Əliyeva Azərbaycanlıların Soyqırımı Günü ilə bağlı paylaşım edib




## C.Ə.Əliyevin "İstiqlal" ordeni ilə təltif edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasında tibb elminin və səhiyyənin inkişafında xüsusi xidmətlərinə görə Cəmil Əziz oğlu Əliyev "İstiqlal" ordeni ilə təltif edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 29 mart 2026-cı il*

## Bakı və İrəvan arasında sülh prosesi geri dönməz hal alır

### İki ölkə arasında yaradılan kommunikasiya əlaqələri barışın ən güclü zəmanətidir



Azərbaycan sülh prosesində, sadəcə, tranzit qovşağı rolunu oynamır, həm də Ermənistana birbaşa enerji məhsullarının satışını həyata keçirir. 2025-ci il dekabrın 18-dən etibarən SOCAR tərəfindən Ermənistana neft məhsullarının ixracına start verilib və 1220 ton Aİ-95 markalı avtomobil benzini göndərilib. Ardınca 2026-cı ilin yanvar, fevral və mart aylarında Ermənistana davamlı olaraq enerji məhsulları, benzin və dizel göndərilib. Cari ilin ilk iki ayında Azərbaycan Ermənistana 4 milyon 220,3 min ABŞ dolları dəyərində məhsul ixrac edib. Dövlət Gömrük Komitəsinin məlumatına görə, bu, Azərbaycanın ümumi ixracının 0,12 faizini təşkil edib.

11

## Milli yaddaşımızın ağrılı səhifəsi

31 mart 1918-ci ildə Şaumyanın əmri ilə Bakıda azərbaycanlılara qarşı kütləvi qırğınlara start verildi. Onun özünün də etiraf etdiyi kimi, bu hadisələrdə Bakı Soveti tərkibindəki minlərlə silahlı ilə birgə Daşnaksütyun partiyasının quldur dəstələri də fəal iştirak edirdilər.

Bir neçə gün davam edən soyqırımı aktı zamanı silahlı dəstələr azərbaycanlıların yaşadıqları məhəllələrə hücum edərək dinc əhaliyə qarşı amansız qırğınlar törətdilər. İlk hücumlar Bakının "Kərpiçxana", "Məmmədli", "Zibilli Dərə" adlandırılan hissələrinə yönəldi. Burada yaşayan əhalinin, demək olar ki, hamısı məhz azərbaycanlılar idi. Şəhərin bu rayonu və başqa müsəlman rayonları dənizdən "Ərdəhan" və "Janr" hərbi paraxodlarının toplarından atəşə tutulurdu, Ermənikənd tərəfdən isə, ermənilər toplardan atəş açırdılar. Top atəşləri ilə yanaşı, daşnak və bolşevik silahlı dəstələri azərbaycanlı məhəllələrinə kütləvi hücumlar edir, qarşılarına çıxanı öldürürdülər.



Bolşevik hökumətinin Xəzər dənizindəki hərbi donanması da ermənilərin fitvası ilə şəhərin azərbaycanlı məhəllələrini ardıcıl top atəşinə tuturdu. Erməni daşnakları özünəməxsus hiyləgər xislətləri ilə rus matroslarını aldadıb inandırmışdılar ki, guya azərbaycanlılar Bakıdakı xristianları qırırlar.

8

# "Elə etməliyik ki, insanlarımız daha yaxşı yaşasın"

## Ümummilli Lider Heydər Əliyevin abidəsini ziyarət



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 23-də Şamaxı rayonuna səfər edib.**

**AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı xalqımızın Ümummilli Lideri Heydər Əliyevin Şamaxı şəhərinin mərkəzində ucaldılmış abidəsini ziyarət edib.**

## Prezident İlham Əliyev Şamaxı Avropa liseyinin yeni binasının açılışında iştirak edib







**Martın 23-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Heydər Əliyev Fondu tərəfindən inşa edilmiş Şamaxı Avropa liseyinin yeni binasının açılışında iştirak edib.**

AZƏRTAC xəbər verir ki, Prezidentin köməkçisi Anar Ələkbərov dövlətimizin başçısına liseydə yaradılmış şərait barədə məlumat verdi.

Bildirildi ki, Avropa liseyinin yerləşdiyi əvvəlki bina 1937-ci ildə inşa edilmişdi. Təhsil müəssisəsinin 1987-ci ildə yenidən qurulan binası isə ötən müddətdə istifadəyə yararsız hala düşdüyündən Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın tapşırığına əsasən yeni lisey binası inşa olunub.

Üç və dördmərtəbəli 7 korpusdan ibarət 1200 şagird yerlik bu təhsil müəssisəsi rayonun ən böyük məktəblərindəndir. Lisey zəruri mebel və avadanlıqla, fənn kabinetləri və laboratoriyalar isə əyani vəsaitlərlə təchiz edilib.

Burada 50-dən çox sinif otağı, fizika, kimya və biologiya laboratoriyaları, informatika və STEAM, hərbi təlim, tibb və əmək təlimi otaqları, kitabxana, yeməkxana, akt və idman zalları, həmçinin açıq idman meydançası yaradılıb.

Liseyin yeni binası Heydər Əliyev Fondu tərəfindən həyata keçirilən "Yeniləşən Azərbaycana yeni məktəb" Proqramı çərçivəsində inşa edilib.

Qeyd edək ki, Azərbaycanda təhsil sahəsinin inkişafı dövlət siyasətinin əsas prioritetlərindən biridir. Dövlət səviyyəsində bu istiqamətdə həyata keçirilən işlərə Heydər Əliyev Fondu da böyük töhfələr verir. Fondun "Yeniləşən Azərbaycana yeni məktəb" Proqramı çərçivəsində indiyədək ölkəmizdə 500-dən çox məktəb istifadəyə verilib.

Paytaxt Bakı ilə yanaşı, bölgələrdə bu cür layihələrin icrası ilk növbədə regionlarda yaşayan şagirdlərin yüksək səviyyədə təhsil almalarına, onların elmin sirlərinə daha dərindən yiyələnmələrinə hərtərəfli şərait yaradır. Bu, eyni zamanda ölkəmizdə ümumilikdə təhsil sahəsinin inkişafını əyani şəkildə göstərir.

## Prezident İlham Əliyev Şamaxıda "Şirvan Aqro" heyvandarlıq kompleksinin açılışında iştirak edib

















**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 23-də Şamaxı rayonunda "Şirvan Aqro" heyvandarlıq kompleksinin açılışında iştirak edib.**

AZƏRTAC xəbər verir ki, Şamaxı Rayon İcra Hakimiyyətinin başçısı Tahir Məmmədov dövlətimizin başçısına kompleks barədə məlumat verdi.

Bildirildi ki, 100 hektara yaxın ərazini əhatə edən kompleksin yaradılmasında məqsəd ölkə əhalisinin yüksəkkeyfiyyətli süd və ət məhsulları ilə təmin olunmasına, bu məhsulların ixracına, həmçinin regionun inkişafına, xüsusən də Şamaxı və ətraf rayonlarda məşğulluğun artırılmasına töhfə verməkdir.

Kompleksdə 9000 baş heyvanın - 3200 baş südlük, 3000 baş ətlik mal-qaranın və 2800 baş buzovun saxlanılmasına şərait var. Hazırda burada Holşteyn-Friz, Limuzin, Aberdin-Anqus və digər cinslərdən heyvanlar saxlanılır.

Ən son texnologiyalarla təchiz edilən və süni intellekt vasitələri ilə idarə olunan bu kompleks Qafqaz regionunda və MDB məkanında ən böyük heyvandarlıq müəssisələrindən biridir.

Bura ölkəmizdə alternativ və "yaşıl enerji"dən istifadə edən ilk heyvandarlıq kompleksidir.

Kompleksdə yüksəkixtisaslı mütəxəssislərin hazırlanması üçün dünyanın qabaqcıl texnologiyalarının tətbiqini öyrədəcək Təlim-Tədris Mərkəzi də fəaliyyət göstərəcək.

Müəssisədə Azərbaycanın və Cənubi Qafqazın ən böyük "Karusel" tipli süd sağımı, həmçinin "Paralel" sağım sistemləri yaradılıb. Hər bir sağım nöqtəsində süd keyfiyyətinin onlayn analizatoru quraşdırılıb. Ölkədə südün 32 dərəcədən 4 dərəcəyədək sürətli soyudulması üçün qabaqcıl sistem, həmçinin dünyadakı ən son genetik materiallar əsasında fəaliyyət göstərən, süd həcminin artırılmasını təmin edən ilk Reproduksiya Mərkəzi yaradılıb.

Saxlanılan heyvanlar arasında xəstəliklərin erkən diaqnozu və tez bir zamanda müalicəsi üçün tətbiq olunan innovativ sürü idarəetmə sistemi mövcuddur. Burada real vaxtda sürü inkişafı monitorinqinin həyata keçirilməsi, kökəltmənin səmərəli idarə edilməsi və çəkinin elektron hesablanması üçün xüsusi tərəzi sistemi tətbiq olunur.

Heyvanların identifikasiya və sağlamlıq vəziyyətinin qeydiyyatı, eyni zamanda mayalanmanın dəqiq vaxtının müəyyən edilməsi üçün "AfiCollar" elektron boyunbağılarından istifadə olunur.

Kompleksdə innovativ və xüsusi stasionar avadanlıqlarla təchiz edilən yem mərkəzi də fəaliyyət göstərir. Burada həmçinin innovativ sistemlərlə təchiz olunan, "Dry Age" otağına malik ət kəsimi məntəqəsi yaradılıb.

Müəssisədə Şamaxı və ətraf rayonların 200-dən çox sakini işlə təmin olunub. Kompleksin ərazisində digər rayonlardan buraya işləməyə gələnlər və xarici mütəxəssislərin qalması üçün yaşayış binası da var.

❖ ❖ ❖

Sonra dövlətimizin başçısı müəssisənin əməkdaşları ilə görüşdü.

Görüşdə çıxış edən **Prezident İlham ƏLİYEV** dedi:

-Təbrik edirəm. Yüzlərlə iş yeri, gözəl şərait yaradırıq. Bu müəssisənin həm Şamaxı rayonunun, həm də ümumilikdə ölkəmizin kənd təsərrüfatının inkişafı üçün çox böyük əhəmiyyəti var. Bu, nəinki Azərbaycanın, Cənubi Qafqazın ən böyük həm ətlik, həm südlük təsərrüfatıdır. Bizdə indi idxal həcminin azaldılması istiqamətində işlər aparılır. Biz elə etməliyik ki, özümüzü həm ətlə, həm südlə, süd məhsulları ilə 100 faiz təmin edək. Buna yaxınıq, amma hələ ki buna nail ola bilməmişik. Belə təsərrüfatların fəaliyyətə başlaması bu məqsədi də təmin edəcək və gələcəkdə biz hətta ət və süd məhsullarını ixrac edə də bilərik.

Əlbəttə ki, burada iş şəraiti də çox gözəldir. Xüsusi deyə bilərəm ki, bu kompleks kənd təsərrüfatı və kənd təsərrüfatı məhsullarının emalı sahəsində ən müasir təsərrüfatlardan biridir. Burada tətbiq edilən texnologiyalar qabaqcıl şirkətlərin texnologiyalarıdır. Dünyanın ən yüksəksəviyyəli iş yanaşması burada tətbiq olunur. Bir daha qeyd etmək istəyirəm ki, Şamaxı rayonunda məşğulluğun artırılması üçün də bu müəssisənin çox böyük əhəmiyyəti olacaq.

Siz də yaxşı bilirsiniz ki, bu gün Şamaxı rayonunda çox böyük işlər görülür. Şamaxı ölkəmizin turizm mərkəzlərindən birinə çevrilib. Bir çox müasir istirahət zonaları, hotellər, iaşə, mədəniyyət, təhsil obyektləri yaradılıb. Şamaxı-Bakı avtomobil yolu da çox müasirdir. İndi həm Bakı ilə, həm ölkəmizin həm qərb, şimal-qərb bölgələri ilə əlaqə üçün yeni imkanlar var. İndi Şamaxı-İsmayıllı-Qəbələ yeni avtomobil yolu inşa edilir. Orada inşa olunan körpü ölkəmizdə ən böyüyüdür, yəqin ki, biz onu gələn il istifadəyə verəcəyik. Ölkə ərazisində bağlantılar məsələləri də öz həllini tapır. Elə etməliyik ki, insanlarımız daha yaxşı yaşasın, iş yerləri olsun, dolanışıq yaxşı olsun.

Bu bayram günlərində belə müəssisənin açılışı, əlbəttə ki, böyük rəmzi məna daşıyır. Bu günlərdə biz həm Ramazan, həm Novruz bayramlarını qeyd etmişik və bütün ölkə üzrə çox gözəl abhava, çox gözəl ovqat var. Bunun da əsas səbəbi ölkəmizin inkişafı, bizim qalib xalq kimi yaşamağımız və gələcəyə böyük nikbinliklə baxmağımızdır.

Sizi bir daha ürəkdən təbrik edirəm və uğurlar arzulayıram.

**Müəssisənin əməkdaşları:** Çox sağ olun.

❖ ❖ ❖

Qeyd edək ki, bu cür müasir kompleksin istifadəyə verilməsi ilk növbədə kənd təsərrüfatının mühüm sahələrindən olan heyvandarlığın inkişafına və ərzaq təhlükəsizliyinin təmin olunmasına töhfə verir. Layihənin icrası, həmçinin ümumilikdə regionun kənd təsərrüfatı potensialının artırılmasında böyük rol oynayır. Bu cür təsərrüfatlarda müasir texnologiyaların tətbiqi isə məhsuldarlığın artırılmasına, heyvanların sağlam şəraitdə saxlanmasına və istehsal xərclərinin azaldılmasına zəmin yaradır. Bu kompleksin fəaliyyətə başlaması, eyni zamanda ölkəmizin ixrac potensialının artırılmasına müsbət təsir edəcək.

# Azərbaycanda ilk

## Prezident İlham Əliyev "Abşeron" Batareya Enerji Saxlanc Mərkəzinin açılışında iştirak edib

*Əvvəli 1-ci səh.*






Belə mərkəzin tətbiqi enerji şəbəkəsinə bir çox üstünlüklər verir. Məsələn, SCADA sistemi ilə enerji sisteminə real vaxt rejimində nəzarət olunur, şəbəkədə sabitlik, o cümlədən tezlik və gərginlik qorunur, qəfil enerji çatışmazlıqları avtomatik tənzimlənir, qəzaların təsiri azalır və sistem daha etibarlı olur. Bundan başqa, pik saatlarda elektrikə tələbat daha rahat qarşılanır, Günəş və külək enerjisindəki fasilələrin təsiri azalır, enerji sisteminin sıfırdan bərpası mümkün olur. Eyni zamanda Günəş batan saatlarda yük dəyişiklikləri daha rahat idarə edilir.

Bir sözlə, Batareya Enerji Saxlanc Mərkəzinin yaradılması Azərbaycanın enerji sistemini daha müasir, çevik və dayanıqlı edir. Xüsusilə Günəş və külək enerjisinin artdığı bir dövrdə bu cür saxlanc sistemləri gələcəyin enerji modelinin əsas hissəsi hesab olunur.

"Abşeron" Batareya Enerji Saxlanc Mərkəzində bu sistemləri idarə etmək üçün xüsusi mərkəz yaradılıb. Ərazidə müasir idarəetmə binası tikilib, geniş abadlıq və yaşıllaşdırma işləri görülüb.

Dövlətimizin başçısına bərpaolunan enerji mənbələrinin enerjisistemə inteqrasiyası və enerjisistemin rəqəmsal transformasiyası haqqında da məlumat verildi.

Bildirildi ki, yaxın perspektivdə böyükhəcmli bərpaolunan enerji mənbələri enerjisistemə inteqrasiya ediləcək və 2028-ci ildə ümumilikdə 2100 MVt-dan çox "yaşıl enerji" artıq şəbəkədə olacaq.

Bütün bunlar nəzərə alınaraq Azərbaycanda tikilən 2 GVt bərpaolunan enerji mənbələrinin enerjisistemə inteqrasiyasını dayanıqlı və təhlükəsiz şəkildə həyata keçirmək, Bakının, o cümlədən Ələt Azad İqtisadi Zonasının enerji təchizatında "yaşıl enerji" payını yüksəltmək, 500/330 kV-luq "Nəvahi Yaşıl Enerji" qovşağını ölkə enerjisistemi ilə birbaşa tam əlaqələndirməklə onu əsas qovşaq yarımstansiyalarından birinə çevirmək üçün icra edilən "AZURE" layihəsi çərçivəsində işlərin əsas mərhələsi artıq yekunlaşıb.

Layihə çərçivəsində "Nəvahi" yarımstansiyasına "Abşeron" yarımstansiyasından 65 kilometr məsafədə 500 kV-luq, "Bankə" və "Biləsuvar" Günəş-Elektrik



stansiyalarından isə ümumilikdə 181 kilometr məsafədə 330 kV-luq ötürmə xətləri çəkilib. Perspektivdə "Nəvahi" yarımstansiyasına Mingəçevirdən 235 kilometr 500 kV-luq, Qobu, Ələt və Qobustandan isə ümumilikdə 103 kilometr 330 kV-luq ötürmə xətlərinin çəkilişi nəzərdə tutulur.

Son 7 ildə 4700 kilometr fiber-optik kabel infrastrukturu yaradılıb, 550-dən çox enerji obyektini əhatə edən mərkəzi SCADA sistemi qurulub.

Enerjisistemdə onlayn diaqnostika texnologiyaları (AGC, WAMS/WACS), süni intellektəsaslı qəza proqnozlaşdırma və diaqnostika sistemləri tətbiq olunur. Günəş və külək stansiyaları üçün yüksəkdəqiqlikli proqnozlaşdırma sistemi hazırlanır.

"AzərEnerji" ASC-nin daxili strukturunda enerjisistemin tam avtomatlaşdırılmış idarə edilməsi məqsədilə Rəqəmsal İdarəetmə Departamenti yaradılıb.

Elektrik enerjisi istehlakının 2032-ci ilədək təxminən 17 faiz artacağı proqnozlaşdırılır. Həmin dövrədək 8 GVt BOEM gücləri yaradılacaq.

"Yaşıl enerji"nin Qara dəniz kabeli, regional enerji dəhlizləri və digər layihələr vasitəsilə Avropa bazarlarına ixracı əsas hədəfdir. Qara dəniz kabelinin 1300 MVt "yaşıl enerjiötürmə" imkanı olacaq.

Dövlətimizin başçısı "Abşeron" Batareya Enerji Saxlanc Mərkəzinin açılışını bildirən düyməni basdı.

# Prezident İlham Əliyev Gürcüstanın Azərbaycandakı səfirliyində olub, başsağlığı verib





**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 27-də Gürcüstanın ölkəmizdəki səfirliyində olub, Bütün Gürcüstanın Katalikos-Patriarxı II İlya həzrətlərinin vəfatı ilə əlaqədar başsağlığı verib.**

AZƏRTAC xəbər verir ki, Gürcüstanın Azərbaycandakı səfiri Zurab Pataradze dövlətimizin başçısını qarşıladı.

Prezident İlham Əliyev matəm kitabına ürək sözlərini yazdı.

Sonra dövlətimizin başçısı səfirlə söhbət etdi.

Prezident İlham Əliyev Bütün Gürcüstanın Katalikos-Patriarxı II İlya həzrətlərinin həyatını və fəaliyyətini nəcib amallara və dinlərarası dialoqun təşviqinə həsr etdiyini deyərək, onun xatirəsinin ölkəmizdə daim ehtiramla xatırlanacağını vurğuladı.

Dövlətimizin başçısı Azərbaycan-Gürcüstan ənənəvi dostluq və əməkdaşlıq münasibətlərinin inkişafında II İlya həzrətlərinin roluna toxundu.

Zurab Pataradze səfirliyə gələrək başsağlığı verdiyinə görə Prezident İlham Əliyevə minnətdarlığını bildirdi.

# Rasim Əhməd oğlu Balayev



Azərbaycan mədəni ictimaiyyətinə ağır itki üz vermişdir. Milli kino sənətinin görkəmli nümayəndəsi, Azərbaycan Kinematoqrafçılar İttifaqının sədri, Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdçüsü, Dövlət mükafatı laureatı, Xalq artisti Rasim Əhməd oğlu Balayev 2026-cı il martın 29-da ömrünün 78-ci ilində vəfat etmişdir.

Rasim Balayev 1948-ci il avqustun 8-də Ağsu şəhərində anadan olmuşdur. Orta məktəbi bitirdikdən sonra o, 1965-1969-cu illərdə Azərbaycan Dövlət İncəsənət İnstitutunun aktyorluq fakültəsində təhsil almış, 1969-1972-ci illərdə həmin institutun Tədris Teatrında aktyor kimi fəaliyyət göstərmişdir.

Rasim Balayev 1972-ci ildən etibarən "Azərbaycanfilm" kinostudiyasının aktyoru olmuş, eyni zamanda 1990-cı ildən Azərbaycan Kinematoqrafçılar İttifaqı idarə heyətinin birinci katibi vəzifəsini tutmuş, 2022-ci ildə isə İttifaqın sədri seçilmişdir.

"Azərbaycanfilm" kinostudiyasına gəldiyi ilk vaxtlardan istedadlı aktyor kimi tanınan Rasim Balayev özünəməxsus ifa tərzi və yüksək səhnə mədəniyyəti sayəsində qısa müddət ərzində kino həvəskarlarının qəlbinə yol tapmışdır. Onun ekran həyatı verdiyi, böyük təsir gücünə malik yaddaqalan obrazlar geniş tamaşaçı kütləsi tərəfindən hər zaman rəğbətlə qarşılanmışdır.

Azərbaycan kino sənətinin parlaq ənənələrindən ustalıqla faydalanan sənətkar olaraq Rasim Balayevin keçdiyi yaradıcılıq yolu milli kino mədəniyyəti tarixində xüsusi bir mərhələ təşkil edir. Onun baş rollarda çəkildiyi filmlər Azərbaycan kinosunun qızıl fonduna daxildir. Sənətkarın obrazın mənəvi aləminə dərindən nüfuz etməklə canlandırdığı rəngarəng surətlər kino salnaməmizin unudulmaz səhifələrindəndir. Fitri istedadla yaradılan bu bənzərsiz xarakterlər daim özünəməxsusluğu ilə seçilmiş və diqqət mərkəzində dayanmışdır.

Ustad sənətkar qəhrəmanlıq dolu tarixi keçmişimizin və eləcə də müasirlərimizin obrazlarına ekran həyatı verərkən dövrün mənzərəsini yaratmağa müvəffəq olmuşdur. Xalqımızın milli-mənəvi sərvətlərinin təbliğində və yetişməkdə olan gənc nəslin vətənə sədaqət ruhunda tərbiyə olunmasında Rasim Balayevin oynadığı bütün bu rollar mühüm əhəmiyyət kəsb edir. Sənətkarın ifasında əfsanəvi Babək və Nəsimi obrazları Azərbaycan kinematoqrafiyasının xüsusilə böyük uğurlarından hesab edilir.

Rasim Balayev Azərbaycanın hüdudlarından kənarda da ekranlaşdırılmış filmlərdə yaddaqalan obrazlar yaradaraq bir daha özünün sənətkarlıq məharətini nümayiş etdirmişdir.

Cəmiyyət həyatında baş verən proseslərə dərin vətəndaşlıq duyğusu ilə yanaşan Rasim Balayev həmçinin ictimai xadim kimi tanınırdı. O, milli-mənəvi dəyərlərimizin qorunub yaşadılması üçün qüvvə və bacarığını əsirgəmirdi.

Rasim Balayevin milli kino mədəniyyətinin inkişafı sahəsindəki xidmətləri layiqincə qiymətləndirilmişdir. O, müxtəlif illərdə yüksək dövlət mükafatlarına və fəxri adlara layiq görülmüş, müstəqil Azərbaycanın ali mükafatlarından olan "Şöhrət", "Şərəf" və "İstiqlal" ordenləri ilə təltif edilmişdir.

Görkəmli sənətkar, qayğıkeş və təvazökar insan Rasim Balayevin işıqlı xatirəsi xalqımızın qəlbində həmişə yaşayacaqdır.

Allah rəhmət eləsin!

***İlham ƏLİYEV, Mehriban ƏLİYEVA, Əli ƏSƏDOV, Sahibə QAFAROVA, Samir NURİYEV, Eldar ƏZİZOV, Fərəh ƏLİYEVA, Adil KƏRİMLİ, Polad BÜLBÜLOĞLU, Anar RZAYEV, Hacı İSMAYILOV, Şəfiqə MƏMMƏDOVA, Oqtay MİRQASIMOV, Fəxrəddin MANAFOV.***

# Pakistan İslam Respublikasının Baş naziri zati-aliləri cənab Məhəmməd Şahbaz Şərifə

Hörmətli cənab Baş nazir!

Əziz Qardaşım!

23 Mart - Pakistan Günü münasibətilə Sizə və qardaş xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi və xoş arzularımı çatdırmaqdan məmnunluq duyuram.

Dərin tarixi köklər, ortaq dini-mənəvi dəyərlər ilə bir-birinə bağlı olan qardaş xalqlarımızın iradəsindən qaynaqlanan Azərbaycan-Pakistan münasibətləri bu gün yüksək pillədə qərarlaşmışdır. Ali səviyyəli müntəzəm qarşılıqlı səfərlər, sıx təmaslarımız, aramızdakı fəal dialoq dövlətlərarası münasibətlərimizin bütün sahələrdə möhkəmlənməsinə, həm ikitərəfli əsasda, həm də çoxtərəfli müstəvidə yeni tərəfdaşlıq imkanlarının reallaşmasına mühüm təkan verir. Bu əsnada keçən il ölkəmizə həyata keçirdiyiniz səfərləri xüsusi qeyd etmək istərdim.

Azərbaycan ilə Pakistan arasında əlaqələr çoxşaxəli əməkdaşlıq gündəliyinə malikdir. Ölkələrimizin siyasi, iqtisadi, ticari, sənaye, enerji, nəqliyyat-logistika, müdafiə, investisiya, humanitar və digər sahələrdə qarşılıqlı faydalı əməkdaşlığı gündən-günə yeni məzmunla zənginləşir. Bir müddət əvvəl İslamabadda ilk "ASAN xidmət" mərkəzinin fəaliyyətə başlaması genişmiqyaslı dövlətlərarası əməkdaşlığımızın yeni praktiki nəticəsidir. İkitərəfli əməkdaşlıq zəminində qısa müddət ərzində əldə etdiyimiz nailiyyətlər xalqlarımızın rifahına və firavanlığına, regionumuzda əməkdaşlığa xidmət edir.

Çoxtərəfli əsasda da Azərbaycan ilə Pakistan arasında qarşılıqlı etimad və dəstəyə əsaslanan əməkdaşlıq uğurla davam edir. Regional və qlobal məsələlərə ortaq baxışlarımız, beynəlxalq təşkilatlar çərçivəsində qarşılıqlı dəstəyimiz Azərbaycan-Pakistan qardaşlığının və həmrəyliyinin bariz nümunələridir.

Dövlətlərarası əlaqələrimizin və strateji tərəfdaşlığımızın daha da möhkəmləndirilməsi və dərinləşdirilməsi naminə daim nümayiş etdirdiyiniz qətiyyətinizi və əzminizi çox yüksək qiymətləndirirəm.

Əminəm ki, qardaş ölkələrimiz arasında formalaşmış və xalqlarımızın ümumi mənafelərinə tam cavab verən Azərbaycan-Pakistan strateji tərəfdaşlığı birgə qətiyyətli səylərimiz sayəsində bundan sonra da möhkəmlənməyə və dərinləşməyə davam edəcəkdir.

Bu bayram günündə Sizi bir daha ürəkdən təbrik edir, Sizə möhkəm cansağlığı, xoşbəxtlik, qardaş Pakistan xalqının əmin-amanlığı və firavanlığı naminə məsul və şərəfli fəaliyyətinizdə uğurlar və yeni-yeni nailiyyətlər arzulayıram.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 19 mart 2026-cı il*

# Yunanıstan Respublikasının Prezidenti zati-aliləri cənab Konstantinos Tasoulasa

Hörmətli cənab Prezident!

Yunanıstan Respublikasının milli bayramı münasibətilə Sizə və xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi çatdırıram.

İnanıram ki, Azərbaycan ilə Yunanıstan arasında münasibətlər xalqlarımızın mənafelərinə uyğun olaraq bundan sonra da dostluq və əməkdaşlıq məcrasında inkişaf edəcəkdir.

Bu bayram günündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, işlərinizdə uğurlar, Yunanıstan xalqına əmin-amanlıq və rifah arzulayıram.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 19 mart 2026-cı il*

# Banqladeş Xalq Respublikasının Prezidenti zati-aliləri cənab Məhəmməd Şahabuddinə

Hörmətli cənab Prezident!

Banqladeş Xalq Respublikasının milli bayramı - Müstəqillik Günü münasibətilə Sizə və bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi çatdırıram.

Azərbaycan ilə Banqladeş arasındakı dostluq münasibətlərinin xoş ənənələri mövcuddur. İnanıram ki, xalqlarımızın mənafelərinə uyğun olaraq ikitərəfli əlaqələrimizin inkişafı, əməkdaşlığımızın genişlənməsi istiqamətində bundan sonra da birgə səylər göstərəcəyik.

Belə bir xoş gündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, işlərinizdə uğurlar, dost Banqladeş xalqına əmin-amanlıq və rifah arzulayıram.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 19 mart 2026-cı il*

# Dərbənddəki Azərbaycan Dövlət Musiqili Dram Teatrının yenidənqurmadan sonra açılışı münasibətilə təbrik

Əziz dostlar!

Sizi əlamətdar hadisə - Dərbənd şəhərində fəaliyyət göstərən Azərbaycan Dövlət Musiqili Dram Teatrının genişmiqyaslı yenidənqurmadan sonra açılışı münasibətilə təbrik edirəm.

Rusiya Federasiyasının və Dağıstan Respublikasının rəhbərliklərinə Azərbaycan xalqının mədəni-tarixi irsinin bu abidəsinin qorunmasına göstərilən diqqətə görə təşəkkürümü bildirirəm.

Bir əsrdən çox tarixi olan bu mədəniyyət mərkəzi Azərbaycan milli teatr sənətinin ən qədim kollektivlərindən biridir.

Rusiya Federasiyasında Azərbaycan dilində yeganə dövlət teatr müəssisəsi olan Dərbənddəki Azərbaycan Dövlət Musiqili Dram Teatrı Dağıstanın mədəni həyatında daim mühüm rol oynayıb və respublikanın ərazisində yaşayan azərbaycanlıların milli və mənəvi dəyərlərinin qorunmasına töhfə verib. Görkəmli Azərbaycan dramaturqlarının əsərlərinin uğurla tamaşaya qoyulması mədəniyyət mərkəzinə təkcə Dağıstanda deyil, həm də onun hüdudlarından kənarda geniş tamaşaçı rəğbəti qazandırıb.

Bu gün Dərbənddə Azərbaycan teatrının fəaliyyətini bərpa etməsi həm peşəkar sənətçilər və incəsənətə dəyər verənlər, həm də zəngin mədəni rəngarəngliyə malik Dağıstanın bütün əhalisi üçün böyük, çoxdan gözlənilən bayramdır.

Azərbaycan və Dağıstan xalqlarını əsrlər boyu sıx dostluq əlaqələri, mehriban qonşuluq və qarşılıqlı dəstək birləşdirib. Bu ənənəvi əlaqələr Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında münasibətlərdə xüsusi rola malikdir.

Humanitar əməkdaşlığın inkişafı öz növbəsində Azərbaycan-Rusiya dövlətlərarası münasibətlərinin mühüm amilidir. Əminəm ki, Azərbaycan ilə Dağıstan arasında sıx əməkdaşlıq, o cümlədən mədəni-humanitar əlaqələr gələcəkdə də ardıcıl inkişaf edəcək və Azərbaycan-Rusiya müttəfiqlik qarşılıqlı münasibətləri məcrasında genişlənəcəkdir.

Dərbənddəki Azərbaycan Dövlət Musiqili Dram Teatrının bütün kollektivini bu əlamətdar hadisə münasibətilə bir daha təbrik edirəm.

Teatra yeni yaradıcılıq uğurları arzulayıram.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 27 mart 2026-cı il*

# "Patent haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 13-cü bəndini rəhbər tutaraq **qərara alır:**

"Patent haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1997, № 5, maddə 414 (Cild I); 2024, № 6 (I kitab), maddə 631) aşağıdakı dəyişikliklər edilsin:

1. 1-ci maddənin birinci hissəsi üzrə:

1.1. beşinci abzasda "qurum" sözü "orqan (qurum)" sözləri ilə əvəz edilsin;

1.2. doqquzuncu abzas aşağıdakı redaksiyada verilsin:

"iddia sənədi -ixtira, faydalı model və sənaye nümunəsinə patent alınması üçün tərtib olunan və özündə müəllifin (müəlliflərin) yaradıcı fəaliyyətinin nəticəsini obyektiv formada (kağız daşıyıcıda və ya elektron formatda) əks etdirən, müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) təqdim edilən sənədlər toplusu;";

1.3. aşağıdakı məzmunda onuncu - on ikinci abzaslar əlavə edilsin:

"Avrasiya iddia sənədi - 1994-cü il 9 sentyabr tarixli Avrasiya Patent Konvensiyasına (bundan sonra - Avrasiya Patent Konvensiyası) və Avrasiya Patent Konvensiyasının Sənaye nümunələrinin mühafizəsinə dair Protokoluna uyğun olaraq ixtiraya və sənaye nümunəsinə avrasiya patentinin alınması üçün iddia sənədi;

Beynəlxalq iddia sənədi - 1970-ci il 19 iyun tarixli Patent Əməkdaşlığı Müqaviləsinə uyğun olaraq verilmiş iddia sənədi;

ilkinlik iddiası - Sənaye mülkiyyətinin mühafizəsinə dair 1883-cü il 20 mart tarixli Paris Konvensiyasına (bundan sonra - Paris Konvensiyası) tərəfdar çıxan və ya Ümumdünya Ticarət Təşkilatına üzv olan dövlətlərin birində verilmiş bir və ya bir neçə əvvəlki iddia sənədi və ya daha əvvəl verilmiş iddia sənədi (bundan sonra - müvafiq olaraq "əvvəlki iddia sənədi" və ya "daha əvvəl verilmiş iddia sənədi") əsasında ilkinliyin xahiş edildiyi müraciət.".

2.2. 1-ci maddədə "bu Qanundan və bu Qanuna müvafiq qəbul edilən digər qanunvericilik aktlarından və Azərbaycan Respublikasının iştirak etdiyi beynəlxalq müqavilələrdən" sözləri "Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən, bu Qanundan və əqli mülkiyyət məsələlərini tənzimləyən digər normativ hüquqi aktlardan" sözləri ilə əvəz edilsin.

3.3-cü maddə üzrə:

3.1. adında "ixtira" sözü "İxtira" sözü ilə əvəz edilsin;

3.2. birinci hissə 3.1-ci maddə hesab edilsin və həmin maddədə "ixtira" sözü "İxtira" sözü ilə əvəz edilsin;

3.3. ikinci və üçüncü hissələr müvafiq olaraq 3.2-ci və 3.3-cü maddələr hesab edilsin və 3.3-cü maddədə "patentlə mühafizə edilmir və onun istifadəsi qadağandır" sözləri "onların istifadəsinə yol verilib-verilməməsindən asılı olmayaraq patentlə mühafizə edilmir" sözləri ilə əvəz edilsin;

3.4. aşağıdakı məzmunda 3.4-cü maddə əlavə edilsin:

"3.4. İnsanın klonlaşdırılması üsulları və onun klonu, insanın rüşeym xəttinin hüceyrələrinin genetik tamlığının modifikasiyası üsulları, insan embrionlarının sənaye məqsədləri üçün istifadə edilməsi patent obyektləri kimi qəbul edilmir.".

4. 5-ci maddə üzrə:

4.1. adına "Apellyasiya" sözündən əvvəl "Əqli mülkiyyət mübahisələri üzrə" sözləri əlavə edilsin;

4.2. 1-ci hissənin birinci abzasında "ixtira" sözü "İxtira" sözü ilə, "apellyasiya şurasında" sözləri "əqli mülkiyyət mübahisələri üzrə Apellyasiya şurasında (bundan sonra - Apellyasiya şurası)"sözləri ilə əvəz edilsin;

4.3. 2-ci hissədə "orqanı" sözü "orqanının müəyyən etdiyi orqan (qurum)" sözləri ilə əvəz edilsin.

5. 6-cı maddənin 2-ci hissəsində "orqanı" sözü "orqanının müəyyən etdiyi orqan (qurum)" sözləri ilə əvəz edilsin.

6.7-ci maddə üzrə:

6.1. 2-ci hissədən "(bəlli olmayan) "və" (faydalı)" sözləri çıxarılsın;

6.2. 3-cü hissə üzrə:

6.2.1. birinci abzasın ikinci cümləsində "verildiyi günə"sözləri "ilkinlik tarixinə" sözləri ilə əvəz edilsin;

6.2.2. ikinci abzasda "qurumuna" sözü "orqana (quruma)" sözləri ilə,"götürülməyən" sözü "çağırılmayan" sözü ilə, hər iki halda "və faydalı model" sözləri ", faydalı model və sənaye nümunəsi" sözləri ilə əvəz edilsin;

6.3. 4-cü hissədə"bəndi"sözü "hissəsi" sözü ilə əvəz edilsin;

6.4. 5-ci hissənin birinci cümləsində "qurumuna" sözü "orqana (quruma)" sözləri ilə əvəz edilsin;

6.5. 8-ci hissə üzrə:

6.5.1. birinci abzasda "Aşağıdakı obyektlər" sözləri "Aşağıdakılar" sözü ilə əvəz edilsin;

6.5.2. on dördüncü abzasın sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda on beşinci abzas əlavə edilsin:

"ənənəvi biliklərə aid olan obyektlər (ənənəvi biliklərə əsaslanan ixtiralar istisna olmaqla).".

7. 8-ci maddə üzrə:

7.1. 3-cü hissənin ikinci və üçüncü abzasları aşağıdakı redaksiyada verilsin:

"Faydalı modelə dair mövcud bilgilər məcmusuna faydalı modelin ilkinlik tarixinə qədər dünyada hamı üçün müyəssər olan istənilən məlumatlar daxildir.

Mövcud bilgilər məcmusuna həmçinin müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) daha əvvəl ilkinlik tarixi ilə daxil olan və geri çağırılmayan ixtira, faydalı model və sənaye nümunəsi barəsində iddia sənədləri və Azərbaycan Respublikasında patentlə mühafizə edilən ixtira, faydalı model və sənaye nümunəsi də aid edilir.";

7.2. 4-cü hissənin birinci cümləsində "qurumuna" sözü "orqana (quruma)" sözləri ilə əvəz edilsin;

7.3. 6-cı hissənin üçüncü abzasının sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və həmin hissəyə aşağıdakı məzmunda dördüncü abzas əlavə edilsin:

"ənənəvi biliklərə aid olan obyektlər (ənənəvi biliklərə əsaslanan faydalı modellər istisna olmaqla).".

8. 9-cu maddə üzrə:

8.1. 2-ci hissədən"ya"sözü çıxarılsın;

8.2. 3-cü hissənin birinci abzasında"quraşması" sözü ", xətlərin quraşması, məmulatın konturları, məmulatın materialının tekstura və ya fakturası" sözləri ilə əvəz edilsin və həmin abzasa "qədər" sözündən sonra "dünyada"sözü əlavə edilsin;

8.3. 4-cü hissənin birinci cümləsində"qurumuna" sözü "orqana (quruma)" sözləri ilə əvəz edilsin;

8.4. 5-ci hissə aşağıdakı redaksiyada verilsin:

"5. Məmulatın zahiri görkəminin xüsusiyyətləri müəllifin (şərikli müəlliflərin) yaradıcı əməyi ilə şərtlənərsə, sənaye nümunəsi orijinal hesab edilir.";

8.5. aşağıdakı məzmunda 5-1-ci hissə əlavə edilsin:

"5-1. Məmulatın istehlakçını yanılda bilən, o cümlədən məmulatın istehsalçısı və ya istehsal olunduğu yer, habelə məmulatın tara, qablaşdırma, etiket kimi xidmət etdiyi əmtəə barədə istehlakçıda yanlış təsəvvür yarada bilən bədii-konstruktiv həllərə yalnız onlara müstəsna hüququ olan şəxs müraciət etdiyi hallar istisna olmaqla, sənaye nümunəsi kimi hüquqi mühafizə verilmir.";

8.6. 6-cı hissə üzrə:

8.6.1. birinci abzasda "Aşağıdakı obyektlər" sözləri "Aşağıdakılar" sözü ilə əvəz edilsin;

8.6.2. altıncı abzasın sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və həmin hissəyə aşağıdakı məzmunda yeddinci abzas əlavə edilsin:

"ənənəvi biliklərə aid olan obyektlər (ənənəvi biliklərə əsaslanan sənaye nümunələri istisna olmaqla).";

8.7. aşağıdakı məzmunda 7-ci və 8-ci hissələr əlavə edilsin:

"7. Aşağıdakıları özündə saxlayan, əks etdirən və ya təqlid edən obyektlərə sənaye nümunəsi kimi hüquqi mühafizə verilmir:

a) dövlət rəmzləri (bayraq, gerb), pul nişanları, onların adları və tanınan hissələri;

b) beynəlxalq və hökumətlərarası təşkilatların qısaldılmış və ya tam adları, onların bayraqları, gerbləri, digər rəmz və nişanları, habelə həmin rəmz və nişanların adları və tanınan hissələri;

c) təltiflər, rəsmi nişanlar, nəzarət damğaları, rəsmi işarələr, möhürlər, fərqlənmə nişanları, onların adları və tanınan hissələri;

ç) istənilən dövlətin müvafiq səlahiyyətli orqanının (qurumunun) razılığı olmadan həmin dövlətə məxsus olan mədəni (o cümlədən etnik və dini) irs obyektlərinin rəsmi adları, təsviri və ya onların tanınan hissələri.

8. Bu maddənin 7-ci hissəsində göstərilənlər istənilən dövlətin müvafiq səlahiyyətli orqanının (qurumunun), beynəlxalq və hökumətlərarası təşkilatın səlahiyyətli orqanının razılığı olduğu təqdirdə, qorunmayan element kimi sənaye nümunəsinə daxil edilə bilər.".

9.10-cu maddə üzrə:

9.1. 1-ci hissənin birinci abzasında "ixtira" sözü "İxtira" sözü ilə əvəz edilsin;

9.2. 2-ci hissənin birinci abzasında "qurumuna" sözü "orqana (quruma)" sözləri ilə əvəz edilsin;

9.3. 3-cü hissənin birinci cümləsinə "orqanının" sözündən sonra "müəyyən etdiyi orqanın (qurumun)" sözləri əlavə edilsin;

9.4. 5-ci hissədə "orqanı" sözü "orqanının müəyyən etdiyi orqan (qurum)" sözləri ilə əvəz edilsin.

10. 11-ci maddənin 1-ci hissəsinin ikinci abzasının birinci cümləsində, 2-ci hissəsində birinci halda və 4-cü hissəsinin ikinci cümləsində "ixtira" sözü "İxtira" sözü ilə əvəz edilsin.

11. 12-ci maddənin birinci hissəsinin üçüncü abzasında "qurumuna" sözü "orqana (quruma)" sözləri ilə əvəz edilsin.

12. 13-cü maddə üzrə:

12.1. 1-ci hissəyə "müəssisələrin" sözündən sonra ", o cümlədən elmi müəssisə və təşkilatların və ya ali təhsil müəssisələrinin" sözləri əlavə edilsin;

12.2. 2-ci hissə aşağıdakı redaksiyada verilsin:

"2. Yaradılan ixtira, faydalı model və sənaye nümunəsi barəsində işəgötürənlə işçinin münasibətləri müqavilə ilə tənzimlənir.

Xidməti vəzifəsinin həyata keçirilməsi və ya işəgötürənin yazılı tapşırığı ilə əlaqədar işçinin (o cümlədən müəllim, elmi işçi, doktorant, magistr, tələbə və s.) apardığı fundamental və tətbiqi tədqiqatlar, təcrübi işləmələr və innovativ layihələr nəticəsində yaratdığı ixtira, faydalı model və sənaye nümunəsi üçün patent almaq hüququ, işəgötürənlə onun arasında bağlanılmış müqavilədə başqa şərtlər nəzərdə tutulmamışdırsa, işəgötürənə mənsubdur. Tərəflər arasında bağlanılmış müqavilədə royalti şəklində əldə edilən gəlirlərin bölüşdürülməsi qaydaları göstərilməlidir.

Royalti şəklində əldə edilən gəlirdən ixtiraya, faydalı modelə və sənaye nümunəsinə patentin alınması və qüvvədə saxlanılması üçün işəgötürən tərəfindən həmin gəlirin əldə edildiyi tarixədək çəkilmiş bu Qanunun 39-cu maddəsində göstərilən xərclər çıxıldıqdan sonra qalan vəsaitin azı 50 faizi müəllifə (və ya müəlliflərə) ödənilir, digər hissəsi isə ixtira, faydalı model və ya sənaye nümunəsinin yaradıldığı işəgötürənin müvafiq struktur bölmələri arasında bölüşdürülür, habelə innovativ fəaliyyətin inkişafına yönəldilir.

İşəgötürən ixtira, faydalı model və ya sənaye nümunəsi üçün alınmış patentin qüvvədə saxlanılmaması barədə qərar qəbul etdikdə müəllif (müəlliflər) hüquqlarının özgəninkiləşdirilməsi haqqında müqavilə üzrə müstəsna hüququn ona verilməsini tələb edə bilər. Əgər müstəsna hüquqların verilməsi işəgötürənin xarici hüquqi və fiziki şəxslərlə bağladığı müqavilələr üzrə öhdəliklərini pozarsa, bu halda işəgötürən hüquqların verilməsindən imtina edə bilər.";

12.3. 3-cü və 5-ci hissələrdə "bəndinə" sözü "hissəsinə" sözü ilə əvəz edilsin;

12.4. 6-cı hissədə "bəndində" sözü "hissəsində" sözü ilə əvəz edilsin;

12.5. 7-ci hissə üzrə:

12.5.1. ikinci abzasına "verdikdə" sözündən sonra ", bu maddənin 2-ci hissəsi nəzərə alınmaqla," sözləri əlavə edilsin;

12.5.2. üçüncü abzasda ixtira" sözü "İxtira" sözü ilə əvəz edilsin;

12.6. 8-ci hissədə "orqanı" sözü "orqanının müəyyən etdiyi orqan (qurum)" sözləri ilə əvəz edilsin.

13.14-cü maddə üzrə:

13.1. adında "ixtira" sözü "İxtira" sözü ilə əvəz edilsin;

13.2. 2-ci hissəsinin "b" bəndinin ikinci abzası üçüncü abzas hesab edilsin və həmin bəndə aşağıdakı məzmunda ikinci abzas əlavə edilsin:

"Patent sahibi həmçinin patentlə bağlı hüquqların vərəsəlik üzrə və ya digər şəxslərə verilməsi, eləcə də patentdən istifadəyə dair lisenziya müqaviləsinin bağlanması üçün müstəsna hüquqlara malikdir.";

13.3. 4-cü hissənin birinci cümləsində "ixtira" sözü "İxtira" sözü ilə əvəz edilsin.

14. 15-ci maddə üzrə:

14.1. adında "ixtira" sözü "İxtira" sözü ilə əvəz edilsin;

14.2. 3-cü hissə üzrə:

14.2.1. birinci abzas üzrə:

14.2.1.1. birinci və ikinci cümlələrdə "ixtira" sözü "İxtira" sözü ilə əvəz edilsin;

14.2.1.2. üçüncü cümlədə "qurumunda" sözü "orqanda (qurumda)" sözləri ilə əvəz edilsin;

14.2.2. ikinci abzasda "ixtira" sözü "İxtira" sözü ilə əvəz edilsin;

14.3. 4-cü hissə ləğv edilsin.

15.16-cı maddə üzrə:

15.1. 1-ci hissədə "Patentlə" sözü "İddia sənədinin verilmə tarixinə qədər və ya əgər ilkinlik xahiş edilmişdirsə, patentlə" sözləri ilə əvəz edilsin;

15.2. 2-ci hissənin birinci abzasının birinci cümləsində və ikinci abzasında "qurum" sözü "orqan (qurum)" sözləri ilə əvəz edilsin;

15.3. 3-cü hissənin ikinci cümləsində "bəndinə" sözü "hissəsinə" sözü ilə əvəz edilsin.

16. 17-ci maddə üzrə:

16.1. adında "ixtira" sözü "İxtira" sözü ilə əvəz edilsin;

16.2. 2-ci hissədə "orqanı" sözü "orqanının müəyyən etdiyi orqan (qurum)" sözləri ilə əvəz edilsin;

16.3. 3-cü hissədə "ixtira" sözü "İxtira" sözü ilə, "qurumunda" sözü "orqanda (qurumda)" sözləri ilə əvəz edilsin.

17. 18-ci maddə üzrə:

17.1. adında "ixtira" sözü "İxtira" sözü ilə əvəz edilsin;

17.2. mətninin birinci cümləsinə "orqanının" sözündən sonra "müəyyən etdiyi orqanın (qurumun)" sözləri əlavə edilsin.

18. 19-cu maddə üzrə:

18.1. adında "ixtira" sözü "İxtira" sözü ilə əvəz edilsin;

18.2. 1-ci hissənin ikinci abzasının və 2-ci hissənin üçüncü abzasının ikinci cümlələrində, 4-cü hissədə hər iki halda "qurumunda" sözü "orqanda (qurumda)" sözləri ilə əvəz edilsin.

19. 20-ci maddə üzrə:

19.1. 1-ci hissənin üçüncü abzasına "orqanının" sözündən sonra "müəyyən etdiyi orqanın (qurumun)" sözləri əlavə edilsin;

19.2. 2-ci hissənin 2.7-ci bəndinin ikinci abzasında və 2.10-cu bəndinin ikinci abzasının ikinci cümləsində "qurum" sözü "orqan (qurum)" sözləri ilə əvəz edilsin;

19.3. 3-cü hissənin "a" bəndində "ölkənin" sözü "dövlətin" sözü ilə əvəz edilsin.

20. 21-ci maddənin adında "ixtira" sözü "İxtira" sözü ilə əvəz edilsin.

21. 22-ci maddə üzrə:

21.1. 2-ci hissənin birinci abzasının birinci cümləsində "bəndində" sözü "hissəsində" sözü ilə əvəz edilsin;

21.2. 3-cü hissədə "bəndinin" sözü "hissəsinin" sözü ilə, "a) və ya b) yarımbəndlərində" sözləri "həmin hissənin "a" və ya "b" bəndlərində" sözləri ilə əvəz edilsin.

22. 23-cü maddənin birinci hissəsi üzrə:

22.1. beşinci abzas altıncı abzas hesab edilsin və həmin hissəyə aşağıdakı məzmunda beşinci abzas əlavə edilsin:

"bu Qanunun, Avrasiya Patent Konvensiyasının və Avrasiya Patent Konvensiyasının Sənaye nümunələrinin mühafizəsinə dair Protokolunun müddəalarına xələl gətirmədən patent sahibi tərəfindən və ya patent sahibinin icazəsi ilə istənilən dövlətdə qanuni yolla təsərrüfat dövriyyəsinə daxil edilmiş vasitələrin istifadəsi, istifadə üçün təklif olunması, satışı və idxalı;";

22.2. altıncı abzasda "ölkələrin hüquqi və ya fiziki şəxslərinə" sözləri "hüquqi və ya fiziki şəxslərə" sözləri ilə əvəz edilsin.

23. 25-ci maddənin mətnində "ixtira" sözü "İxtira" sözü ilə, "orqanı" sözü "orqanının müəyyən etdiyi orqan (qurum)" sözləri ilə əvəz edilsin.

24. 26-cı maddə üzrə:

24.1. adı aşağıdakı redaksiyada verilsin:

**"Maddə 26. Beynəlxalq və Avrasiya iddia sənədləri";**

24.2. 1-ci hissə ləğv edilsin;

24.3. 2-ci hissədə "beynəlxalq iddia sənədini" sözləri "Beynəlxalq və Avrasiya iddia sənədlərini" sözləri ilə, "iştirak etdiyi" sözləri "tərəfdar çıxdığı" sözləri ilə əvəz edilsin;

24.4. 3-cü hissədə hər iki halda "qurum" sözü "orqan (qurum)" sözləri ilə, "bəndinə" sözü "hissəsinə" sözü ilə, "beynəlxalq" sözü "Beynəlxalq və ya Avrasiya" sözləri ilə əvəz edilsin.

25. 27-ci maddə üzrə:

25.1. 1-ci hissə üzrə:

25.1.1. birinci cümlədə "ixtira" sözü "İxtira" sözü ilə, "qurumuna" sözü "orqana (quruma)" sözləri ilə əvəz edilsin;

25.1.2. ikinci cümlədə "qurumunun" sözü "orqanın (qurumun)" sözləri ilə əvəz edilsin və həmin cümləyə "orqanla" sözündən sonra "(qurumla)" sözü əlavə edilsin;

25.2.2-ci hissə üzrə:

25.2.1. birinci abzasda "qurumuna" sözü "orqana (quruma)" sözləri ilə, "qurumunda" sözü "orqanda (qurumda)" sözləri ilə əvəz edilsin və həmin abzasa "müvəkkili" sözündən sonra "və ya nümayəndə" sözləri əlavə edilsin;

25.2.2. ikinci abzasda "Xarici" sözü "Bu Qanunun 27-2-ci maddəsi nəzərə alınmaqla, xarici" sözləri ilə, "qurumuna" sözü "orqana (quruma)" sözləri ilə, "iştirak etdiyi" sözləri "tərəfdar çıxdığı" sözləri ilə, "qurumunda" sözü "orqanda (qurumda)" sözləri ilə əvəz edilsin;

25.2.3. üçüncü abzasa "müvəkkillərinin" sözündən sonra "və nümayəndələrin" sözləri əlavə edilsin;

25.3. 3-cü hissə üzrə:

25.3.1. birinci abzas üzrə:

25.3.1.1. birinci cümlədə "vəhdət təşkil edən" sözləri "vahid ixtiraçılıq fikri ilə əlaqəli olan" sözləri ilə əvəz edilsin və həmin cümləyə "edilməlidir" sözündən sonra "(vəhdətlik tələbi)" sözləri əlavə edilsin;

25.3.1.2. ikinci cümlə üçüncü cümlə hesab edilsin və aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"İxtira və ya faydalı modelin vəhdətlik tələbi o zaman yerinə yetirilmiş hesab edilir ki, həmin ixtiralar və ya faydalı modellər arasında, məcmu şəklində baxılan iddia olunmuş ixtiraların və ya faydalı modellərin hər biri tərəfindən texnika səviyyəsinə verilən töhfəni (faydanı) müəyyən edən bir və ya bir neçə eyni və ya müvafiq texniki əlamətlərlə ifadə olunan qarşılıqlı əlaqə olsun.";

25.4. aşağıdakı məzmunda 3-1-ci və 3-2-ci hissələr əlavə edilsin:

"3-1. İddia olunan ixtira genetik ehtiyatlara əsaslanarsa, iddiaçı genetik ehtiyatların mənşə ölkəsi haqqında məlumatı təqdim etməli, əgər bu məlumat iddiaçıya məlum deyilsə, genetik ehtiyatların mənbəyini açıqlamalıdır.

3-2. İddia sənədində iddia edilmiş ixtira genetik ehtiyatlarla əlaqəli olan ənənəvi biliklərə əsaslanarsa, iddiaçı hansının münasib olmasından asılı olaraq, genetik ehtiyatlarla əlaqəli olan ənənəvi bilikləri təqdim etmiş yerli xalqlar və ya yerli tayfa haqqında məlumatı və ya genetik ehtiyatlarla əlaqəli olan ənənəvi biliklərin mənbəyini açıqlamalıdır (təqdim edilmiş məlumatın doğruluğuna görə iddiaçı məsuliyyət daşıyır).";

25.5. 4-cü hissə aşağıdakı redaksiyada verilsin:

"4. Sənaye nümunəsi barəsindəiddia sənədi bir sənaye nümunəsinə və ya Sənaye Nümunələrinin Beynəlxalq Təsnifatının (Lokarno təsnifatı) bir sinfinə aid olan bir qrup sənaye nümunəsinə aid olmalıdır.

Sənaye nümunəsi barəsində iddia sənədinə aşağıdakılar daxil edilir:

a) müəllif (müəlliflər) və adına patent verilməsi xahiş edilən hüquqi və ya fiziki şəxs (şəxslər), həmçinin onların yerləşdiyi və ya yaşadığı yer göstərilməklə patent verilməsi barədə ərizə;

b) məmulatın zahiri görkəminin estetik xüsusiyyətlərini müəyyən edən sənaye nümunəsinin mühüm əlamətləri barədə aydın təsəvvür yaradan məmulatın şəkillərinin dəsti;

c) sənaye nümunəsinin mahiyyətini açıqlamaq üçün zəruri olduqda sənaye nümunəsinin mühüm əlamətlərini əks etdirən təsviri, məmulatın ümumi görkəminin çertyojları (o cümlədən iddiaçının istəyinə görə onun elektron formada üçölçülü modeli), erqonomik sxemi, konfeksiya xəritəsi;

ç) sənaye nümunəsinin yaradılması zamanı istifadə edilmiş və ya onda təcəssüm etdirilmiş mədəniyyətin ənənəvi ifadələrinin, ənənəvi biliklərin və ya genetik ehtiyatlarla əlaqəli olan ənənəvi biliklərin mənbəyinin açıqlanması (iddiaçı təqdim edilmiş məlumatın doğruluğuna görə məsuliyyət daşıyır).";

25.6. 6-cı hissədə "orqanı" sözü "orqanının müəyyən etdiyi orqan (qurum)" sözləri ilə əvəz edilsin;

25.7. 7-ci hissənin birinci abzasının üçüncü cümləsində "iddia sənədinin verildiyi gündən" sözləri "iddiaçının bu barədə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən göndərilən bildirişi aldığı tarixdən" sözləri ilə əvəz edilsin;

25.8. 8-ci hissə üzrə:

25.8.1. ikinci abzasda "qurum iddia sənədi materiallarının rəsmi bülletendə dərcinə dair qərar qəbul edənədək iddiaçı" sözləri "orqan (qurum) tərəfindən bu Qanunun 30-cu maddəsinə uyğun olaraq, iddia sənədi materiallarının rəsmi bülletendə dərcinə texniki hazırlıq başa çatanadək iddiaçı müvafiq haqqın ödənilməsi şərtilə" sözləri ilə əvəz edilsin;

25.8.2. üçüncü abzasın ikinci cümləsində "sənədində göstərilmiş" sözləri "edilən" sözü ilə, "əvvəlki" sözü "əvvəl verilən" sözləri ilə əvəz edilsin.

26. Aşağıdakı məzmunda 27-1-ci və 27-2-ci maddələr əlavə edilsin:

"Maddə 27-1. **İddia sənədinin verilmə tarixinin müəyyən edilməsi**

1. İddia sənədinin verilmə tarixi onun müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən alındığı tarix üzrə müəyyən edilir, bu şərtlə ki, iddia sənədində həmin tarixdə azı aşağıdakıların olduğu müəyyən edilmiş olsun:

a) iddia sənədi üzrə patent verilməsi barədə Azərbaycan dilində müraciət;

b) iddiaçının şəxsiyyətini müəyyən etməyə və ya onunla əlaqə yaratmağa imkan verən Azərbaycan dilində məlumat;

c) zahirən ixtiranın və ya faydalı modelin təsvirinə oxşayan istənilən dildə verilmiş mətn hissəsi, sənaye nümunəsi üçün isə sənaye nümunəsi və onun mühüm əlamətləri barədə kifayət qədər aydın vizual təsəvvür yaradan şəkillər dəsti.

2. Bu maddənin 1-ci hissəsinin "c" bəndində qeyd olunan iddia sənədinin zahirən təsvirə oxşayan hissəsinin yerinə iddiaçı və ya ondan əvvəl bu hüquqa malik olan şəxs iddia sənədinin verilmə tarixinin müəyyən edilməsi məqsədilə təsvir və ya istənilən çertyojların daha əvvəl verilmiş iddia sənədinə istinadla əvəz edilməsi barədə ərizə təqdim etmək imkanına malikdir.

Ərizə Azərbaycan dilində tərtib olunmalı və olduğu halda daha əvvəl verilmiş iddia sənədinin nömrəsi, verilmə tarixi və bu iddia sənədinin ilk verildiyi ölkənin adı göstərilməlidir.

Daha əvvəl verilmiş iddia sənədi iddiaçının hüquqi varisi tərəfindən verildiyi halda, ərizəyə onun iddiaçının hüquqi varisi olduğunu təsdiq edən sənəd əlavə edilir.

Bu hissənin birinci abzasında qeyd edilən ərizə verildikdə bu maddənin 8-ci hissəsi nəzərə alınmaqla, iddiaçı bu cür istinad saxlayan iddia sənədi müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) daxil olduğu tarixdən 2 ay ərzində daha əvvəl verilmiş iddia sənədinin təsdiqlənmiş surətini təqdim etməlidir. Daha əvvəl verilmiş iddia sənədi Azərbaycan dilində tərtib olunmadığı halda həmin müddət ərzində onun tərcüməsi də təqdim olunmalıdır.

3. İddia sənədinin alındığı tarixdə o, bu maddənin 1-ci hissəsində göstərilən tələblərə cavab vermədikdə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) bu Qanunun 29-cu maddəsinin 1-ci hissəsində nəzərdə tutulan müddətdə bu barədə iddiaçıya bildiriş verir, bildirişi aldığı tarixdən 2 ay ərzində ona bu tələbləri yerinə yetirməyə imkan yaradır və iddia sənədinin verilmə tarixi kimi bu tələblərin yerinə yetirildiyi tarixi müəyyən edir.

4. Bu maddənin 3-cü hissəsində qeyd olunan müddət bitənədək bu maddənin 1-ci hissəsində göstərilən tələblər yerinə yetirilməzsə, iddia sənədi verilməmiş sayılır. Bu halda müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) müvafiq səbəblər göstərməklə bu barədə iddiaçını 5 iş günündən gec olmayaraq yazılı şəkildə məlumatlandırır.

5. Bu maddənin 3-cü hissəsində nəzərdə tutulan bildiriş müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) iddiaçı ilə əlaqə yaratmasına imkan verən məlumatların təqdim edilməməsi səbəbindən göndərilmədiyi halda, müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) bu maddənin 1-ci hissəsində qeyd olunan bir və ya bir neçə sənədi ilk dəfə aldığı tarixdən 2 ay müddətində həmin hissədə nəzərdə tutulan tələblər yerinə yetirilməmişdirsə, iddia sənədi verilməmiş sayılır.

6. Bu maddənin 2-ci hissəsinin tələbləri yerinə yetirilməmişdirsə, iddia sənədi verilməmiş sayılır və müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) səbəbləri göstərməklə iddiaçıya bu barədə 5 iş günündən gec olmayaraq bildiriş göndərir.

7. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) iddia sənədinin verilmə tarixini müəyyən edərkən bu maddənin 1-ci hissəsinin "c" bəndinə uyğun olaraq təqdim olunmuş təsvirin hissəsinin və ya iddia sənədində istinad edilən çertyojun olmadığını aşkar etdiyi halda, iddiaçının bildirişi aldığı tarixdən 2 ay müddətində çatışmayan materialların təqdim edilməsinin vacibliyi barədə ona dərhal bildiriş göndərir.

Bildirişdə göstərilən materiallar iddiaçı tərəfindən 2 ay müddətində təqdim edildiyi halda onlar iddia sənədinə daxil edilir. Bu zaman hansı tarixin daha gec olmasından asılı olaraq, müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən təsvirin bu hissəsinin və ya bu çertyojun alındığı tarix və ya bu maddənin 1-ci hissəsinə uyğun olaraq bütün tələblərin yerinə yetirildiyi tarix iddia sənədinin verilmə tarixi hesab olunur.

Əvvəlki iddia sənədi üzrə ilkinlik xahiş edildiyi halda əvvəlki iddia sənədi çatışmayan hissəni bütövlüklə saxlayırsa, iddiaçının vəsatəti üzrə bu maddənin1-ci hissəsində nəzərdə tutulan bütün tələblərin yerinə yetirildiyi tarix iddia sənədinin verilmə tarixi sayılır, bu şərtlə ki:

a) bu hissənin üçüncü abzasında qeyd olunan vəsatət iddiaçı tərəfindən ya iddia sənədi materiallarının müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) verildiyi zaman, ya da iddiaçı bu hissənin birinci abzasında göstərilən bildirişi aldığı tarixdən 2 ay ərzində verilsin;

b) Paris konvensiyasına tərəfdar çıxan ölkələrin birində daha əvvəl verilmiş iddia sənədinin təsdiqlənmiş surəti, hansı müddətin daha tez bitməsindən asılı olaraq, ya əvvəlki iddia sənədinin verildiyi tarixdən 16 ay ərzində, yaxud onun surətinin təqdim edilməsinin vacibliyi barədə bildirişi iddiaçı aldığı tarixdən 4 ay ərzində təqdim edilsin;

c) başqa dildə tərtib olunduğu halda əvvəlki iddia sənədinin Azərbaycan dilinə tərcüməsi iddiaçı tərcümənin təqdim edilməsinin vacibliyi barədə bildirişi aldığı tarixdən 2 ay ərzində təqdim edilsin;

ç) vəsatətdə təsvirin çatışmayan hissəsinin və ya çatışmayan çertyojun əvvəlki iddia sənədində və ya onun tərcüməsində harada olması barədə qeyd olsun.

8. Əvvəlki iddia sənədi və ya daha əvvəl verilmiş iddia sənədi müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) verildiyi və ya Ümumdünya Əqli Mülkiyyət Təşkilatının İlkin Sənədlərə Rəqəmsal Giriş Xidməti vasitəsilə onun üçün əlçatan olduğu halda bu Qanunun 28-ci maddəsinin 4-cü hissəsində qeyd olunan əvvəlki iddia sənədinin və ya bu maddənin 2-ci hissəsində qeyd olunan daha əvvəl verilmiş iddia sənədinin təsdiqlənmiş surəti iddiaçıdan tələb olunmur.

Maddə 27-2. **İddia sənədi üzrə bilavasitə təmsiletmə**

Xarici hüquqi və fiziki şəxs olan iddiaçı, patent sahibi və ya digər maraqlı şəxslər iddia sənədinin verilmə tarixinin müəyyən edilməsi, patentin qüvvədə saxlanılması üçün ödənişlərin edilməsi, bu Qanunun 27-1-ci maddəsində qeyd olunan əvvəlki və daha əvvəl verilmiş iddia sənədlərinin surətlərinin təqdim edilməsi, habelə həmin maddədə sadalanan prosedurlara dair müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) bildirişlərinin alınması ilə bağlı işləri bilavasitə həmin orqanla (qurumla) aparmaq hüququna malikdirlər. Bu halda iddiaçı, patent sahibi və ya digər maraqlı şəxslər Azərbaycan Respublikası ərazisində yazışma üçün və (və ya) hüquqi sənədlərin verilməsi üçün ünvan təqdim etməlidirlər.".

27. 28-ci maddə üzrə:

27.1. adında "ixtira" sözü "İxtira" sözü ilə əvəz edilsin;

27.2. 1-ci hissə aşağıdakı redaksiyada verilsin:

"1. Paris Konvensiyasına tərəfdar çıxan və ya Ümumdünya Ticarət Təşkilatına üzv olan dövlətdə və ya bu dövlət üçün ixtira, faydalı model və sənaye nümunəsi barəsində iddia sənədini həmin dövlətin milli qanunvericiliyində müəyyən olunmuş qaydada vermiş şəxs və ya onun hüquqi varisi iddia sənədi verərkən bu maddənin 2-5-ci və 6-1-ci hissələri ilə müəyyən edilmiş müddətlər nəzərə alınmaqla müvafiq ilkinlik hüququna malikdirlər.

İlkinlik hüququ verildiyi dövlətin milli qanunvericiliyinə, yaxud beynəlxalq müqavilələrə uyğun olaraq düzgün tərtib edilmiş milli iddia sənədinin qüvvəsinə malik olan daha sonra verilmiş iddia sənədi barəsində qəbul edilir.

Bu hissəyə uyğun olaraq ilkinliyə dair istənilən iddianın şərtləri və nəticələri Paris Konvensiyasının Stokholm Aktının 4-cü maddəsində nəzərdə tutulduğu kimi olmalıdır.";

*Ardı 5-ci səh.*

# "Patent haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

*Əvvəli 4-cü səh.*

27.3. 2-ci hissə üzrə:

27.3.1. birinci abzasda birinci halda "ixtira" sözü "İxtira" sözü ilə, "Sənaye mülkiyyətinin mühafizəsinə dair Paris konvensiyasının və ya Ümumdünya Ticarət Təşkilatının iştirakçısı" sözləri "Paris Konvensiyasına tərəfdar çıxan və ya Ümumdünya Ticarət Təşkilatına üzv" sözləri ilə, "müəyyənləşdirilə bilər" sözləri "müəyyənləşdirilir" sözü ilə, "qurumuna" sözü "orqana (quruma)" sözləri ilə əvəz edilsin və həmin abzasa aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"İddia sənədinin verildiyi gün bu hissədə göstərilən ilkinlik tarixi ilə bağlı müddətə daxil edilmir.";

27.3.2. ikinci abzasda "Paris konvensiyasının və ya Ümumdünya Ticarət Təşkilatının iştirakçısı" sözləri "Paris Konvensiyasına tərəfdar çıxan və ya Ümumdünya Ticarət Təşkilatına üzv" sözləri ilə əvəz edilsin;

27.4. 3-cü hissə üzrə:

27.4.1. birinci abzas üzrə:

27.4.1.1. birinci cümlədə "Faydalı model və ya sənaye" sözləri "Sənaye" sözü ilə, hər iki halda "qurumuna" sözü "orqana (quruma)" sözləri ilə əvəz edilsin;

27.4.1.2. ikinci cümlə çıxarılsın;

27.4.2. ikinci abzas ləğv edilsin;

27.5. 4 - 6-cı hissələr aşağıdakı redaksiyada verilsin:

"4. İxtira və ya faydalı model üçün konvensiya ilkinliyi hüququndan istifadə etmək istəyən iddiaçı müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) iddia sənədini verərkən bu istəyini bildirməli və bu Qanunun 27-1-ci maddəsinin 8-ci hissəsi nəzərə alınmaqla əvvəlki iddia sənədinin verildiyi tarixdən və ya daha əvvəl verilmiş bu cür bir neçə iddia sənədi olarsa həmin əvvəlki iddia sənədlərindən hər hansının daha əvvəl verildiyi tarixdən 16 ay ərzində əvvəlki iddia sənədinin təsdiqlənmiş surətini təqdim etməlidir.

Verilmiş iddia sənədi ixtira, faydalı model və ya sənaye nümunəsi üçün ilkinliyə dair iddia saxlamadığı halda iddiaçı bu istəyini daha sonra bu Qanunun 28-1-ci maddəsinin 1-ci hissəsində nəzərdə tutulmuş müddət ərzində və tələblərə uyğun olaraq bildirə bilər.

İxtira, faydalı model və ya sənaye nümunəsi barəsində əvvəlki iddia sənədi Azərbaycan dilində verilmədiyi və ilkinlik iddiasının həqiqiliyi baxılan ixtira, faydalı model və ya sənaye nümunəsinin patent qabiliyyətliyinin təyin olunmasına aid olduğu halda müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) 10 iş günü müddətində bu barədə verdiyi bildiriş əsasında əvvəlki iddia sənədinin tərcüməsi, tarixlərdən hansının daha gec bitməsindən asılı olaraq, iddiaçının bildirişi aldığı tarixdən 2 ay ərzində və ya bu Qanunun 28-1-ci maddəsinin 1-ci hissəsində nəzərdə tutulmuş müddət ərzində təqdim edilir.

Məlumatda iddiaçı əvvəlki iddia sənədi obyektinə dair biblioqrafiya göstəricilərini təqdim edir.

5. İlkinlik daha əvvəl verilən bir neçə iddia sənədi üzrə müəyyən edilə bilər.

İlkinlik bundan əvvəl ilkinliyi istənilmiş iddia sənədinin daxil olduğu tarixdən müəyyənləşdirilə bilməz.

6. Patent üçün bir iddia sənədində bir neçə ilkinlik iddiası ola bilər. Həmçinin bir və ya bir neçə ilkinliyin iddia olunduğu iddia sənədi ilkinliyin xahiş olunduğu iddia sənədinə və ya iddia sənədlərinə daxil edilməyən bir və ya bir neçə element saxlaya bilər, bu şərtlə ki, hər iki halda ixtira, faydalı model və ya sənaye nümunəsinin vəhdəti gözlənilmiş olsun.";

27.6. aşağıdakı məzmunda 6-1-ci hissə əlavə edilsin:

"6-1. Bu Qanunun 29-cu maddəsinin 5-ci hissəsi nəzərə alınmaqla, ayrılmış iddia sənədi üzrə ilkinlik ilk iddia sənədinin ilkinlik tarixindən müəyyən edilir.";

27.7. 7-ci hissə ləğv edilsin;

27.8. 9-cu hissə aşağıdakı redaksiyada verilsin:

"9. Bu maddənin 4-cü hissəsinin birinci və üçüncü abzaslarında nəzərdə tutulan tələblər müəyyən edilmiş müddətlərdə yerinə yetirilmədiyi halda müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) iddiaçıya bu barədə bildiriş göndərir və ona bildirişi aldığı tarixdən 2 ay ərzində həmin tələbləri yerinə yetirmək imkanı verir. Qeyd edilən müddət ərzində bu tələblər yerinə yetirilmədiyi halda bu Qanunun 28-2-ci maddəsinin 2-ci hissəsi nəzərə alınmaqla ilkinliyə dair vəsatət verilməmiş sayılır.";

27.9. 10-cu hissə üzrə:

27.9.1. birinci cümlədə "qurumuna" sözü "orqana (quruma)" sözləri ilə əvəz edilsin;

27.9.2. ikinci cümlədə "qurumunda" sözü "orqanda (qurumda)" sözləri ilə əvəz edilsin.

28. Aşağıdakı məzmunda 28-1 - 28-3-cü maddələr əlavə edilsin:

"Maddə 28-1. **İlkinlik iddiasında düzəlişlər və ya əlavələr**

1. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) iddiaçı tərəfindən iddia sənədi barəsində ilkinlik iddiasına düzəlişlər və əlavələr edilməsinə imkan yaradır, bu şərtlə ki:

a) bu barədə vəsatət, ixtira və ya faydalı modelin ilkinlik tarixindən 16 ay ərzində və ya edilmiş düzəliş və ya əlavə ilkinlik tarixinin dəyişməsinə səbəb olduğu halda həmin dəyişdirilmiş ilkinlik tarixindən 16 ay ərzində bu müddətlərdən hansının birinci bitməsindən asılı olaraq müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) verilsin və belə vəsatət patent üçün iddia sənədinin verilmə tarixindən 4 ay keçənədək verilmiş olsun;

b) bu barədə vəsatət, sənaye nümunəsinin ilkinlik tarixindən 6 aydan gec olmayaraq və ya edilmiş düzəliş və ya əlavə ilkinlik tarixinin dəyişməsinə səbəb olduğu halda həmin dəyişdirilmiş ilkinlik tarixindən 6 ay ərzində bu müddətlərdən hansının birinci bitməsindən asılı olaraq müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) verilsin və belə vəsatət patent üçün iddia sənədinin verilmə tarixindən 2 ay keçənədək verilmiş olsun;

c) iddia sənədi əsasında ilkinlik xahiş edilən ən erkən iddia sənədinin verilmə tarixindən hesablanan ilkinlik müddəti bitənədək verilsin;

ç) bu hissənin "a", "b" və "c" bəndlərinə uyğun olaraq verilmiş vəsatətə baxılması üçün müəyyən edilmiş haqq ödənilsin.

2. Bu maddənin 1-ci hissəsində göstərilmiş vəsatət iddiaçı tərəfindən bu Qanunun 30-cu maddəsinin 1-ci hissəsinə uyğun olaraq iddia sənədinin müəyyən olunmuş müddətdən tez dərc olunması haqqında vəsatətdən sonra verildiyi halda (dərcə texniki hazırlıq başa çatana qədər iddia sənədinin müəyyən olunmuş müddətdən tez dərc olunması haqqında vəsatətin geri çağırıldığı hallar istisna olunmaqla) verilməmiş sayılır.

Maddə 28-2. **İlkinlik hüququnun bərpa edilməsi**

1.Əvvəlki iddia sənədinin ilkinliyinin xahiş olunduğu və ya xahiş oluna biləcəyi iddia sənədi bu Qanunun 28-ci maddəsinin 2-ci hissəsində göstərilən ilkinlik müddəti bitdikdən sonra, lakin bu müddətin bitdiyi tarixdən 2 aydan gec olmayaraq verildiyi halda müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) ilkinlik hüququnu bərpa edir, bu şərtlə ki:

a) hüququn bərpa edilməsi haqqında vəsatət müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) müddətlərdən hansının daha tez bitməsindən asılı olaraq bu Qanunun 28-ci maddəsinin 2-ci hissəsində göstərilən ilkinlik müddəti bitdiyi tarixdən 2 ay ərzində və ya iddia sənədinin dərci üçün texniki hazırlıq bitənə qədər verilsin;

vəsatətdə ilkinlik müddətinin gözlənilməməsinin səbəbləri göstərilsin və iddia sənədinin ilkinlik müddətinin bərpası barədə bu Qanunun 28-ci maddəsinin 2-ci hissəsində nəzərdə tutulan müddətdə vəsatətin müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) verilməməsinin iddiaçıdan asılı olmadığını sübut edə bilsin;

b) ilkinlik hüququnun bərpa edilməsi barədə vəsatətə baxılması üçün müəyyən edilmiş haqq ödənilsin.

2. Əvvəlki iddia sənədinin təsdiqlənmiş surəti bu Qanunun 28-ci maddəsinin 4-cü hissəsində nəzərdə tutulan müddətdə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) təqdim olunmadığı halda həmin orqan (qurum) ilkinlik hüququnu o şərtlə bərpa edə bilər ki:

a) bu barədə vəsatət əvvəlki iddia sənədinin təsdiqlənmiş surətinin verilməsi üçün bu Qanunun 28-ci maddəsinin 4-cü hissəsində nəzərdə tutulan müddət ərzində müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) verilmiş olsun;

b) iddiaçı müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma), əvvəlki iddia sənədini qeydiyyata almış Paris Konvensiyasına tərəfdar çıxan ölkələrdən birinin patent idarəsinə verilən əvvəlki iddia sənədinin təsdiqlənmiş surətinin təqdim edilməsi üçün bu Qanunun 28-ci maddəsinin 4-cü hissəsində nəzərdə tutulan müddət bitənədək bu iddia sənədinin təsdiqlənmiş surətinin 2 aydan gec olmayan müddətdə tələb edildiyini sübut edən vəsatətin təsdiqini təqdim etmiş olsun;

c) əvvəlki iddia sənədinin təsdiqlənmiş surəti əvvəlki iddia sənədinin verildiyi Paris Konvensiyasına tərəfdar çıxan ölkələrdən birinin patent idarəsi tərəfindən iddiaçıya bu surətin təqdim edildiyi tarixdən 1 ay ərzində müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) verilmiş olsun;

ç) bu hissəyə uyğun olaraq verilmiş vəsatətə baxılması üçün müəyyən edilmiş haqq ödənilmiş olsun.

Maddə 28-3. **Nəzərdə tutulan rəddetmə halında iradların təqdim olunması imkanı**

Bu Qanunun 28-1-ci və 28-2-ci maddələrinə uyğun olaraq müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) verilmiş vəsatətin təmin olunması tam və ya qismən rədd edilənədək vəsatət verən tərəf bu barədə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən 5 iş günü müddətində ona göndərilən bildirişi aldığı tarixdən 2 ay müddətində nəzərdə tutulan rəddetmə ilə əlaqədar öz iradlarını təqdim edə bilər. İddiaçının iradı alındıqdan sonra 5 iş günündən gec olmayaraq vəsatətə yenidən baxılaraq müvafiq qərar qəbul edilir.".

29. 29-cu maddə üzrə:

29.1. 1-ci hissə aşağıdakı redaksiyada verilsin:

"1. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) ixtira, faydalı model və sənaye nümunəsi barədə iddia sənədinin ekspertizasının (ilkin ekspertiza daxil olmaqla) həyata keçirilməsi üçün müəyyən edilmiş haqqın ödənildiyi tarixdən etibarən 1 ay ərzində bu Qanunun 27-ci maddəsinin 3-cü və 4-cü hissələrinin tələblərinə, eləcə də bu Qanunun 27-1-ci maddəsinə uyğun ilkin ekspertizasının aparılmasını təmin edir. Ekspertizanın aparılması üçün müəyyən edilmiş haqqın ödənişi iddia sənədinin müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) daxil olduğu tarixdən 1 aydan gec olmayaraq həyata keçirilməlidir. İlkin ekspertiza zamanı tələb olunan sənədlərin mövcudluğu və düzgün tərtib olunması onların iddia sənədinin verilmə tarixinin müəyyən edilməsinə dair tələblərə uyğun olaraq yoxlanılır. Göstərilən sənədlər bu Qanunun 27-1-ci maddəsinin 3-cü hissəsinə və bu maddənin 2-ci hissəsinə uyğun olaraq müəyyən edilmiş müddət ərzində təqdim edilmədiyi halda iddiaçıya ixtira, faydalı model və sənaye nümunəsi barədə iddia sənədini baxılmağa qəbul edilməkdən imtina haqqında bildiriş göndərilir.";

29.2. 2-ci hissə üzrə:

29.2.1. birinci abzas üzrə:

29.2.1.1. birinci cümlədə ", 5-ci və 6-cı bəndlərinin" sözləri "və 6-cı hissələrinin" sözləri ilə əvəz edilsin;

29.2.1.2. ikinci cümlədə "qaytarılmayan" sözü "çatışmayan" sözü ilə əvəz edilsin;

29.2.1.3. aşağıdakı məzmunda üçüncü abzas əlavə edilsin:

"İddia sənədi bu Qanunun 27-1-ci maddəsinin bir və ya bir neçə tələbinə cavab vermədiyi halda müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) iddiaçıya həmin maddədə nəzərdə tutulan müddətlərdə bu tələbləri yerinə yetirmək imkanı verir.";

29.3. 3-cü hissə üzrə:

29.3.1. birinci abzas aşağıdakı redaksiyada verilsin:

"İxtira, faydalı model və sənaye nümunəsi barəsində iddia sənədi bu maddənin 1-ci hissəsində nəzərdə tutulan tələblərə cavab verdiyi halda müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) onun aşağıdakılara uyğunluğu baxımından ekspertizasını keçirir:";

29.3.2. ikinci və üçüncü abzaslarda "3-cü maddəsinin üçüncü abzasının" sözləri "3.3-cü və 3.4-cü maddələrinin" sözləri ilə, "bəndlərinin" sözü "hissələrinin" sözü ilə əvəz edilsin;

29.3.3. dördüncü abzasda "3-cü maddəsinin üçüncü abzasının" sözləri "3.3-cü və 3.4-cü maddələrinin" sözləri ilə, ", 6-cı və 7-ci bəndlərinin" sözləri "və 6-cı hissələrinin" sözləri ilə əvəz edilsin;

29.3.4. beşinci abzasda ismin müvafiq hallarında "bənd" sözü ismin müvafiq hallarında "hissə" sözü ilə, "abzası" sözü "abzasına" sözü ilə əvəz edilsin;

29.3.5. altıncı abzasda "qurumunun" sözü "orqanın (qurumun)" sözləri ilə əvəz edilsin və həmin abzasa "edilir və" sözlərindən sonra "iddiaçı müəyyən edilmiş haqqı ödədikdən sonra bu Qanunun 30-cu maddəsinə uyğun olaraq" sözləri əlavə edilsin;

29.4. 5-ci hissə üzrə:

29.4.1. birinci abzasa "olan və" sözlərindən sonra "ixtira və ya faydalı modelin" sözləri və "müddətində" sözündən sonra "bu" sözü əlavə edilsin;

29.4.2. ikinci abzasa "müddətdə" sözündən sonra "ixtiranın və ya faydalı modelin vəhdətinin pozulması barədə" sözləri əlavə edilsin, həmin abzasda "qurum" sözü "orqan (qurum)" sözləri ilə, "düsturunun birinci bəndində göstərilən iddia obyektinə" sözləri "düsturunda birinci göstərilən obyektə və ixtiranın və ya faydalı modelin vəhdət tələbi ilə əlaqələnən digər obyektlərinə" sözləri ilə əvəz edilsin və həmin abzasa aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"Sənaye nümunəsi barəsində iddia sənədi birdən çox sənaye nümunəsinə aid olduğu halda və bu Qanunun 27-ci maddəsinin 4-cü hissəsinin tələbinin pozulması ilə verildikdə iddiaçıya təklif edilir ki, ona müvafiq bildirişin göndərildiyi tarixdən 2 ay müddətində tətbiq olunan tələblərə cavab verməyən sənaye nümunələrinin çıxarılması yolu ilə iddia sənədi materiallarında düzəlişlər etsin.";

29.4.3. üçüncü abzas aşağıdakı redaksiyada verilsin:

"İxtira, faydalı model və ya sənaye nümunəsi barəsində iddia sənədində göstərilən digər obyektlər ayrılmış iddia sənədi kimi müstəqil şəkildə verilə bilər.";

29.4.4. dördüncü abzasın ikinci cümləsində "qurumuna" sözü "orqana (quruma)" sözləri ilə əvəz edilsin;

29.5. 8-ci hissədə "götürsün" sözü "çağırsın" sözü ilə əvəz edilsin;

29.6. 9-cu və 10-cu hissələr aşağıdakı redaksiyada verilsin:

"9. İxtiraya patent verilməsi haqqında qərarın qəbul edildiyi tarixə qədər, patent verilməsindən imtina haqqında qərar qəbul edildiyi halda isə belə qərara qarşı etirazın verilmə müddəti bitənədək iddiaçı müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) vəsatət verməklə, ixtira barəsində iddia sənədini faydalı model və ya sənaye nümunəsi barəsində iddia sənədinə çevirə bilər.

Faydalı model barəsində iddia sənədinin ixtira və ya sənaye nümunəsi barəsində iddia sənədinə çevrilməsi faydalı modelə patent verilməsi haqqında qərarın qəbul edildiyi tarixədək, patent verilməsindən imtina haqqında qərar qəbul edildiyi halda isə belə qərara qarşı etirazın verilmə müddəti bitənədək mümkündür.

Göstərilən hallarda əvvəlki iddia sənədi üzrə ilkinlik saxlanılır.

10. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) ixtira və faydalı model barədə iddia sənədinin daxil olduğu tarixdən 12 ay, sənaye nümunəsi barədə iddia sənədinin daxil olduğu tarixdən isə 3 ay ərzində iddiaçının və ya digər maraqlı şəxsin vəsatəti əsasında obyektin patent qabiliyyətini müəyyənləşdirmək üçün məlumat axtarışı aparır.

İddia sənədinin mahiyyətcə ekspertizasının aparılması üçün iddiaçı və ya digər maraqlı şəxs müəyyən edilmiş haqqın ödənilməsi şərtilə ixtira və faydalı model barədə iddia sənədinin müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) daxil olduğu tarixdən 18 ay və sənaye nümunəsi barədə iddia sənədinin daxil olduğu tarixdən 12 ay ərzində vəsatətlə müraciət edə bilər. İddia sənədinin mahiyyətcə ekspertizası iddia sənədi üzrə ilkin ekspertiza başa çatdıqdan və mahiyyətcə ekspertizanın aparılması barədə iddiaçı və ya digər maraqlı şəxs tərəfindən vəsatət daxil olduqdan sonra 2 ay ərzində aparılır. Bu müddətə bu maddənin 2-ci hissəsində nəzərdə tutulan düzəliş aparılmış sənədlərin təqdim edildiyi müddət, habelə iddiaçının vəsatəti əsasında onun uzadılma müddəti daxil deyildir.

Mahiyyətcə ekspertizanın aparılması haqqında vəsatət digər maraqlı şəxslər tərəfindən daxil olduğu halda müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) bu barədə iddiaçını 5 iş günü müddətində məlumatlandırır.

Bu maddənin 3-cü hissəsində göstərilən tələblər gözlənilməklə ixtira, faydalı model və sənaye nümunəsi barədə iddia sənədinin mahiyyətcə ekspertizası müsbət nəticə ilə başa çatdıqdan sonra 10 iş günü müddətində müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) patent verilməsi haqqında qərar qəbul edir.

Mahiyyətcə ekspertiza məqsədilə məlumat axtarışının və ixtira, faydalı model və ya sənaye nümunəsi barədə iddia sənədi üzrə mahiyyətcə ekspertizanın aparılması qaydası müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum)t ərəfindən müəyyən edilir.".

30. 30-cu maddə üzrə:

30.1.1-ci hissə aşağıdakı redaksiyada verilsin:

"1.Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum)ilkin ekspertizanın nəticəsi üzrə müsbət qərar qəbul etdikdə ixtira və faydalı model barəsində iddia sənədinin verildiyi tarixdən, ilkinlik istənildiyi halda isə ilkinlik tarixindən 18 ay keçən kimi sənaye nümunəsi barəsində iddia sənədinin verildiyi tarixdən isə 6 ay keçən kimi iddia sənədlərinə dair məlumatların özünün rəsmi bülletenində dərc edilməsini təmin edir. İddiaçının vəsatəti üzrə müəyyən edilmiş haqq ödənilməsi şərtilə iddia sənədinə dair məlumatlar yuxarıda göstərilən tarixdən tez də dərc edilə bilər.";

30.2. 2-ci hissədə "ixtira" sözü "İxtira" sözü ilə, "qurumunun" sözü "orqanın (qurumun)" sözləri ilə əvəz edilsin;

30.3. 3-cü hissə aşağıdakı redaksiyada verilsin:

"3. İxtira və faydalı model barəsində iddia sənədinə dair məlumatlara müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) müəyyən etdiyi biblioqrafik göstəricilər və referat daxil olmalıdır.

Sənaye nümunəsi barəsində iddia sənədinə dair məlumatlara müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) müəyyən etdiyi biblioqrafik göstəricilər və iddia sənədində verilmiş hər bir nümunənin şəkilləri daxil olmalıdır.";

30.4. 4-cü hissədə hər üç halda "bəndinin" sözü "hissəsinin" sözü ilə əvəz edilsin;

30.5. 5-ci hissə üzrə:

30.5.1. birinci abzasda "qurumunda" sözü "orqanda (qurumda)" sözləri ilə əvəz edilsin;

30.5.2. ikinci abzasda "orqanı" sözü "orqanının müəyyən etdiyi orqan (qurum)" sözləri ilə əvəz edilsin;

30.6. 6-cı hissə aşağıdakı redaksiyada verilsin:

"6. Dərc üçün texniki hazırlıq başa çatana qədər iddia sənədi geri çağırılarsa və ya geri çağırılmış hesab edilərsə ona dair məlumatlar dərc olunmur.";

30.7. aşağıdakı məzmunda 6-1-ci hissə əlavə edilsin:

"6-1. Bu maddənin 1-ci hissəsində nəzərdə tutulan müddət başa çatanadək ixtiralar, faydalı modellər və ya sənaye nümunələri müvafiq Dövlət reyestrində qeydə alındığı halda ixtira, faydalı model və ya sənaye nümunəsi barəsində iddia sənədinin dərci patentin dərci ilə eyni vaxtda həyata keçirilir.";

30.8. 7-ci hissə üzrə:

30.8.1. birinci abzas üzrə:

30.8.1.1. birinci cümlədə "və ya faydalı model" sözləri ", faydalı model və ya sənaye nümunəsi" sözləri ilə, "qurum" sözü "orqan (qurum)" sözləri ilə əvəz edilsin;

30.8.1.2. ikinci cümlədə "orqanı" sözü" orqanının müəyyən etdiyi orqan (qurum)" sözləri ilə əvəz edilsin;

30.8.2. ikinci abzas üzrə:

30.8.2.1. birinci cümlədə "qurum" sözü "orqan (qurum)" sözləri ilə, "(faydalı modelin)" sözləri ", faydalı modelin və ya sənaye nümunəsinin" sözləri ilə əvəz edilsin;

30.8.2.2. ikinci cümlədə "(faydalı modelin)" sözləri ", faydalı modelin və ya sənaye nümunəsinin" sözləri ilə əvəz edilsin;

30.9. 8-ci hissə üzrə:

30.9.1. birinci abzasa "və" sözündən sonra "ya" sözü əlavə edilsin;

30.9.2. üçüncü abzasda hər iki halda "götürülmüş" sözü "çağırılmış" sözü ilə əvəz edilsin.

31. 31-ci maddənin 2-ci hissəsində "3-cü maddəsinin 3-cü abzasında" sözləri "3.3-cü və 3.4-cü maddələrində" sözləri ilə əvəz edilsin və həmin hissəyə "27" rəqəmlərindən sonra ", 27-1, 27-2" rəqəmləri əlavə edilsin.

32. 32-ci maddə üzrə:

32.1. adında "ixtira" sözü "İxtira" sözü ilə əvəz edilsin;

32.2. 1-ci hissə üzrə:

32.2.1. birinci abzas aşağıdakı redaksiyada verilsin:

"Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) bu Qanunun 30-cu maddəsinin 1-ci hissəsinə uyğun olaraq dərc olunmuş iddia sənədinə etirazın verilməsi müddəti qurtardıqdan və ya ixtira, faydalı model və ya sənaye nümunəsinə patentin verilməsinədair qərar qəbul etdiyi tarixdən etibarən 2 ay ərzində ixtira, faydalı model və ya sənaye nümunəsinin qeydiyyatı, patentin verilməsi və dərc olunması üçün dövlət rüsumu ödənilməsi şərtilə ixtira, faydalı model və ya sənaye nümunəsini müvafiq Dövlət reyestrində qeydə alır və iddiaçıya patent verir.";

32.2.2. ikinci abzasda "ixtira" sözü "İxtira" sözü ilə, "orqanı" sözü "orqanının müəyyən etdiyi orqan (qurum)" sözləri ilə əvəz edilsin;

32.3. 2-ci hissəyə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"Patentin qüvvədə saxlanılması üçün haqqın ödənilməsi patentin qüvvədə olduğu il başa çatanadək həyata keçirilmədikdə müəyyən edilmiş əlavə haqq ödənilməsi şərtilə patentin qüvvədə olduğu müddətin bitdiyi tarixdən haqqın ödənilməsi üçün 6 ay əlavə möhlət verilir.";

32.4. 3-cü hissədə "qurumunda" sözü "orqanda (qurumda)" sözləri ilə əvəz edilsin.

33. 33-cü maddə üzrə:

33.1. 1-ci hissə üzrə:

33.1.1. birinci abzasın birinci cümləsində "qurum" sözü "orqan (qurum)" sözləri ilə əvəz edilsin və həmin abzasdan ikinci cümlə çıxarılsın;

33.1.2. ikinci və üçüncü abzaslar aşağıdakı redaksiyada verilsin:

"İxtira və faydalı model üçün patentə dair məlumatlara müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) müəyyən etdiyi biblioqrafik göstəricilər və ixtira və ya faydalı modelin düsturu daxil olmalıdır.

Sənaye nümunəsi üçün patentə dair məlumatlara müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) müəyyən etdiyi biblioqrafik göstəricilər və qeydiyyata alınan hər bir nümunənin şəkilləri daxil olmalıdır.";

33.1.3. dördüncü - yeddinci abzaslar ləğv edilsin;

33.2. 2-ci hissədə "ixtira" sözü "İxtira" sözü ilə, "bəndində" sözü "hissəsində" sözü ilə, "bəndinin 1-ci və 2-ci" sözləri "hissəsinin birinci və ikinci" sözləri ilə, "bəndinin 1-ci" sözləri "hissəsinin birinci" sözləri ilə əvəz edilsin.

34. 34-cü maddənin 1-ci hissəsində "3-cü maddəsinin 3-cü abzasının, 7-ci maddəsinin 1, 6, 7, 8-ci bəndlərinin, 8-ci maddəsinin 1, 5, 6-cı bəndlərinin, 9-cu maddəsinin 1, 5, 6-cı bəndlərinin" sözləri "3.3-cü və 3.4-cü maddələrinin, 7-ci maddəsinin 1-ci və 6 - 8-ci hissələrinin, 8-ci və 9-cu maddələrinin 1, 5 və 6-cı hissələrinin" sözləri ilə əvəz edilsin.

35. 35-ci maddə üzrə:

35.1. 1-ci hissədə "qurum" sözü "orqan (qurum)" sözləri ilə əvəz edilsin;

35.2. 2-ci hissə üzrə:

35.2.1. birinci abzasda "qurumuna" sözü "orqana (quruma)" sözləri ilə əvəz edilsin;

35.2.2. ikinci abzasda "qurum" sözü "orqan (qurum)" sözləri ilə əvəz edilsin.

36. 36-cı maddə üzrə:

36.1. 1-ci hissə üzrə:

36.1.1. ikinci abzasda "qurumuna" sözü "orqana (quruma)" sözləri ilə əvəz edilsin;

36.1.2. üçüncü abzasaşağıdakı redaksiyada verilsin:

"bu Qanunun 37-2-ci maddəsinin 1-ci hissəsinin "a" bəndi nəzərə alınmaqla, bu Qanunun 32-ci maddəsinin 2-ci hissəsində nəzərdə tutulan möhlət müddəti bitənədək patentin qüvvədə saxlanması üçün haqq ödənilmədiyi halda;";

36.2. 2-ci hissədə "qurum" sözü "orqan (qurum)" sözləri ilə əvəz edilsin.

37. 37-ci maddənin 2-ci hissəsində "bəndində" sözü "hissəsində" sözü ilə əvəz edilsin.

38. Aşağıdakı məzmunda 37-1-ci və 37-2-ci maddələr əlavə edilsin:

"Maddə 37-1. **Müddətlərin uzadılması**

1. İxtira, faydalı model və ya sənaye nümunəsinə dair iddia sənədi və ya patentlə bağlı hər hansı prosedur hərəkətinin həyata keçirilməsi üçün bu maddənin 2-ci hissəsi nəzərə alınmaqla bu Qanunla müəyyən edilmiş müddətlərin onların bitdiyi tarixdən 2 ay müddətinə uzadılması üçün iddiaçıya və ya patent sahibinə imkan verilir bu şərtlə ki:

a) bu müddət ərzində müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) müvafiq vəsatət verilsin və müvafiq hərəkət üçün müddət tətbiq edilmiş bütün tələblər vəsatətin verilməsi ilə eyni vaxtda yerinə yetirilsin;

b) bu hissəyə uyğun olaraq verilmiş vəsatətə baxılması üçün müəyyən edilmiş haqq ödənilsin.

2. Bu maddənin müddəaları bu maddənin 1-ci hissəsinə uyğun olaraq müddətin uzadılması haqqında vəsatətin verilməsi üçün, bu Qanunun 28-1-ci və 28-2-ci maddələrində, 32-ci maddəsinin 2-ci hissəsində, 37-2-ci maddəsində nəzərdə tutulmuş müddətlər üçün, həmçinin bu Qanunun 38-ci maddəsinin 1-ci və 2-ci hissələri nəzərə alınmaqla, Apellyasiya Şurasında prosedurların həyata keçirilməsi üçün nəzərdə tutulan müddətlər barəsində tətbiq edilmir.

3. Bu maddənin 1-ci hissəsinə uyğun olaraq verilmiş vəsatətin rədd edilməsinə qədər iddiaçı və ya patent sahibi müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən nəzərdə tutulan rədd ilə bağlı 5 iş günü müddətində göndərilən bildirişi aldığı tarixdən 2 ay müddətində iradlarını təqdim edə bilər. İddiaçının iradı alındıqdan sonra 5 iş günündən gec olmayaraq vəsatətə yenidən baxılaraq müvafiq qərar qəbul edilir.

Maddə 37-2. **Müddətin qəsdən buraxılmadığı müəyyən edildikdə hüquqların bərpası**

1. İddiaçı və ya ixtira, faydalı model və ya sənaye nümunəsinin patent sahibi hər hansı prosedur hərəkətinin həyata keçirilməsi üçün bu Qanunda nəzərdə tutulmuş müddətlərə riayət etmədikdə və bu pozuntu bilavasitə iddia sənədi və ya patent ilə bağlı hüquqların itirilməsinə gətirib çıxarırsa, müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) müvafiq iddia sənədi və ya patent üzrə iddiaçı və ya patent sahibinin hüquqlarını bərpa edir, bu şərtlə ki:

a) iddia sənədi üçün hüququn bərpası haqqında vəsatət müvafiq prosedur hərəkətinin həyata keçirilməsi üçün müəyyən edilmiş müddətə riayət edilməməsi səbəbinin aradan qaldırılması tarixindən 2 aydan gec olmayaraq, lakin buraxılmış müddətin bitdiyi tarixdən 12 aydan gec olmayaraq verilsin. Bu zaman yerinə yetirilməmiş hərəkət vəsatətin verildiyi tarix üçün yerinə yetirilmiş olmalıdır. Əgər belə vəsatət patentin qüvvədə saxlanılması üçün illik haqqın ödənilməməsi ilə əlaqədar patentin bərpasına aiddirsə, 12 aylıq müddət bu Qanunun 32-ci maddəsinin 2-ci hissəsində nəzərdə tutulmuş möhlət müddətinin bitməsi tarixindən hesablanır;

b) vəsatətdə göstərilən səbəblərə görə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) müddətə riayət edilməməsinin qəsdən baş vermədiyi qənaətinə gəlsin;

c) bu hissəyə uyğun olaraq verilmiş vəsatətə baxılması üçün müəyyən edilmiş haqq ödənilsin.

2. Bu maddənin 1-ci hissəsinin müddəaları bu Qanunun 28-1-ci və 28-2-ci maddələrində, habelə bu maddədə nəzərdə tutulmuş müddətlərə, eləcə də 38-ci maddənin 1-ci və 2-ci hissələri nəzərə alınmaqla Apellyasiya Şurasında prosedurların həyata keçirilməsi üçün son müddətlərə şamil edilmir.

3. Bu maddənin 1-ci hissəsinə uyğun olaraq verilmiş vəsatətin tam və ya qismən rədd edilməsinə qədər onu verən tərəf müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən 5 iş günü müddətində göndərilən bildirişi aldığı tarixdən 2 ay müddətində nəzərdə tutulan imtina ilə bağlı iradlarını təqdim edə bilər. İddiaçının iradı alındıqdan sonra 5 iş günündən gec olmayaraq vəsatətə yenidən baxılaraq müvafiq qərar qəbul edilir.".

39. 38-ci maddə üzrə:

39.1. adında "Ötürülmüş müddətlərin" sözləri "Müddətlərin" sözü ilə əvəz edilsin;

39.2. 1-ci hissədə hər üç halda "bəndində" sözü "hissəsində" sözü ilə əvəz edilsin;

39.3. 3-cü hissə üzrə:

39.3.1. birinci cümlədə "5 il" sözləri "18 ay" sözləri ilə əvəz edilsin;

39.3.2. ikinci cümlədə "illər" sözü "müddət" sözü ilə əvəz edilsin.

40. 39.2-ci maddədə "qurumun" sözü "orqanın (qurumun)" sözləri ilə, "orqanı" sözü "orqanının müəyyən etdiyi orqan (qurum)" sözləri ilə əvəz edilsin.

41. 41-ci maddə üzrə:

41.1. adında "ixtira" sözü "İxtira" sözü ilə əvəz edilsin;

41.2. birinci hissədə "ixtira" sözü "İxtira" sözü ilə, "qurumuna" sözü "orqana (quruma)" sözləri ilə əvəz edilsin;

41.3. ikinci hissədə "ixtira" sözü "İxtira" sözü ilə, "qurumuna" sözü "orqana (quruma)" sözləri ilə, "qurum" sözü "orqan (qurum)" sözləri ilə əvəz edilsin;

41.4. üçüncü hissədə "qurumunun" sözü "orqanın (qurumun)" sözləri ilə əvəz edilsin.

42. 42-ci maddənin mətnində "iştirak etdiyi" sözləri "tərəfdar çıxdığı" sözləri ilə, "qarşılıqlı" sözü "qarşılıqlılıq" sözü ilə əvəz edilsin.

43. 43-cü maddənin mətnində "iştirak etdiyi" sözləri "tərəfdar çıxdığı" sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 10 fevral 2026-cı il*

# "Avtomobil nəqliyyatı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alır:**

"Avtomobil nəqliyyatı haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008, № 7, maddə 599 (Cild I); 2024, № 8, maddə 932; 2025, № 11, maddə 1010; Azərbaycan Respublikasının 2025-ci il 16 dekabr tarixli 312-VIIQD nömrəli Qanunu) aşağıdakı dəyişikliklər edilsin:

1. 1.0.9-cu maddədə "daşınma müqaviləsi və ya digər qanuni əsaslarla haqq müqabilində" sözləri "daşınma müqaviləsi (haqq müqabilində) və ya digər qanuni əsaslarla bu Qanunun müvafiq olaraq 1.0.4-cü və 1.0.5-ci maddələrində nəzərdə tutulmuş" sözləri ilə əvəz edilsin.

2. 14-cü maddə üzrə:

2.1. 14.2.3-cü maddənin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 14.2.4-14.2.7-ci maddələr əlavə edilsin:

"14.2.4. sürücünün narkotik sərxoşluq vəziyyətinin, narkotik vasitələrin və psixotrop maddələrin istehlakı hallarının müəyyən edilməsi üçün aparılan tibbi müayinənin nəticəsi barədə məlumatı;

14.2.5. avtonəqliyyat vasitələrinin texniki vəziyyətinin reysqabağı yoxlanılmasının, sürücülərin reysqabağı tibbi müayinəsinin təşkili imkanı barədə sənədləri və ya müvafiq xidmətlərdən istifadə olunmasına dair texniki məntəqə və tibb məntəqəsi ilə müqavilələri;

14.2.6. ümumi istifadədə olan avtomobil nəqliyyatı ilə daşımaları yerinə yetirən sürücülərin xüsusi hazırlıq keçməsini təsdiq edən sənədləri;

14.2.7. qeyri-müntəzəm sərnişin daşımalarına münasibətdə həmçinin:

14.2.7.1. avtonəqliyyat vasitəsi ilə daşınan sərnişinlərin fərdi qəza sığortası;

14.2.7.2. avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin, həmçinin avtonəqliyyat vasitəsi sürücüsünün bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığortalanmasını təsdiq edən müvafiq icbari sığortası;

14.2.7.3. bu Qanunun 27.2-ci maddəsində nəzərdə tutulan halların təsdiqedici sənədləri.";

2.2. 14.3.4-cü maddədən ikinci halda "ya" sözü çıxarılsın;

2.3. aşağıdakı məzmunda 14.3.7-1-ci maddə əlavə edilsin:

"14.3.7-1. müntəzəm beynəlxalq və şəhərlərarası (rayonlararası) sərnişin daşımalarına münasibətdə həmçinin:

14.3.7-1.1. avtonəqliyyat vasitəsi ilə daşınan sərnişinlərin fərdi qəza sığortası;

14.3.7-1.2. avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin, həmçinin avtonəqliyyat vasitəsi sürücüsünün bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığortalanmasını təsdiq edən müvafiq icbari sığortası.".

3. 15.5-ci maddənin birinci cümləsinə "daşımalarında" sözündən sonra ", habelə qeyri-müntəzəm sərnişin daşımalarında" sözləri əlavə edilsin.

4. 15-1.2-ci maddədən ikinci halda "ya" sözü çıxarılsın.

5. 27.2-ci maddəyə "avtomobilləri ilə" sözlərindən sonra ", habelə qeyri-müntəzəm" sözləri əlavə edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 3 mart 2026-cı il*

# "Avtomobil nəqliyyatı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2026-cı il 3 mart tarixli 375-VIIQD nömrəli Qanununun tətbiqi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Avtomobil nəqliyyatı haqqında" Azərbaycan Respublikası Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2026-cı il 3 mart tarixli 375-VIIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. "Avtomobil nəqliyyatı haqqında" Azərbaycan Respublikası Qanununun 15.5-cimaddəsinə uyğun olaraq, qeyri-müntəzəm sərnişin daşımalarında istifadə edilən avtonəqliyyat vasitələrinə dair tələblərin müəyyənləşdirilməsi məqsədilə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 27 mart tarixli 183 nömrəli Qərarı ilə təsdiq edilmiş "Müntəzəm və taksi minik avtomobili ilə sərnişin daşımalarında istifadə olunan avtonəqliyyat vasitələrinin texniki göstəriciləri, daxili və xarici tərtibatına dair tələblər"də üç ay müddətindəmüvafiq dəyişiklik edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.2. "Avtomobil nəqliyyatı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2026-cı il 3 mart tarixli 375-VIIQD nömrəli Qanunundan irəli gələn digər məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 31 mart 2026-cı il*

# Minatəmizləmə fəaliyyətini həyata keçirən zaman partlayıcı sursatların işə düşməsi nəticəsində baş verən bədbəxt hadisə ilə əlaqədar həlak olan və ya bu zaman aldığı xəsarətdən həyatını itirən minatəmizləyənlərin ailə üzvlərinə Azərbaycan Respublikası Prezidentinin təqaüdünün təsis edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, minatəmizləmə fəaliyyəti həyata keçirilən zaman vəzifə borcunu yerinə yetirərkən həlak olmuş minatəmizləyənlərin ailə üzvlərinə dövlət qayğısını artırmaq məqsədilə "Minatəmizləmə fəaliyyəti haqqında" Azərbaycan Respublikasının 2024-cü il 13 dekabr tarixli 90-VIIQ nömrəli Qanununun tətbiqi və bununla əlaqədar bəzi məsələlərin tənzimlənməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 3 fevral tarixli 316 nömrəli Fərmanının icrası ilə əlaqədar **qərara alıram:**

1. Minatəmizləmə fəaliyyətini həyata keçirən zaman partlayıcı sursatların işə düşməsi nəticəsində baş verən bədbəxt hadisə ilə əlaqədar həlak olan və ya bu zaman aldığı xəsarətdən həyatını itirən minatəmizləyənlərin ailə üzvlərinə Azərbaycan Respublikası Prezidentinin təqaüdü təsis edilsin və onun aylıq məbləği 700 (yeddi yüz) manat müəyyən olunsun.

2. Müəyyən edilsin ki, bu Fərmanın 1-ci hissəsinə əsasən təsis edilən Azərbaycan Respublikası Prezidentinin təqaüdü:

2.1. minatəmizləmə fəaliyyətini həyata keçirən zaman partlayıcı sursatların işə düşməsi nəticəsində baş verən bədbəxt hadisə ilə əlaqədar həlak olan və ya bu zaman aldığı xəsarətdən həyatını itirən minatəmizləyənin aşağıda göstərilən ailə üzvlərinə (təqaüd məbləği onların sayına uyğun bərabər hissələrə bölünməklə) ödənilir:

2.1.1. dul arvadına (ərinə), valideynlərinə;

2.1.2. 18 yaşına çatmamış (peşə təhsili, orta ixtisas təhsili və ali təhsil müəssisələrində təhsil alanlara isə həmin təhsil müəssisələrini bitirənədək, lakin ən çoxu 23 yaşına çatanadək), yaxud 18 yaşına çatanadək əlilliyi müəyyən edilmiş 18 yaşından yuxarı əlilliyi olan övladlarına, uşaq evlərində tərbiyə olunan qardaş və bacılarına;

2.1.3. birinci növbədən digər qohumları olmayan baba və nənələrinə;

2.2. dövlət büdcəsində Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi üçün nəzərdə tutulmuş xərclər hesabına həmin Nazirlik tərəfindən ödənilir;

2.3. bu Fərmanın 1-ci hissəsi ilə təsis edilən Azərbaycan Respublikası Prezidentinin təqaüdü bu Fərman qüvvəyə mindiyi tarixədək minatəmizləmə fəaliyyətini həyata keçirən zaman partlayıcı sursatların işə düşməsi nəticəsində baş verən bədbəxt hadisə ilə əlaqədar həlak olan və ya bu zaman aldığı xəsarətdən həyatını itirən minatəmizləyənlərin ailə üzvlərinə də şamil edilir və bu Fərman qüvvəyə mindiyi tarixdən sonrakı dövr üçün ödənilir.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 31 mart 2026-cı il*

# "Patent haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2026-cı il 10 fevral tarixli 351-VIIQD nömrəli Qanununun tətbiqi və "Patent haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 19 avqust tarixli 755 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Patent haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2026-cı il 10 fevral tarixli 351-VIIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Müəyyən edilsin ki:

1.1. "Patent haqqında" Azərbaycan Respublikası Qanununun 1-ci maddəsinin birinci hissəsinin doqquzuncu abzasında, 5-ci maddəsinin 2-ci hissəsində (ikinci halda), 6-cı maddəsinin 2-ci hissəsində, 8-ci maddəsinin 3-cü hissəsinin üçüncü abzasında, 10-cu maddəsinin 3-cü hissəsinin birinci cümləsində və 5-ci hissəsində, 13-cü maddəsinin 8-ci hissəsində, 17-ci maddəsinin 2-ci hissəsində, 18-ci maddəsinin birinci cümləsində, 20-ci maddəsinin 1-ci hissəsinin üçüncü abzasında, 25-ci maddəsində, 27-ci maddəsinin 6-cı hissəsində və 7-ci hissəsinin birinci abzasının üçüncü cümləsində, 27-1-ci maddəsinin1-ci hissəsinin birinci abzasında, 2-ci hissəsinin dördüncü abzasının birinci cümləsində, 3-cü hissəsində, 4-cü hissəsinin ikinci cümləsində, 5-ci (hər iki halda) və 6-cı hissələrində, 7-ci hissəsinin birinci abzasında, ikinci abzasının ikinci cümləsində, "a" bəndində və 8-ci hissəsində, 27-2-ci maddəsinin birinci cümləsində, 28-ci maddəsinin 4-cü hissəsinin birinci və üçüncü abzaslarında və 9-cu hissəsinin birinci cümləsində, 28-1-ci maddəsinin 1-ci hissəsinin birinci abzasında, "a" və "b" bəndlərində, 28-2-ci maddəsinin 1-ci hissəsinin birinciabzasında, "a" bəndinin birinci və ikinci abzaslarında, 2-ci hissəsinin birinci abzasında, "a", "b" və "c" bəndlərində, 28-3-cü maddəsininbirinci cümləsində (hər iki halda), 29-cu maddəsinin 1-ci hissəsinin birinci və ikinci cümlələrində, 2-ci hissəsinin üçüncü abzasında, 3-cü və 9-cu hissələrinin birinci abzaslarında və 10-cu hissəsinin birinci abzasında, ikinci abzasının birinci cümləsində və üçüncü-beşinci abzaslarında, 30-cu maddəsinin 1-ci hissəsinin birinci cümləsində, 3-cü hissəsinin birinci və ikinci abzaslarında, 5-ci hissəsinin ikinci abzasında və 7-ci hissəsinin birinci abzasının ikinci cümləsində, 32-ci maddəsinin 1-ci hissəsinin birinci və ikinci abzaslarında, 33-cü maddəsinin 1-ci hissəsinin ikinci və üçüncü abzaslarında, 37-1-ci maddəsinin 1-ci hissəsinin "a" bəndində və 3-cü hissəsinin birinci cümləsində, 37-2-ci maddəsinin 1-ci hissəsinin birinci abzasında, "b" bəndində, 3-cü hissəsinin birinci cümləsində və 39.2-ci maddəsində (üçüncü halda) nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.2. həmin Qanunun 5-ci maddəsinin 2-ci hissəsində (ikinci halda), 6-cı maddəsinin 2-ci hissəsində, 10-cu maddəsinin 3-cü hissəsinin birinci cümləsində və 5-ci hissəsində, 17-ci maddəsinin 2-ci hissəsində, 18-ci maddəsinin birinci cümləsində, 20-ci maddəsinin 1-ci hissəsinin üçüncü abzasında, 25-ci maddəsində, 27-ci maddəsinin 6-cı hissəsində, 29-cu maddəsinin 10-cu hissəsinin beşinci abzasında, 30-cu maddəsinin 5-ci hissəsinin ikinci abzasında və7-ci hissəsinin birinci abzasının ikinci cümləsində, 32-ci maddəsinin 1-ci hissəsinin ikinci abzasında və 39.2-ci maddəsində (üçüncü halda) "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Nazirlər Kabineti nəzərdə tutulur;

1.3. həmin Qanunun 13-cü maddəsinin 8-ci hissəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Nazirlər Kabineti və müvafiq sahə (sahələrarası) mərkəzi icra hakimiyyəti orqanları nəzərdə tutulur;

1.4. həmin Qanunun 1-ci maddəsinin birinci hissəsinin beşinci və doqquzuncu abzaslarında,7-ci maddəsinin 3-cü hissəsinin ikinci abzasında və 5-ci hissəsinin birinci cümləsində, 8-ci maddəsinin 3-cü hissəsinin üçüncü abzasında və 4-cü hissəsinin birinci cümləsində, 9-cu maddəsinin 4-cü hissəsinin birinci cümləsində, 10-cu maddəsinin 2-ci hissəsinin birinci abzasında, 12-ci maddəsinin birinci hissəsinin üçüncü abzasında, 15-ci maddəsinin 3-cü hissəsinin birinci abzasının üçüncü cümləsində, 16-cı maddəsinin 2-ci hissəsinin birinci abzasının birinci cümləsində və ikinci abzasında, 17-ci maddəsinin 3-cü hissəsində, 19-cu maddəsinin 1-ci hissəsinin ikinci abzasının və 2-ci hissəsinin üçüncü abzasının ikinci cümlələrində, 4-cü hissəsində (hər iki halda), 20-ci maddəsinin 2-ci hissəsinin 2.7-ci bəndinin ikinci abzasında və 2.10-cu bəndinin ikinci abzasının ikinci cümləsində, 26-cı maddəsinin 3-cü hissəsində, 27-ci maddəsinin 1-ci hissəsinin birinci və ikinci cümlələrində, 2-ci hissəsinin birinci (hər iki halda) və ikinci (hər iki halda) abzaslarında, 7-ci hissəsinin birinci abzasının üçüncü cümləsində və 8-ci hissəsinin ikinci abzasında,27-1-ci maddəsinin 1-ci hissəsinin birinci abzasında, 2-ci hissəsinin dördüncü abzasının birinci cümləsində, 3-cü hissəsində, 4-cü hissəsinin ikinci cümləsində, 5-ci (hər iki halda)və 6-cı hissələrində, 7-ci hissəsinin birinci abzasında, ikinci abzasının ikinci cümləsində, "a" bəndində və 8-ci hissəsində, 27-2-ci maddəsinin birinci cümləsində, 28-ci maddəsinin 2-ci hissəsinin birinci abzasının birinci cümləsində, 3-cü hissəsində (hər iki halda), 4-cü hissəsinin birinci və üçüncü abzaslarında, 9-cu hissəsinin birinci cümləsində, 10-cu hissəsinin birinci və ikinci cümlələrində, 28-1-ci maddəsinin 1-ci hissəsinin birinci abzasında, "a" və "b" bəndlərində, 28-2-ci maddəsinin 1-ci hissəsinin birinci abzasında, "a" bəndinin birinci və ikinci abzaslarında, 2-ci hissəsinin birinci abzasında, "a", "b" və "c" bəndlərində, 28-3-cü maddəsinin birinci cümləsində (hər iki halda), 29-cu maddəsinin 1-ci hissəsinin birinci və ikinci cümlələrində, 2-ci hissəsinin üçüncü abzasında, 3-cü hissəsinin birinci və altıncı abzaslarında, 5-ci hissəsinin ikinci abzasının birinci cümləsində və dördüncü abzasının ikinci cümləsində, 9-cu hissəsinin birinci abzasında və 10-cu hissəsinin birinci abzasında, ikinci abzasının birinci cümləsində, üçüncü və dördüncü abzaslarında, 30-cu maddəsinin 1-ci hissəsinin birinci cümləsində, 2-ci hissəsində, 3-cü hissəsinin birinci və ikinci abzaslarında, 5-ci hissəsinin birinci abzasında, 7-ci hissəsinin birinci və ikinci abzaslarının birinci cümlələrində, 32-ci maddəsinin 1-ci hissəsinin birinci abzasında və 3-cü hissəsində, 33-cü maddəsinin 1-ci hissəsinin birinci-üçüncü abzaslarında, 35-ci maddəsinin 1-ci hissəsində və 2-ci hissəsinin birinci və ikinci abzaslarında, 36-cı maddəsinin 1-ci hissəsinin ikinci abzasında və 2-ci hissəsində, 37-1-ci maddəsinin 1-ci hissəsinin "a" bəndində və 3-cü hissəsinin birinci cümləsində, 37-2-ci maddəsinin 1-ci hissəsinin birinci abzasında, "b" bəndində və 3-cü hissəsinin birinci cümləsində, 39.2-ci maddəsində (birinci halda) və 41-ci maddəsinin birinci-üçüncü hissələrində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyi nəzərdə tutulur.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. "Patent haqqında" Azərbaycan Respublikası Qanununun 5-ci maddəsinin 1-ci hissəsinin birinci abzası nəzərə alınmaqla, Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyinin əqli mülkiyyət mübahisələri üzrə Apellyasiya şurasının sədri vəzifəsinin Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 4 avqust tarixli 911 nömrəli Fərmanı ilə təsdiq edilmiş "İnzibati və yardımçı vəzifələrin Təsnifat Toplusu"nda göstərilən dövlət qulluğu vəzifələrinə uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

2.2. "Patent haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2026-cı il 10 fevral tarixli 351-VIIQD nömrəli Qanunundan irəli gələn digər məsələləri həll etsin.

3. "Patent haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 19 avqust tarixli 755 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 8, maddə 505 (Cild I) 2-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

3.1. 2.1-ci bənd aşağıdakı redaksiyada verilsin:

"2.1. "Patent haqqında" Azərbaycan Respublikası Qanununun 1-ci maddəsinin birinci hissəsinin beşinci və doqquzuncu abzaslarında, 5-ci maddəsinin 1-ci hissəsinin birinci abzasında və 2-ci hissəsində (hər iki halda), 6-cı maddəsinin 1-ci hissəsinin ikinci abzasında və 2-ci hissəsində, 7-ci maddəsinin 3-cü hissəsinin ikinci abzasında və 5-ci hissəsinin birinci cümləsində, 8-ci maddəsinin 3-cü hissəsinin üçüncü abzasında və 4-cü hissəsinin birinci cümləsində, 9-cu maddəsinin 4-cü hissəsinin birinci cümləsində, 10-cu maddəsinin 2-ci hissəsinin birinci abzasında, 3-cü hissəsinin birinci cümləsində və 5-ci hissəsində, 12-ci maddəsinin birinci hissəsinin üçüncü abzasında, 13-cü maddəsinin 8-ci hissəsində, 15-ci maddəsinin 3-cü hissəsinin birinci abzasının üçüncü cümləsində, 16-cı maddəsinin 2-ci hissəsinin birinci abzasının birinci cümləsində və ikinci abzasında, 17-ci maddəsinin 2-ci və 3-cü hissələrində, 18-ci maddəsinin birinci cümləsində, 19-cu maddəsinin 1-ci hissəsinin ikinci abzasının və 2-ci hissəsinin üçüncü abzasının ikinci cümlələrində və 4-cü hissəsində (hər iki halda), 20-ci maddəsinin 1-ci hissəsinin üçüncü abzasında, 2-ci hissəsinin 2.7-ci bəndinin ikinci abzasında, 2.10-cu bəndinin ikinci abzasının ikinci cümləsində, 25-ci maddəsində, 26-cı maddəsinin 3-cü hissəsində, 27-ci maddəsinin 1-ci hissəsinin birinci və ikinci cümlələrində, 2-ci hissəsinin birinci (hər iki halda) və ikinci (hər iki halda) abzaslarında, 6-cı hissəsində, 7-ci hissəsinin birinci abzasının üçüncü cümləsində və 8-ci hissəsinin ikinci abzasında, 27-1-ci maddəsinin 1-ci hissəsinin birinci abzasında, 2-ci hissəsinin dördüncü abzasının birinci cümləsində, 3-cü hissəsində, 4-cü hissəsinin ikinci cümləsində, 5-ci (hər iki halda) və 6-cı hissələrində, 7-ci hissəsinin birinci abzasında, ikinci abzasının ikinci cümləsində, "a" bəndində və 8-ci hissəsində, 27-2-ci maddəsinin birinci cümləsində, 28-ci maddəsinin 2-ci hissəsinin birinci abzasının birinci cümləsində, 3-cü hissəsində (hər iki halda), 4-cü hissəsinin birinci və üçüncü abzaslarında, 9-cu hissəsinin birinci cümləsində və 10-cu hissəsinin birinci və ikinci cümlələrində, 28-1-ci maddəsinin 1-ci hissəsinin birinci abzasında, "a" və "b" bəndlərində, 28-2-ci maddəsinin 1-ci hissəsinin birinci abzasında, "a" bəndinin birinci və ikinci abzaslarında, 2-ci hissəsinin birinci abzasında, "a", "b" və "c" bəndlərində, 28-3-cü maddəsinin birinci cümləsində (hər iki halda), 29-cu maddəsinin 1-ci hissəsinin birinci və ikinci cümlələrində, 2-ci hissəsinin üçüncü abzasında, 3-cü hissəsinin birinci və altıncı abzaslarında, 5-ci hissəsinin ikinci abzasının birinci cümləsində və dördüncü abzasının ikinci cümləsində, 6-cı hissəsində, 9-cu hissəsinin birinci abzasında və 10-cu hissəsinin birinci abzasında, ikinci abzasının birinci cümləsində və üçüncü-beşinci abzaslarında, 30-cu maddəsinin 1-ci hissəsinin birinci cümləsində, 2-ci hissəsində, 3-cü hissəsinin birinci və ikinci abzaslarında, 5-ci hissəsinin birinci və ikinci abzaslarında, 7-ci hissəsinin birinci abzasının birinci və ikinci cümlələrində və ikinci abzasının birinci cümləsində, 32-ci maddəsinin 1-ci hissəsinin birinci və ikinci abzaslarında və 3-cü hissəsində, 33-cü maddəsinin 1-ci hissəsinin birinci-üçüncü abzaslarında, 35-ci maddəsinin 1-ci hissəsində, 2-ci hissəsinin birinci və ikinci abzaslarında, 36-cı maddəsinin 1-ci hissəsinin ikinci abzasında və 2-ci hissəsində, 37-1-ci maddəsinin 1-ci hissəsinin "a" bəndində və 3-cü hissəsinin birinci cümləsində, 37-2-ci maddəsinin 1-ci hissəsinin birinci abzasında, "b" bəndində və 3-cü hissəsinin birinci cümləsində, 38-ci maddəsinin 1-ci hissəsində, 39.2-ci maddəsində (hər üç halda) və 41-ci maddəsinin birinci-üçüncü hissələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;";

3.2. 2.1-1-ci bənd ləğv edilsin;

3.3. 2.2-2.4-cü bəndlər aşağıdakı redaksiyada verilsin:

"2.2. həmin Qanunun 5-ci maddəsinin 2-ci hissəsində (ikinci halda), 6-cı maddəsinin 2-ci hissəsində, 10-cu maddəsinin 3-cü hissəsinin birinci cümləsində və 5-ci hissəsində, 17-ci maddəsinin 2-ci hissəsində, 18-ci maddəsinin birinci cümləsində, 20-ci maddəsinin 1-ci hissəsinin üçüncü abzasında, 25-ci maddəsində, 27-ci maddəsinin 6-cı hissəsində, 29-cu maddəsinin 10-cu hissəsinin beşinci abzasında, 30-cu maddəsinin 5-ci hissəsinin ikinci abzasında və 7-ci hissəsinin birinci abzasının ikinci cümləsində, 32-ci maddəsinin 1-ci hissəsinin ikinci abzasında və 39.2-ci maddəsində (ikinci və üçüncü hallarda) "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Nazirlər Kabineti nəzərdə tutulur;

2.3. həmin Qanunun 13-cü maddəsinin 8-ci hissəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Nazirlər Kabineti və müvafiq sahə (sahələrarası) mərkəzi icra hakimiyyəti orqanları nəzərdə tutulur;

2.4. həmin Qanunun 1-ci maddəsinin birinci hissəsinin beşinci və doqquzuncu abzaslarında, 5-ci maddəsinin 1-ci hissəsinin birinci abzasında və 2-ci hissəsində (birinci halda), 6-cı maddəsinin 1-ci hissəsinin ikinci abzasında, 7-ci maddəsinin 3-cü hissəsinin ikinci abzasında və 5-ci hissəsinin birinci cümləsində, 8-ci maddəsinin 3-cü hissəsinin üçüncü abzasında və 4-cü hissəsinin birinci cümləsində, 9-cu maddəsinin 4-cü hissəsinin birinci cümləsində, 10-cu maddəsinin 2-ci hissəsinin birinci abzasında, 12-ci maddəsinin birinci hissəsinin üçüncü abzasında, 15-ci maddəsinin 3-cü hissəsinin birinci abzasının üçüncü cümləsində, 16-cı maddəsinin 2-ci hissəsinin birinci abzasının birinci cümləsində və ikinci abzasında, 17-ci maddəsinin 3-cü hissəsində, 19-cu maddəsinin 1-ci hissəsinin ikinci abzasının və 2-ci hissəsinin üçüncü abzasının ikinci cümlələrində, 4-cü hissəsində (hər iki halda), 20-ci maddəsinin 2-ci hissəsinin 2.7-ci bəndinin ikinci abzasında və 2.10-cu bəndinin ikinci abzasının ikinci cümləsində, 26-cı maddəsinin 3-cü hissəsində, 27-ci maddəsinin 1-ci hissəsinin birinci və ikinci cümlələrində, 2-ci hissəsinin birinci (hər iki halda) və ikinci (hər iki halda) abzaslarında, 7-ci hissəsinin birinci abzasının üçüncü cümləsində və 8-ci hissəsinin ikinci abzasında, 27-1-ci maddəsinin 1-ci hissəsinin birinci abzasında, 2-ci hissəsinin dördüncü abzasının birinci cümləsində, 3-cü hissəsində, 4-cü hissəsinin ikinci cümləsində, 5-ci (hər iki halda) və 6-cı hissələrində, 7-ci hissəsinin birinci abzasında, ikinci abzasının ikinci cümləsində, "a" bəndində və 8-ci hissəsində, 27-2-ci maddəsinin birinci cümləsində, 28-ci maddəsinin 2-ci hissəsinin birinci abzasının birinci cümləsində, 3-cü hissəsində (hər iki halda), 4-cü hissəsinin birinci və üçüncü abzaslarında, 9-cu hissəsinin birinci cümləsində, 10-cu hissəsinin birinci və ikinci cümlələrində, 28-1-ci maddəsinin 1-ci hissəsinin birinci abzasında, "a" və "b" bəndlərində, 28-2-ci maddəsinin 1-ci hissəsinin birinci abzasında, "a" bəndinin birinci və ikinci abzaslarında, 2-ci hissəsinin birinci abzasında, "a", "b" və "c" bəndlərində, 28-3-cü maddəsinin birinci cümləsində (hər iki halda), 29-cu maddəsinin 1-ci hissəsinin birinci və ikinci cümlələrində, 2-ci hissəsinin üçüncü abzasında, 3-cü hissəsinin birinci və altıncı abzaslarında, 5-ci hissəsinin ikinci abzasının birinci cümləsində və dördüncü abzasının ikinci cümləsində, 6-cı hissəsində, 9-cu hissəsinin birinci abzasında və 10-cu hissəsinin birinci abzasında, ikinci abzasının birinci cümləsində, üçüncü və dördüncü abzaslarında, 30-cu maddəsinin 1-ci hissəsinin birinci cümləsində, 2-ci hissəsində, 3-cü hissəsinin birinci və ikinci abzaslarında, 5-ci hissəsinin birinci abzasında, 7-ci hissəsinin birinci və ikinci abzaslarının birinci cümlələrində, 32-ci maddəsinin 1-ci hissəsinin birinci abzasında və 3-cü hissəsində, 33-cü maddəsinin 1-ci hissəsinin birinci-üçüncüabzaslarında, 35-ci maddəsinin 1-ci hissəsində və 2-ci hissəsinin birinci və ikinci abzaslarında, 36-cı maddəsinin 1-ci hissəsinin ikinci abzasında və 2-ci hissəsində, 37-1-ci maddəsinin 1-ci hissəsinin "a" bəndində və 3-cü hissəsinin birinci cümləsində, 37-2-ci maddəsinin 1-ci hissəsinin birinci abzasında, "b" bəndində və 3-cü hissəsinin birinci cümləsində, 38-ci maddəsinin 1-ci hissəsində, 39.2-ci maddəsində (birinci halda) və 41-ci maddəsinin birinci-üçüncü hissələrində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyi nəzərdə tutulur.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 31 mart 2026-cı il*

# Milli Məclisin Sədri Sahibə Qafarova Gürcüstana səfərə gedib

Martın 22-də Milli Məclisin Sədri Sahibə Qafarovanın başçılığı ilə Azərbaycan nümayəndə heyəti Bütün Gürcüstanın Katalikos-Patriarxı II İlya həzrətlərinin dəfn mərasimində iştirak etmək üçün Gürcüstana səfərə gedib.



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, Şota Rustaveli adına Tbilisi Beynəlxalq Hava Limanında spiker Sahibə Qafarovanı və nümayəndə heyətini Azərbaycanın Gürcüstandakı fövqəladə və səlahiyyətli səfiri Faiq Quliyev və digər rəsmi şəxslər qarşılayıblar.

*"Azərbaycan"*

# Milli Məclisin Sədri Sahibə Qafarova Bütün Gürcüstanın Katalikos-Patriarxı II İlya həzrətlərinin dəfn mərasimində iştirak edib



Milli Məclisin Sədri Sahibə Qafarovanın başçılığı ilə Azərbaycan nümayəndə heyəti Bütün Gürcüstanın Katalikos-Patriarxı II İlya həzrətlərinin dəfn mərasimində iştirak edib.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, martın 22-də səhər saatlarında Tbilisidə Müqəddəs Üçlük Kafedralında keçirilən mərasimdə Milli Məclisin Sədri Sahibə Qafarovanın başçılıq etdiyi nümayəndə heyəti Azərbaycan xalqının dərin hüzn və ehtiramını Gürcüstan xalqına çatdırıb.

Tədbirdə Ekumenik Patriarx, eləcə də Gürcüstan Prezidenti, parlamentin Sədri, Baş nazir və Gürcü Arzusunun Fəxri Sədri məbəddə toplaşanlara müraciət ediblər.

Patriarxı son mənzilə yola salmaq üçün yürüş Müqəddəs Üçlük Katedralından başlayıb və patriarxın cənazəsi xüsusi ehtiramla Sioni Kafedralına doğru yola salınıb. Ölkə üzrə fəaliyyət göstərən bütün kilsələrdə dəfn zəngləri çalınıb və yüz minlərlə insan küçələrə axışaraq patriarxa son ehtiramlarını ifadə edib.

Azərbaycan nümayəndə heyətinin tərkibinə Qafqaz Müsəlmanları İdarəsinin sədri, Bütün Qafqazın Şeyxi Allahşükür Paşazadə, Baş nazirin müavini Samir Şərifov və Milli Məclisin bir qrup deputatı daxil idi.

*"Azərbaycan"*

# Milli Məclisin Sədri Sahibə Qafarova Asiya üçün Boao Forumunda çıxış edib

Milli Məclisin Sədri Sahibə Qafarova Çin Xalq Respublikasına işgüzar səfəri çərçivəsində Asiya üçün Boao Forumunun İllik Konfransında çıxış edib.




Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, spiker Sahibə Qafarova çıxışında ilk olaraq, Boao Forumunun əhəmiyyəti barədə fikirlərini bölüşüb. O, artan geosiyasi gərginliklər, daha da dərinləşən bərabərsizliklər və qlobal çağırışlar dövründə dialoq və əməkdaşlığın artıq seçim deyil, zərurət olduğunu söyləyərək, bu baxımdan Boao Forumunun kollektiv düşüncə və əlaqələndirilmiş fəaliyyət üçün mühüm bir platforma kimi çıxış etdiyini söyləyib. Onun sözlərinə görə, 25 ildən artıq müddətdə forum öz dəyərini sübut edib, liderlərin və ekspertlərin bir araya gələrək praktik həll yolları irəli sürdüyü, davamlı inkişafı təşviq etdiyi və beynəlxalq əməkdaşlığı gücləndirdiyi bir məkan kimi tanınıb.

Milli Məclisin Sədri çıxışında həmçinin müasir beynəlxalq arenada Çinin artan roluna diqqət çəkərək deyib ki, Çin bu günün beynəlxalq münasibətlər sistemində mühüm və konstruktiv rol oynayır. Onun sözlərinə görə, Çinin iqtisadi, sosial və texnoloji inkişaf sahəsində əldə etdiyi möhtəşəm nailiyyətlər və bu uğurları bölüşmək səyləri bəşəriyyət üçün ortaq gələcəyə əsaslanan, irəliyə yönəlmiş baxışı əks etdirir. Sədr inamını ifadə edib ki, Çin Xalq Nümayəndələri Yığıncağının qəbul etdiyi 15-ci Beşillik Planın uğurla icrası bu baxışı daha da inkişaf etdirəcək və genişləndirəcək.

Spikerin sözlərinə görə, Çin Xalq Respublikasının Sədri Si Cinpin tərəfindən irəli sürülmüş və Azərbaycan tərəfindən də dəstəklənən Qlobal İnkişaf, Qlobal Təhlükəsizlik, Qlobal Sivilizasiya və Qlobal İdarəetmə təşəbbüsləri əməkdaşlıq, qarşılıqlı hörmət və ortaq məsuliyyət əsasında daha inklüziv, təhlükəsiz və dayanıqlı dünya qurmaq üçün əməkdaşlığa, qarşılıqlı hörmətə və ortaq məsuliyyətə əsaslanan hərtərəfli çərçivə təqdim edir.

Milli Məclisin Sədri çıxışında Azərbaycan və Çin münasibətlərinə dair tədbir iştirakçılarına məlumat verib. Sahibə Qafarova deyib ki, ortaq baxışlar ölkələri bir-birinə yaxınlaşdırır. Onun sözlərinə görə, gələn il - Azərbaycanla Çin arasında diplomatik əlaqələrin qurulmasının 35 illiyini qeyd etməyə hazırlaşdığımız bir vaxtda, bu münasibətlər artıq yeni səviyyəyə yüksəlib. Spiker vurğulayıb ki, son dövrlərdə yüksəksəviyyəli qarşılıqlı səfərlər, o cümlədən Prezident İlham Əliyevin Çinə səfərləri, strateji və hərtərəfli strateji tərəfdaşlığa dair Birgə Bəyannamələrin imzalanması ölkələrimiz arasında siyasi dialoqun dərinliyini, qarşılıqlı etimadı və genişlənən əməkdaşlığı açıq şəkildə nümayiş etdirir. O, Azərbaycanın Çinin təşəbbüslərini tam dəstəklədiyini və bu prinsipləri bölüşdüyünü qeyd edib.

Milli Məclisin Sədri forum iştirakçılarının diqqətinə çatdırıb ki, Azərbaycan təxminən üç onillik davam edən işğala məruz qaldıqdan və beynəlxalq hüquqa uyğun olaraq ərazi bütövlüyünü və suverenliyini bərpa etdikdən sonra suverenlik, ərazi bütövlüyü və daxili işlərə qarışmama prinsiplərinə xüsusi əhəmiyyət verir. Spiker Sahibə Qafarova Prezident İlham Əliyev tərəfindən müəyyən edilən milli baxışın sülhə, inkişafa, çoxtərəfliliyə, qarşılıqlı hörmətə və əməkdaşlığa əsaslandığını vurğulayaraq deyib ki, bu baxış ardıcıl şəkildə praktik addımlara çevrilir.

Spiker Sahibə Qafarova çıxışında Azərbaycanın Prezident İlham Əliyevin rəhbərliyi ilə qlobal təşəbbüsləri barədə tədbir iştirakçılarına məlumat verib. Onun sözlərinə görə, Qoşulmama Hərəkatına sədrliyi dövründə Azərbaycan fəal şəkildə Qlobal Cənubun maraqlarını təşviq edib və hərəkatın institusional əsaslarının möhkəmləndirilməsinə töhfə verib. Onun sözlərinə görə, Prezident İlham Əliyevin təşəbbüsü ilə yaradılan və hazırda Azərbaycan Milli Məclisinin sədrlik etdiyi Qoşulmama Hərəkatının Parlament Şəbəkəsi parlamentlərarası əməkdaşlıq vasitəsilə ümumi məqsədlərə nail olmaq üçün mühüm platforma təqdim edir.

Həmçinin diqqətə çatdırılıb ki, COP29-a evsahibliyi edən Azərbaycan Qlobal Şimal və Cənub arasında fikir ayrılıqlarını aradan qaldırmaq və qlobal iqlim gündəliyi üzrə əsas nəticələrin əldə olunmasına töhfə vermək üçün fəal çalışıb.

Spiker Azərbaycanın həmçinin Qlobal Bakı Forumu kimi platformalar vasitəsilə sivilizasiyalararası dialoq, multikulturalizm və tolerantlığın təşviqi kimi məsələlər üzərində fəal işləməyə davam etdiyini də vurğulayıb.

Milli Məclisin Sədri həmçinin yaxın aylarda Azərbaycanın Ümumdünya Şəhərsalma Forumuna evsahibliyi edəcəyini, o cümlədən 2026-cı ilin payızında Bakıda Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Quruculuğu üzrə Müşavirənin Zirvə Toplantısının keçiriləcəyini xatırladaraq deyib ki, bu da ölkəmizin beynəlxalq əməkdaşlığa sadiqliyini daha da möhkəmləndirəcək.

Milli Məclisin Sədri çıxışında həmçinin diqqətə çatdırıb ki, son qlobal proseslər bir daha göstərdi ki, enerji təhlükəsizliyi, nəqliyyat və kommunikasiya strateji baxımdan nə qədər vacibdir. Spiker Sahibə Qafarova vurğulayıb ki, Azərbaycan geniş bir regionda enerji təhlükəsizliyinin təmin olunmasında mühüm rol oynayır, eyni zamanda "yaşıl enerji" sahəsinə davam edən investisiyalar bu töhfəni daha da gücləndirəcək.

Çıxışda həmçinin Azərbaycanın Avrasiya üzrə əsas nəqliyyat qovşaqlarından birinə çevrildiyi, "Bir Kəmər, Bir Yol" təşəbbüsünün ilk dəstəkçilərindən biri kimi, onun inkişafına fəal şəkildə töhfə verməyə davam etdiyi diqqətə çatdırılıb. Qeyd olunub ki, Azərbaycan Çindən sonra bu təşəbbüsə ən böyük sərmayə qoyan ikinci ölkədir. Bildirilib ki, bu gün Orta dəhliz Avropanı Mərkəzi Asiya və Çin ilə Xəzər dənizi vasitəsilə birləşdirən ən optimal və təhlükəsiz marşrutlardan biri olduğunu sübut edib. Bundan əlavə, Milli Məclisin Sədrinin sözlərinə görə, Azərbaycan və Ermənistan arasında sülh prosesi çərçivəsində ölkəmizin qərb rayonları ilə Naxçıvan Muxtar Respublikası arasında nəqliyyat və kommunikasiya əlaqələrinin bərpası Orta dəhlizin səmərəliliyini daha da artıracaqdır. Xüsusilə Orta dəhliz Avropa ilə Asiyanı birləşdirən etibarlı və səmərəli marşrut kimi özünü doğrultmaqdadır.

Spiker Sahibə Qafarova çıxışının sonunda deyib ki, Prezident İlham Əliyevin vurğuladığı kimi, layihələrimiz yalnız iqtisadi faydalar gətirmək üçün deyil, eyni zamanda sabitliyi, qarşılıqlı bağlılığı və xalqlar arasında etimadı təşviq etmək üçün nəzərdə tutulub. Boao Forumu da bir daha tərəfdaşlıq, dialoq və qarşılıqlı hörmət vasitəsilə ümumi çağırışların öhdəsindən səmərəli şəkildə gələ və daha sabit, firavan gələcək qura biləcəyimizi göstərir.

*"Azərbaycan"*



# Milli Məclisin Sədri Sahibə Qafarova Çinə səfər edib

Milli Məclisin Sədri Sahibə Qafarova Asiya naminə Boao Forumunda iştirak etmək üçün Çinin Boao şəhərinə işgüzar səfərə gedib.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, Qionghai Boao Beynəlxalq Hava Limanında Milli Məclisin Sədrini Hainan Əyalətinin vitse-qubernatoru Yanq Quigianq, Azərbaycanın Çindəki səfiri Bünyad Hüseynov və digər rəsmi şəxslər qarşılayıblar.

*"Azərbaycan"*

# Azərbaycan-Çin əməkdaşlığı bir çox sahələr üzrə genişlənməkdədir

Milli Məclisin Sədri Sahibə Qafarova Çinə işgüzar səfəri çərçivəsində Ümumçin Xalq Nümayəndələri Yığıncağının Daimi Komitəsinin Sədri Cao Lıci ilə görüşüb.



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, Azərbaycan parlamentinin spikerini səmimiyyətlə salamlayan Cao Lıci səfərə və Asiya naminə Boao Forumunda iştirakına görə Sahibə Qafarovaya təşəkkür edib. O qeyd edib ki, Milli Məclis Sədrinin bu forumda iştirak məqsədilə Çinə səfəri Azərbaycanın ikitərəfli əlaqələrə verdiyi əhəmiyyətin və foruma dəstəyinin göstəricisidir.



Ölkələrimiz arasında dərin tarixi köklərə əsaslanaraq, möhkəm təməl üzərində qurulan və xalqlarımızın fundamental maraqlarına cavab verən dostluq əlaqələrinin inkişafından məmnunluğunu bildirən Daimi Komitənin Sədri Cao Lıci Azərbaycan və Çin arasında diplomatik əlaqələrin qurulmasından keçən 34 ildə münasibətlərimizin qarşılıqlı hörmət və dəstəklə müşayiət olunduğunu diqqətə çatdırıb.

Cao Lıci qeyd edib ki, son illərdə iki ölkə başçısının müdrik rəhbərliyi altında münasibətlər strateji tərəfdaşlıq səviyyəsinə yüksəlib. Ötən il Azərbaycan və Çin liderləri arasında iki görüş keçirilib və Ümumçin Xalq Nümayəndələri Məclisi dövlət başçılarının bu fəaliyyətinin dəstəklənməsi və ölkələrimiz arasında əlaqələrə yeni ölçülərin qazandırılması məqsədilə Azərbaycan parlamenti ilə birgə işləmək niyyətindədir.

Milli Məclisin Sədri Sahibə Qafarova göstərilən yüksəksəviyyəli qonaqpərvərliyə və Azərbaycanın ünvanına söylədiyi xoş sözlərə görə təşəkkür edərək, Cao Lıci ilə bundan öncə müxtəlif ölkələrdə keçirilən beynəlxalq tədbirlər çərçivəsində görüşlərini məmnunluqla xatırlayıb. Onun Azərbaycan Respublikası Milli Məclisinin Sədri kimi Çinə ilk səfərə gəldiyini deyən spiker Sahibə Qafarova ümidvar olduğunu bildirib ki, bu səfər parlamentlərimiz arasında münasibətlərin daha da genişlənməsinə və qarşılıqlı səfərlərin artmasına töhfə verəcək.

Gələn il ölkələrimiz arasında diplomatik münasibətlərin qurulmasının 35 illiyinin qeyd olunacağını söyləyən Milli Məclis Sədrinin sözlərinə görə, ölkələrimiz arasında münasibətlər həmişə dostluq, qarşılıqlı hörmət və dəstək üzərində qurulub və bu gün Azərbaycan - Çin əməkdaşlığı bir çox sahələr üzrə genişlənməkdə davam edir.

Spiker Sahibə Qafarova son dövrlərdə bu münasibətlərin yeni mərhələyə yüksəldiyini və Prezident İlham Əliyevin ölkələrimiz arasında əməkdaşlığın gücləndirilməsinə böyük əhəmiyyət verdiyini vurğulayıb. Diqqətə çatdırılıb ki, ölkələrimizin liderləri arasında mövcud olan səmimi münasibətlər, qarşılıqlı hörmət və etimad tərəfdaşlığın inkişafında mühüm rol oynayır. O, Prezident İlham Əliyevin 2025-ci ildə Çinə səfərlərini, həmçinin ötən ilin aprel ayında baş tutan dövlət səfəri zamanı Hərtərəfli Strateji Tərəfdaşlıq haqqında Birgə Bəyanatın imzalandığını xatırladıb.

Söhbət zamanı ərazi bütövlüyü və suverenliyi məsələsində də qarşılıqlı dəstək ifadə olunub. Milli Məclisin Sədri Sahibə Qafarova bildirib ki, Azərbaycan "Vahid Çin" siyasətini hər zaman qətiyyətlə dəstəkləyir, Çin isə öz növbəsində Azərbaycanın suverenliyinə və ərazi bütövlüyünə daim dəstək göstərib.

Cao Lıci Azərbaycanın "Vahid Çin" siyasətinə, Çinin Tayvan, Honkonq və Sintszyan-Uyğur muxtar regionlarına dair mövqeyinə dəstəyi və bu istiqamətdə verdiyi bəyanatları yüksək qiymətləndirdiklərini bildirib. O, həmçinin Çin vətəndaşlarının İrandan təxliyə olunmasına göstərdiyi dəstəyə görə Azərbaycana təşəkkür edib.

Görüşdə vurğulanıb ki, Azərbaycan "Bir Kəmər, Bir Yol" təşəbbüsünü dəstəkləyən ilk ölkələrdən biridir və Çin tərəfi bunu yüksək qiymətləndirir. Sahibə Qafarova deyib ki, bu gün Azərbaycan Avrasiyada mühüm nəqliyyat qovşağıdır. Orta dəhliz Çin ilə Avropanı Xəzər dənizi vasitəsilə birləşdirən etibarlı, təhlükəsiz və səmərəli marşruta çevrilib.

Eyni zamanda ölkələrimizin ticarət, nəqliyyat, kommunikasiya məsələlərində birgə işləməsindən, həmçinin Trans-Xəzər Beynəlxalq Nəqliyyat Dəhlizi üzrə yükdaşımaların artmasından məmnunluq ifadə edilib. Cao Lıci bildirib ki, Çin rəqəmsal inkişaf, süni intellekt, "yaşıl enerji" kimi sahələr üzrə də əlaqələrin inkişafında maraqlıdır. Vizaların qarşılıqlı ləğvi, iki ölkə arasında birbaşa uçuşların yaratdığı imkanlardan istifadə əlaqələri daha da inkişaf etdirəcək.

Söhbət zamanı diqqətə çatdırılıb ki, Azərbaycan və Çin qlobal cənubun üzvləridirlər. Cao Lıci Azərbaycanın beynəlxalq səviyyədə oynadığı rolun getdikcə daha da gücləndiyini və Çinin beynəlxalq səviyyədə Azərbaycana dəstəyini və Azərbaycanla əlaqələndirməni daha da artırmaq niyyətində olduğunu bildirib. Qeyd olunub ki, Çin həmçinin Azərbaycanın Şanxay Əməkdaşlıq Təşkilatına üzvlüyünü və ölkəmizin Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirəyə sədrliyini də dəstəkləyir.

Görüşdə daha sonra humanitar və mədəni əməkdaşlıq məsələlərinə də diqqət yetirilib və qeyd olunub ki, bu sahədə əlaqələr xalqlarımızı bir-birinə daha da yaxınlaşdırır. Milli Məclisin Sədri ölkələrimiz arasında mədəni sahədə uğurlu layihələr həyata keçirildiyini bildirib, xüsusilə Heydər Əliyev Fondu ilə Çin Xalqının Xarici Ölkələrlə Dostluq Assosiasiyası arasındakı əməkdaşlığı yüksək qiymətləndirib.

Söhbət zamanı tərəflər parlamentlərarası əməkdaşlığa da diqqət yetirərək qeyd ediblər ki, bu sahədə əlaqələr ölkələrimiz arasında münasibətlərin dərinləşməsində mühüm yer tutur. Spiker Sahibə Qafarova Prezident İlham Əliyevin Çinə dövlət səfəri zamanı Ümumçin Xalq Nümayəndələri Məclisinin Daimi Komitəsinin sədri ilə keçirdiyi görüşləri də bu əlaqələrə verilən əhəmiyyətin göstəricisi kimi dəyərləndirib.

Vurğulanıb ki, parlamentlərimiz arasında fəal və səmərəli əməkdaşlıq mövcuddur. Spikerlər və parlament nümayəndə heyətləri səviyyəsində qarşılıqlı səfərlər mütəmadi həyata keçirilir və deputatlarımız parlamentlərimizin evsahibliyi etdiyi beynəlxalq tədbirlərdə iştirak edirlər. Deputatlar həmçinin parlamentlərarası təşkilatlar çərçivəsində mütəmadi əlaqə saxlayır və bir-birimizə qarşılıqlı dəstək göstərilir və fikir mübadiləsi aparılır.

Söhbət zamanı gələcəkdə də bu əlaqələrin daha da genişləndirilməsinin və təmasların artırılmasının əhəmiyyətinə dair ortaq fikirlər səsləndirilib, qanunvericilik orqanlarının komitələri arasında, o cümlədən institusional əlaqələrin inkişaf etdirilməsi, eyni zamanda, müxtəlif sahələr üzrə əməkdaşlığın genişləndirilməsi imkanları nəzərdən keçirilib.

Cao Lıci həmçinin Çin Xalq Nümayəndələri Yığıncağının 14-cü sessiyasının yekunları və qəbul etdiyi qərarlar, eyni zamanda Çinin əldə etdiyi sosial-iqtisadi nailiyyətlər haqqında da məlumat verib. O, Çinin bu nailiyyətləri dost ölkələrlə, o cümlədən Azərbaycanla paylaşmağa hazır olduğunu söyləyib.

*"Azərbaycan"*



# 31 MART AZƏRBAYCANLILARIN SOYQIRIMI GÜNÜDÜR





# Milli yaddaşımızın ağrılı səhifəsi

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin həyata keçirdiyi siyasət nəticəsində tarixinin ən qüdrətli mərhələsini yaşayan ölkəmiz bu gün regionun lider dövləti kimi Cənubi Qafqazda əbədi sülhün, dayanıqlı inkişafın möhkəm təməllərini formalaşdırır, gələcəyə yönəlmiş siyasətlə bu torpaqlarda yaşayan bütün insanları aydın yola, xoşbəxt sabaha doğru yönəldir.

Ortaq gələcəyin qurulmasında fəal iştirak hər birimizin ümumi missiyasıdır. Bununla yanaşı, keçmişin ibrət dərslərini də heç zaman unutmamalıyıq. Bu dərslər bizə gələcəyə doğru yolumuzda daha həssas davranmağa, addımlarımızı hər zaman düzgün müəyyənləşdirməyə kömək göstərəcək.

Tarixin elə səhifələri var ki, aradan keçən zaman o səhifədə həkk olunmuş həqiqətləri əsla soldurmur, əksinə, illər keçdikcə bu həqiqətlər daha dərin iz qoyur. 1918-ci ilin mart ayında daşnakların bolşeviklərlə birləşərək azərbaycanlılara qarşı törətdikləri soyqırımı da tariximizin belə ağrılı səhifələrindəndir. Bu qanlı hadisələrdən artıq 108 il ötsə də, həmin günlərin ağrısı, itkilərin ağırlığı və yaddaşımızda qoyduğu izlər bu gün də canlıdır.

Hər ilin 31 mart günü biz yalnız keçmişi xatırlamırıq, eyni zamanda tariximizin bu dəhşətli həqiqətlərinə işıq salır, qurbanların xatirəsini ehtiramla yad edir və bu həqiqətlərin unudulmaması üçün bir daha özümüzə söz veririk. 108 il əvvəl baş verənlər təkcə bir dövrün faciəsi deyil, həm də milli yaddaşımızın ayrılmaz hissəsidir.

## Məqsədli siyasət

XIX əsrin əvvəllərində imzalanmış "Gülüstan" və "Türkmənçay" müqavilələri nəticəsində Azərbaycan torpaqlarının bölüşdürülməsindən sonra çar Rusiyası regionda öz maraqlarına uyğun yeni siyasi düzən formalaşdırmağa başladı. Bu siyasətin əsas istiqamətlərindən biri qədim Azərbaycan ərazilərində ermənilərin iştirakı ilə dayaq nöqtəsi rolunu oynayacaq bufer zona yaratmaq və belə bir məqsədlə "erməni dövləti" ideyasını həyata keçirmək idi.

Bu planın kökləri daha əvvəlki dövrlərə gedib çıxır. Hələ I Pyotr dövründə çar Rusiyasının cənub siyasəti çərçivəsində ermənilərin imperiya ərazisinə köçürülməsi təşviq olunurdu. I Pyotr bu məqsədlə göndərdiyi nümayəndələrə ermənilərin Rusiyaya cəlb olunmasının vacibliyini xüsusi tapşırırdı.

Ardıcıl şəkildə həyata keçirilən bu siyasət çərçivəsində XIX əsrin birinci yarısında İran və Osmanlı ərazilərində yaşayan yüz minlərlə erməni kütləvi şəkildə Cənubi Qafqaza, o cümlədən İrəvan, Qarabağ, Naxçıvan, Zəngəzur, Dərələyəz, Ordubad, Vedibasar və digər Azərbaycan bölgələrinə köçürülərək məskunlaşdırıldı. Bununla belə, bölgədə demoqrafik üstünlük hələ də uzun müddət azərbaycanlılara aid idi. Məsələn, 1886-cı ildə Gəncə quberniyasının Zəngəzur qəzasındakı mövcud 326 kənddən cəmi 81-də ermənilər yaşayırdılar. Eyni dövrdə İrəvan qəzasında əhalinin təxminən 66 faizi azərbaycanlılardan, 34 faizi ermənilərdən ibarət idi. Bu vəziyyəti dəyişmək və bölgədə ermənilərin say üstünlüyünü təmin etmək məqsədilə azərbaycanlılara qarşı sistemli zorakılıq siyasətinə başlandı. Erməni quldur dəstələri çar Rusiyasının dəstəyi ilə gizli şəkildə silahlandırılır, güclü şəkildə təşkilatlandırılaraq yerli əhaliyə qarşı hücumlara cəlb edilirdilər.

XIX əsrin ikinci yarısından bu məqsədə doğru planlı iş aparan ermənilər ötən əsrin ilk onilliklərində öz qanlı cinayətləri üçün əlverişli imkan tapmışdılar. Onların "Daşnaksütyun" (1880, Tiflis), "Erməni vətənpərvərləri ittifaqı" (1885, Nyu York), "Qnçaq" (1887, Cenevrə) kimi siyasi-terror təşkilatlarının hər biri "böyük Ermənistan" dövlətinin qurulması planının icrasına cəlb edilmişdi.

XX əsrin əvvəllərində bu proses kəskin xarakter aldı, xüsusilə 1905-1907-ci illərdə azərbaycanlılara qarşı zorakılıqlar genişləndi. Çar hakimiyyətinin himayəsi altında ermənilərin həyata keçirdikləri cinayət əməlləri nəticəsində indiki Ermənistan və Dağlıq Qarabağ ərazilərindən azərbaycanlılar kütləvi şəkildə çıxarıldı, dinc əhaliyə qarşı qətliamlar, vəhşiliklər törədildi.

Ermənilər yaranmış qarışıqlığı, mərkəzi hakimiyyətin zəifləməsini fürsət bilib, Bakı, Şuşa, Zəngəzur qəzalarında kütləvi qırğınlar törətdilər. Araşdırmalara görə, 75 azərbaycanlı kəndini dəhşətli talana məruz qoydular. Azərbaycanlıların deportasiyası və soyqırımı prosesi müxtəlif miqyaslarda davam etdirildi. İnsanlar əsrlər boyu yaşadıqları əzəli yurdlarından qovuldular. Bütün bunlar təkzibi mümkün olmayan tarixi reallıqlardır. Bu reallıqlara Rusiya imperiyasının ovaxtkı statistik məlumatları da şahidlik edir. Tarixi mənbələrdə göstərilir ki, 1916-cı ilin məlumatlarına əsasən, İrəvan quberniyasının əhalisi 1830-1914-cü illər ərzində 40 dəfə artaraq 570 min nəfərə çatmışdı. Bu quberniyanın əhalisi tarixən azərbaycanlılardan ibarət idi. Statistika həmin dövrdə İrəvan quberniyasında azərbaycanlı əhalinin sayının cəmi 4,6 dəfə artdığını göstərir. O illərdə azərbaycanlı əhaliyə qarşı güclü sıxışdırılma tədbirləri həyata keçirilirdi. Amma bu qədər sərt sıxışdırma və deportasiya müqabilində yenə də İrəvan əhalisinin təxminən 45 faizi azərbaycanlılardan ibarət idi.

Ermənilərsə 1914-cü ildə başlanan Birinci Dünya müharibəsi və onun gedişində Rusiyada baş verən inqilablar mühitində "böyük Ermənistan" iddiasını reallığa çevirmək üçün azərbaycanlıları əsas maneələrdən biri kimi görürdülər. Ona görə də soydaşlarımıza qarşı maksimum amansızcasına davranırdılar.

Tədqiqatçı alimlərin araşdırmalarında göstərilir ki, ermənilər 1915-ci ilin əvvəllərində Türkiyənin şimal-şərq bölgələrində Osmanlı dövlətinə qarşı müharibəyə və kütləvi iğtişaşlara başlamışlar. Bunun cavabında Osmanlı dövləti erməni əhalisinin o ərazilərdən köçürülməsi barədə əmr vermişdi. Türkiyə ərazisindən İrəvan quberniyasına, Qarabağa və Zəngəzura erməni hərbi dəstələri və çox sayda erməni əhalisi köçüb gəlmişdi. Əvvəlcə çar Rusiyası ordusu, sonra isə bolşeviklər gəlmə ermənilərə dəstək verirdilər. Onlar havadarlarının köməyinə arxalanaraq əvvəlcə Naxçıvanda və İrəvanda, ardınca isə Qarabağda, Azərbaycanın digər bölgələrində soydaşlarımıza divan tutdular.

1917-ci ilin dekabrında Osmanlı dövləti ilə bolşeviklərin Zaqafqaziya Komissarlığı arasında Ərzincan barışığı imzalandı. Həmin razılaşmaya əsasən, Qafqaz cəbhəsindən çıxarılan rus ordusunu erməni hərbi birləşmələri əvəz edirdi. Onlar nəzarətsizlik şəraitindən istifadə edərək yerli müsəlman əhalisinə qarşı vəhşi əməllərinin miqyasını genişləndirdilər. Mənbələrə əsasən, 1918-ci il martın 6-na qədər İrəvan quberniyasında 199 azərbaycanlı kəndi tamamilə dağıdılaraq yandırıldı. Quberniyada yaşayan 135 min Azərbaycan türkünün böyük bir qismi öldürüldü. Ermənilərin əlindən qurtulub sağ qalan soydaşlarımız Osmanlı ordusunun nəzarət etdiyi ərazilərə pənah apardılar.

## Bakıda mart qırğınları

1917-ci ildə baş verən oktyabr inqilabı nəticəsində Rusiya imperiyasının süquta uğramasından sonra regionda yaranmış siyasi boşluq erməni daşnaklarının əlinə daha bir böyük fürsət verdi. 1918-ci ilin əvvəllərində Lenin bolşevik cildinə girmiş, amma daşnak xislətini də unutmamış Stepan Şaumyanı Qafqaz üzrə fövqəladə komissar təyin edərək Bakıya göndərdi. Bu təyinat formal olaraq guya Bakıda bolşevik hakimiyyətinin qurulması məqsədi daşısa da, proseslərin gedişi faktiki olaraq erməni silahlı daşnaklarının bolşeviklərlə birləşərək azərbaycanlılara qarşı soyqırımı törətmələrinə şərait yaratdı.

31 mart 1918-ci ildə Şaumyanın əmri ilə Bakıda azərbaycanlılara qarşı kütləvi qırğınlara start verildi. Onun özünün də etiraf etdiyi kimi, bu hadisələrdə Bakı Soveti tərkibindəki minlərlə silahlı ilə birgə, Daşnaksütyun partiyasının quldur dəstələri də fəal iştirak edirdilər.

Bir neçə gün davam edən soyqırımı aktı zamanı silahlı dəstələr azərbaycanlıların yaşadıqları məhəllələrə hücum edərək dinc əhaliyə qarşı amansız qırğınlar törətdilər. İlk hücumlar Bakının "Kərpiçxana", "Məmmədli", "Zibilli Dərə" adlandırılan hissələrinə yönəldi. Burada yaşayan əhalinin, demək olar ki, hamısı məhz azərbaycanlılar idi. Şəhərin bu rayonu və başqa müsəlman rayonları dənizdən "Ərdəhan" və "Janr" hərbi paraxodlarının toplarından atəşə tutulurdu, Ermənikənd tərəfdən isə, ermənilər toplardan atəş açırdılar. Top atəşləri ilə yanaşı, daşnak və bolşevik silahlı dəstələri azərbaycanlı məhəllələrinə kütləvi hücumlar edir, qarşılarına çıxanı öldürürdülər.

Bolşevik hökumətinin Xəzər dənizindəki hərbi donanması da ermənilərin fitvası ilə şəhərin azərbaycanlı məhəllələrini ardıcıl top atəşinə tuturdu. Erməni daşnakları özünəməxsus hiyləgər xislətləri ilə rus matroslarını aldadıb inandırmışdılar ki, guya azərbaycanlılar Bakıdakı xristianları qırırlar. Bu atəşlər nəticəsində minlərlə adam həyatını itirmişdi, müsəlmanların əsas ibadət yeri sayılan "Təzəpir" məscidinin minarələri zədələnmiş, şəhərin başqa tikililərinə də böyük ziyan dəymişdi. Bakının memarlıq incilərindən sayılan məşhur "İsmailiyyə" binasına od vurulmuşdu.

Üç gün boyunca təkcə Bakıda 12-15 min azərbaycanlı öldürüldü. Həmin günlər digər bölgələrlə birlikdə 30 min adam qətlə yetirildi. O zaman Nəriman Nərimanov qırğının qarşısını almaq üçün işə qarışmalı olur. Martın 30-da saat 2-də öz evində müşavirə çağırır. Müşavirəyə S.Şaumyan da dəvət olunur və hadisələrin qarşısını almaq üçün ona müraciət edilir. Şaumyan həmin müşavirədə hiyləgərcəsinə qırğının dayandırılacağına söz verir. Hətta Nərimanov telefonla A.Caparidzeyə zəng vurur və necə olursa-olsun qırğının dayandırılmasını tələb edir. Lakin bunun heç bir təsiri olmur, ermənilər qırğını daha da gücləndirirlər. Soyqırımı aprelin 2-si gecə yarıyadək davam edir. Sağ qalanlar Bakını tərk etmək məcburiyyətində qalırlar. Bir sözlə, "əks-inqilaba qarşı mübarizə" adı altında milli qırğın təşkil edilir və bu, bolşevizmin gətirdiyi böyük fəlakətə çevrilir.

Həmin günlərdə hətta daşnak silahlı dəstələri Nəriman Nərimanovun evinə də basqın edərək qardaşını həbs etmişdilər. N.Nərimanov erməni vəhşilərinin törətdikləri qətliamlar haqqında yazırdı: "Bolşevik olan bir müsəlmana belə aman verilmədi. Müsəlmanlara hər cür cinayəti etdilər. Nəinki kişilər, hətta hamilə qadınlar da daşnaklardan canlarını qurtara bilmədilər". Müsəlmanları qırıb-çatmaqla yanaşı, ermənilər onların əmlaklarını da məhv edir, qiymətli əşyaları özləri ilə aparırdılar. Azərbaycanlılara qarşı bu soyqırımı və qarətlərdə Anastas Mikoyanın başçılıq etdiyi "Qızıl Qvardiya" dəstələri xüsusilə fərqlənmişdilər.

## Planlı cinayət

Soyqırımının miqyası, aparılma qaydası daşnakların və bolşeviklərin bu qətliamlara necə planlı şəkildə hazırlaşdıqlarını təsdiqləyir. Onlar hətta çox çətinliklə yol tapıb canını qurtarmağa çalışan mülki əhaliyə qarşı hücumları da əvvəlcədən planlaşdırılmış şəkildə həyata keçirmişdilər. Şəhərin müxtəlif nöqtələrində pulemyotlar yerləşdirilmişdi. Qaçan insanları həmin silahlarla aramsız atəşə tutmuş, bu vəhşətdən kiminsə xilas olması üçün heç bir imkan qoymamışdılar.

Qırğınlar yalnız Bakı ilə də məhdudlaşmamış, qısa müddət ərzində Azərbaycanın digər bölgələrinə də yayılmışdır. Erməni daşnakları bolşeviklərlə birgə Şamaxıda, Qubada, İrəvanda, Zəngəzurda, Qarabağda, Naxçıvanda, Qarsda dinc azərbaycanlı əhaliyə qarşı kütləvi zorakılıqları davam etdirmişdilər.

1918-ci ilin mart-aprel aylarında Şamaxıda minlərlə insan qətlə yetirilmiş, kəndlər viran qoyulmuş, şəhərin mühüm dini və mədəni abidələri, o cümlədən Cümə məscidi dağıdılmışdı. Araşdırmalar Şamaxı soyqırımının qısa fasilələrlə bir neçə mərhələdə, hətta Bakı və Qubadakı qırğınlardan da əvvəl baş verdiyini təsdiqləyir. Belə ki, Şamaxı soyqırımının ilk mərhələsi martın əvvəllərindən 27 marta qədər davam etmiş, ikinci mərhələsi 30 martda, 3-cü mərhələsi 18 apreldə olmuşdu. Ekspertlərin arxiv sənədləri əsasında apardıqları hesablamalara görə, Şamaxı qəzasının 53 kəndində 8027 nəfər azərbaycanlı qətlə yetirilmişdi. Onlardan 4190 nəfəri kişi, 2560 nəfəri qadın, 1277 nəfəri uşaq olmuşdu.

Erməni daşnakları və bolşeviklər Quba qəzasında da yerli əhaliyə qarşı amansız qırğınlar törətmişlər. Qəzada 162 kəndi dağıtmış, bunlardan 27-sini əhalisi ilə birlikdə yandırmış, 16 mindən çox müsəlmanı qətlə yetirmişlər.

Naxçıvan və Zəngəzur bölgələrində də oxşar faciələr yaşanmış, yüzlərlə kənd dağıdılmış, on minlərlə insan öldürülmüş və ya doğma yurdlarından didərgin düşmüşdür. Aprelin 29-da Gümrü yaxınlığında, əsasən, qadın, uşaq və yaşlılardan ibarət üç min nəfərlik azərbaycanlı köçü pusquya salınaraq tamamilə qətlə yetirilmişdir. Erməni daşnakları eyni dövrdə Cavanşir və Cəbrayıl qəzalarında da onlarla kəndi yandırmış, əhalini məhv etmişlər. Həmin dövrdə törədilən qırğınlar İrəvan quberniyasında da geniş miqyas almışdır. Belə ki, bu bölgənin 199 kəndində yaşayan azərbaycanlılar məhv edilmiş, yaşayış məntəqələri tamamilə dağıdılaraq xəritədən silinmişdir.

Soyrıqımı təkcə mart qətliamları ilə də bitməmişdi, erməni silahlı dəstələri sonradan Qarabağa doğru hərəkət edərək 1918-1920-ci illər ərzində Qarabağın dağlıq hissəsində 150-yə yaxın kəndi viran qoyub əhalisini məhv etmişdilər. 1920-ci ilin mayında isə erməni silahlı qüvvələri və XI Qızıl Ordu ilə birlikdə Gəncə şəhərində genişmiqyaslı qırğın törətmişdir. Nəticədə 12 mindən çox azərbaycanlı həyatını itirmişdir. Bu faktlar Azərbaycan Xalq Cümhuriyyəti dövründə fəaliyyət göstərən Fövqəladə İstintaq Komissiyasının materiallarında da öz əksini tapmışdır. Bütün bu hadisələr 1918-ci ildə azərbaycanlılara qarşı törədilmiş soyqırım aktlarının necə sistemli xarakter daşıdığını və nə qədər geniş coğrafiyanı əhatə etdiyini göstərir.

## Tarixin ibrət dərsi

Azərbaycan Xalq Cümhuriyyəti dövründə 1918-ci ilin mart hadisələrinə xüsusi diqqət yetirilmişdir. Cümhuriyyətin Nazirlər Şurası 1918-ci il iyulun 15-də bu faciənin tədqiqi məqsədilə Fövqəladə İstintaq Komissiyasının yaradılması haqqında qərar qəbul etmiş, komissiya mart soyqırımını, ilkin mərhələdə Şamaxıdakı vəhşilikləri, İrəvan quberniyası ərazisində ermənilərin törətdikləri ağır cinayətləri araşdırmışdır. 1919 və 1920-ci ilin mart ayının 31-i iki dəfə Azərbaycan Xalq Cümhuriyyəti tərəfindən ümummilli matəm günü kimi qeyd edilmişdir. Əslində, bu, azərbaycanlılara qarşı yürüdülən soyqırımı və bir əsrdən artıq davam edən torpaqlarımızın işğalı proseslərinə tarixdə ilk dəfə siyasi qiymət vermək cəhdi idi. Lakin cümhuriyyətin süqutu bu işin başa çatmasına imkan verməmişdir.

Yalnız Azərbaycan Respublikası müstəqillik əldə etdikdən sonra Ulu Öndər Heydər Əliyevin siyasi iradəsi ilə bu hadisələrə rəsmi siyasi-hüquqi qiymət verilmiş, Azərbaycan Prezidentinin 1998-ci il 26 mart tarixli fərmanı ilə 31 Mart Azərbaycanlıların Soyqırımı Günü elan edilmişdir.

Prezident İlham Əliyevin 30 dekabr 2009-cu il tarixli sərəncamı ilə erməni faşizminə qurban getmiş soydaşlarımızın xatirəsinin əbədiləşdirilməsi məqsədilə Quba şəhərində "Soyqırımı Memorial Kompleksi" yaradılmışdır. Dövlətimizin başçısı 2018-ci il yanvarın 18-də "1918-ci il azərbaycanlıların soyqırımının 100 illiyi haqqında" sərəncam imzalamışdır. Həmin sərəncama əsasən, ölkədə və respublika hüdudlarından kənarda soyqırımının yüzüncü ildönümünə həsr olunmuş tədbirlər həyata keçirilmişdir.

Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə ordumuzun qazandığı tarixi Zəfər nəticəsində bir neçə əsrlik problemin aradan qaldırılması, məkrli xarici güclərin regionun qarayarası kimi qondardıqları "daşnak layihəsi"nin birdəfəlik kəsilib atılması bütün şəhidlərimiz kimi 1918-ci ilin mart soyqırımı qurbanlarının da döyüş meydanında alınan qisası, onların narahat ruhlarının rahatlıq tapmasıdır.

1918-ci ildə azərbaycanlılara qarşı törədilmiş qırğınlar təkcə bir xalqın deyil, bütövlükdə bəşəriyyətin faciəsidir. Bu hadisələr milli yaddaşı qorumağın və gələcək nəsillərə düzgün məlumat ötürməyin vacibliyini göstərir. Bu mövzunun öyrənilməsi və beynəlxalq səviyyədə tanıdılması həm tarixi ədalətin bərpası, həm də oxşar faciələrin təkrar baş verməməsi üçün mühüm əhəmiyyət daşıyır.

*İradə ƏLİYEVA, "Azərbaycan"*

# Daşnak-bolşevik cəlladları Salyana girə bilmədilər

Azərbaycanın bir çox ərazisində xalqımız tərəfindən böyük ehtiramla anılan türk şəhid məzarlıqları mövcuddur. Salyan şəhər qəbiristanlığında, indiki Neftçalanın - ozamankı Cavad qəzasının Salyan bölgəsinin Seyidlər, Qaralı və Ərəbbəbirxanlı kəndlərində də belə məzarlar var. Xalqımız tərəfindən ziyarətgaha çevrilən, gül-çiçəyə tutulan bu məzarlar bir millət - iki dövlət dediyimiz Azərbaycan-Türkiyə qardaşlığının ölməz rəmzləridir.



Salyandakı hadisələr 1918-ci ilin iyun ayında - isti yay günlərində baş vermişdir. Təpədən-dırnağacan silahlanmış erməni-rus birləşmələri Salyan şəhərinə yaxınlaşırdı. Daşnak-bolşevik dəstələri yerli rus-malakanları da özlərinə qoşaraq gəmilərlə Kür çayının mənsəbindən Salyan ərazisinə daxil olmuşdular. Onlar kəndlərə çatdıqda quruya çıxır, evləri qarət edir, qadın, uşaq, qoca demədən hamını öldürür, sonra da evləri yandırırdılar. Yerli əhalidə silah olmadığından kəndlər müdafiəsiz idi.

Bu yerdə bir məqama diqqət çəkmək lazımdır: 30 mart-3 aprel arası Bakıda qanlı soyqırımı törədəndən sonra Stepan Şaumyanın başçılıq etdiyi, özünü "bolşevik hökuməti" kimi qələmə verən işğalçıların nümayəndələri əvvəl əraziyə gəlib bolşevik (sovet) hakimiyyəti "qurur", sülh tərəfdarı olduqlarını elan edir, əhalidən silahları yığır və bu yolla xalqın başını bir növ qataraq sonradan hücuma keçirdilər. Məsələn, onlar Bankə qəsəbəsində bu oyunu oynamışdılar. Buna qədər erməni-rus birləşmələri Hacıqabulun Meyniman kəndini viran qoymuş, Neftçalanın Uzunbabalı kəndini tamam dağıtmışdılar. Bankə qəsəbəsində, Tataraməhlə kəndində törətdikləri qanlı qırğınların dəhşəti isə yeri-göyü ağladırdı. Babazənan dağına sığınan qadınlara, Dirovdağa pənah aparan Tataraməhlə camaatına son nəfərinə qədər aman verilməmişdi. Qaralı, Astanlı, Ərəbbəbirxanlı, Qarabucaq, Surra camaatı soyqırımına məruz qalmış, yüzlərlə evin ocağı söndürülmüşdü. O zaman Salyanda Mirəşrəf ağa, Ağamirbağır ağa kimi xalqa qahmar çıxan insanlar bu gün də böyük minnətdarlıqla xatırlanırlar. Ağamirbağır ağa xalqa daha yaxın olmuş, türk komandanlığı ilə sıx əlaqə saxlamış, onlar gəlib çıxana qədər könüllüləri bir yerə yığmış, döyüş bacarığı olmayanlara təlim keçmiş, Ballıcalıdan Kəblə Urufa iki top aldırmış, Qaraqaşlı kəndindən cığatayəsilli ovçuları və Əli bəy Ağabəylini bir araya gətirmiş, silahlar əldə etmişdi.

Salyana Türkiyədən Ramazan paşanın rəhbərliyi ilə kiçik bir dəstə gəlmişdi. Qeyrətli kişilər, cəsur gənclər erməniləri Salyana buraxmamaqda qərarlı idilər. Salyandan Kabla Rəşid, qaçaq Usubun dəstəsi, Qaraqaşlıdan cığataylı ovçular, Əli bəy Ağabəyli və qardaşları, Qaralıdan Qoçu Əsgər, Miraslan, Qaranquc Əsəd, Qaragöz Məmmədhüseyn, Ballıcalıdan Uruf, Feyzi, Hacı Səməd oğlu Pilağa, Şamil, Kərbəlayi Cahangir səfərbər oldular. Ramazan paşa da döyüşçüləri təlimatlandırmışdı. Əvvəl bu igidlər kəşfiyyat aparıb ermənilərin müəyyən bir yerə çatmasını gözlədilər. Münasib yerdə səngər qazıb pusqu qurdular. Ermənilər qəfil onların üstünə çıxacaq və yalnız bundan sonra atışma başlanacaqdı.

Daşnak və bolşevikləri daşıyan "Demosfen" gəmisi Kürün Qaraqaşlı kəndindəki sahilində - Salyanın 3 kilometrliyində idi. Ermənilər də kəşfiyyat aparmış, Salyanın özündə sahilə çıxmağı nəzərdə tutmuşdular. Amma salyanlılar onları qabaqladılar və kolların arasından gəmiyə atəş açmağa başladılar. Ermənilər gəmidən sahilə töküldülər və pusquya düşdülər. Türk komandanı düşmənə göz açmağa aman vermədi. Topla gəmi də məhv edildi. Çoxlu düşmən öldürüldü, silah-sursat, döyüş mətbəxi qənimət götürüldü. Cəlladların sağ qalanları beləcə Salyana girməmiş geri dönməyə məcbur oldular.

*Seyran CAVADOV, "Azərbaycan"*

# 31 Mart xalqımızın qan yaddaşıdır

## Erməni faşizminin başlatdığı soyqırımı siyasəti on minlərlə azərbaycanlının həyatına son qoyub

Azərbaycan xalqı iki əsr ərzində misli görünməmiş sınaqlardan, qanlı faciələrdən və amansız soyqırımlardan keçib. Erməni millətçilərinin "böyük imperiya" xülyası sadəcə siyasi iddia deyil, türk dünyasına qarşı yeridilən sistemli məhvetmə siyasətinin təməli olub.



XIX əsrdən başlayan bu qanlı proses, XX əsrin əvvəllərində Bakıdan Şuşaya, İrəvandan Zəngəzura qədər geniş bir coğrafiyada on minlərlə soydaşımızın qətlə yetirilməsi ilə nəticələnib. Lakin erməni faşizminin qanlı əməlləri bununla da bitməyib, ötən əsrin 90-cı illərindən yenidən baş qaldırıb.

20 Yanvar hadisələri, 1992-ci il fevralın 26-da bəşəriyyətə qarşı törədilmiş ən ağır cinayətlərdən biri - Xocalı soyqırımı törədilib. 613 günahsız ömür, 8 tamamilə məhv edilmiş ailə, saysız yaralı... Bu, sadəcə bir şəhərin faciəsi deyil, bütün bəşəriyyətin vicdan yarası idi. Ağdabanda, Başlıbeldə, Qaradağlıda, Ballıqayada... törədilən vəhşiliklər isə bu zəncirin qanlı halqaları oldu.

Xalqımızın başına gətirilən bütün bu faciələr nifrətin və şovinizmin ən dəhşətli təzahürü kimi tarixə yazılıb.

### Tarix olduğu kimi

XIX əsrin ikinci yarısından başlayaraq, Türkiyədə saysız insanı qətl edən erməni quldurları, Bakıda, Şuşada, İrəvan və Naxçıvan mahallarında, Qarabağda, Borçalıda, Qazaxda, Zəngəzurda, Gəncədə, Qubada, Tiflisdə və başqa yerlərdə on minlərlə Azərbaycan türkünü soyqırımına məruz qoyublar. Bu amansız siyasət nəticəsində 1905-1907-ci illərdə, 1918-1920-ci illərdə, 1948-1953-cü illərdə və 1988-1994-cü illərdə Azərbaycan xalqının başına olmazın müsibətlər gətirilərək ard-arda soyqırımı cinayətləri törədiblər.

Xarici İşlər Nazirliyinin 31 Mart - Azərbaycanlıların Soyqırımı Günü ilə bağlı Bəyanatında məlumat verilir ki, 1918-ci ilin martında Bakı Sovetinin 6000 və "Daşnaksütyun" partiyasının 4000 silahlı üzvü tərəfindən həyata keçirilmiş soyqırımı etnik təmizləmə siyasətinin ən qəddar nümunələrindən biri kimi tarixə həkk olunub.

Həmin dövrdə Qafqazın Fövqəladə Komissarı Stepan Şaumyanın etirafları da sübut edir ki, bu qırğınlar "əks-inqilabçılıqla mübarizə" pərdəsi altında məhz milli nifrət zəminində törədilib.

Bakı, Şamaxı, Quba, Qarabağ, Zəngəzur, Naxçıvan, Şirvan və İrəvan kimi ərazilərdə planlı şəkildə həyata keçirilmiş bu cinayətlər nəticəsində on minlərlə azərbaycanlı qətlə yetirilib. Təkcə Qubada 16 mindən çox insan öldürülüb, 167 kənd yerlə yeksan edilib. Dinc əhali ilə yanaşı, xalqımızın dini və mədəni irsi hədəf alınıb, məscidlər və tarixi abidələr dağıdılıb. Xarici İşlər Nazirliyinin Bəyanatında deyilir: "Azərbaycan Xalq Cümhuriyyətinin əsasının qoyulmasından sonra hadisələrin tədqiqinə, habelə dünya ictimaiyyətinə çatdırılması məqsədilə xüsusi təsisatların yaradılmasına, 31 mart tarixinin ümummilli matəm günü kimi qeyd edilməsinə baxmayaraq, cümhuriyyətin süqutu bu cinayətə siyasi-hüquqi qiymətin verilməsinə mane olub".

### İlk siyasi-hüquqi qiymət

Bu cinayətlərin unudulmaması və dünya ictimaiyyətinə çatdırılması dövlətimizin prioritet siyasətinə çevrilib. Ulu Öndər Heydər Əliyevin 1998-ci ildə imzaladığı tarixi fərmanla 31 martın "Azərbaycanlıların Soyqırımı Günü" kimi qeyd edilməsi, bu qanlı hadisələrə ilk rəsmi siyasi qiymətin verilməsi oldu.

Ulu Öndər 31 Mart Azərbaycanlıların Soyqırımı Günü ilə əlaqədar deyib: "Xalqımıza qarşı törədilmiş soyqırımı haqqında həqiqətləri real faktlar, dəlillər əsasında dünya dövlətlərinə, nüfuzlu beynəlxalq təşkilatlara çatdırmaq, saxta erməni təbliğatı nəticəsində formalaşmış yalan təsəvvürləri dəyişdirmək, ona hüquqi-siyasi qiymət verdirmək nə qədər çətin olsa da, şərəfli və müqəddəs bir iş kimi bu gün də, gələcəkdə də davam etdirilməlidir. Bu, soyqırımı qurbanlarının xatirəsi qarşısında indiki nəslin müqəddəs borcudur".

Quba Soyqırımı Memorial Kompleksinin yaradılması da böyük əhəmiyyətə malikdir. 2013-cü il sentyabrın 18-də Prezident İlham Əliyevin iştirakı ilə kompleksin açılışı həyata keçirilib. "...Burada nümayiş etdirilən eksponatlar bizim tariximizi göstərir. Eyni zamanda memorial kompleksdə yaradılmış ekspozisiya çox böyük məna daşıyır. Kompleksin girişində Quba qəzasının dinc vaxtları öz əksini tapır. Ailələr, vətəndaşlar dinc həyat sürürlər. Ondan sonra qanlı günlər, dinc əhaliyə qarşı törədilən vəhşilik əks olunur. Ekspozisiyanın sonunda hesab edirəm ki, çox düzgün tərtibat nəticəsində insanlar buradan nikbin əhvali-ruhiyyə ilə ayrılır. Çünki Bakının erməni quldur dəstələrindən azad edilməsi elə bil ki, ekspozisiyanın son nöqtəsidir", - deyə kompleksin açılışında çıxışı zamanı cənab İlham Əliyev bildirib.

Dövlət başçısı əlavə edib ki, burada həlak olmuş insanlar müxtəlif dinlərin, müxtəlif millətlərin nümayəndələridir: "Onların ermənilər üçün bir günahı var idi ki, onlar erməni millətindən deyildilər".

Quba soyqırımı məzarlığı 2007-ci il aprelin 1-də ərazidə torpaq işləri görülərkən aşkar edilib. Tədqiqat nəticəsində məzarlığın 1918-ci ildə ermənilərin yerli dinc əhaliyə qarşı törətdiyi soyqırımı ilə bağlı olduğu müəyyən edilib. Tədqiqat işlərinin nəticəsi olaraq məzarlıqda müxtəlif yaş qruplarına aid 400-dən çox insan cəsədinin qalıqları aşkar edilib. Onlardan 50-dən çoxu uşaqlara, 100-dən çoxu qadınlara, qalanları isə əsasən yaşlı kişilərə aiddir.

### Əsrlərin intiqamını alan məğrur xalq

Azərbaycan xalqı heç zaman qan yaddaşını unutmadı, şəhid məzarlarında içdiyi qisas andını yadından çıxarmadı. 44 günlük Vətən müharibəsində qazanılan zəfərlə tarixi ədalət bərpa olundu. Xalqımızın qanına susayan canilərin bu gün Bakıda ədalət qarşısında layiqli cəzalarını almaları şəhid ruhlarının ən böyük təsəllisidir.

Erməni faşizminin başlatdığı soyqırımı siyasəti on minlərlə azərbaycanlının taleyini məhv etsə də, xalqımızın azadlıq iradəsini qıra bilmədi və həmin cinayətlərin qisası döyüş meydanında layiqincə alındı.

Bəli, biz bu gün əsrlərin intiqamını alan, başıuca və məğrur xalq kimi yaşayırıq.

Qisasımız qiyamətə qalmadı!

***Yasəmən MUSAYEVA, "Azərbaycan"***

# Quba Soyqırımı Memorial Kompleksində anım tədbiri keçirilib





31 mart azərbaycanlılara qarşı törədilmiş soyqırımların 108-ci ildönümü ilə bağlı Soyqırımı Memorial Kompleksində anım tədbiri-kütləvi ziyarət keçirilib.

Qeyd edək ki, 2007-ci ildə Quba şəhərində tikinti üçün aparılan qazıntılar zamanı təsadüfən aşkar edilmiş kütləvi məzarlıq 1918-ci ilin may ayında bolşevik adı altında quldur erməni dəstələri tərəfindən törədilmiş Qubanın müsəlman əhalisinin soyqırımının əyani sübutu olmusdur. Bu həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycan xalqının gələcək nəsillərinin milli yaddaşının qorunması və soyqırımı qurbanlarının xatirəsinin əbədiləşdirilməsi məqsədilə Azərbaycan Prezidenti İlham Əliyevin 30 dekabr 2009-cu il tarixli sərancamı ilə Quba şəhərində Soyqırımı Memorial Kompleksinin yaradılmasına qərar verilmişdir. Memorial Kompleks 2012-2013-cü illərdə Heydər Əliyev Fondunun dəstəyi ilə Qudyalçayın sol sahilində, keçmiş stadion ərazisində inşa edilmiş və 2013-cü il sentyabrın 18-də açılmışdır.

Dünən səhərdən başlayaraq, rayon təşkilatlarının nümayəndələri cərgə ilə kompleksi ziyarət etməyə başladılar. Məktəblilərdən ibarət könüllülər ziyarətə gələnlərin hərəkət rejiminin düzgün aparılmasında kompleks əməkdaşlarına yaxından kömək edirdilər. Qonaqlara rus, ingilis və alman dillərində məlumat verilirdi.

Anım tədbirində Milli Məclisin deputatları, rayon rəhbərliyi, Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin nümayəndəsi, Yeni Azərbaycan Partiyasının bir neçə rayon təşkilatının rəhbərləri, hüquq-mühafizə orqanlarının əməkdaşları, ictimaiyyət və media nümayəndələri iştirak edirdilər.

***Akif ƏLİYEV, "Azərbaycan"***

# Belçika Baş nazirinin müavini İran ərazisindən Naxçıvana dron hücumu ilə əlaqədar ölkəmizlə həmrəy olduğunu bildirib

Martın 31-də Belçikanın Baş nazirinin müavini, xarici işlər, Avropa işləri və inkişaf sahəsində əməkdaşlıq naziri Maksim Prevo Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramova zəng vurub.





AZƏRTAC xəbər verir ki, bu barədə Xarici İşlər Nazirliyi məlumat yayıb.

Telefon danışığı zamanı Yaxın Şərqdə cari təhlükəsizlik vəziyyəti, Azərbaycan və Belçika arasında ikitərəfli münasibətlər, habelə Avropa İttifaqı çərçivəsində əməkdaşlıq perspektivləri müzakirə olunub.

Nazirlər Yaxın Şərqdə mövcud hərbi eskalasiyadan dərin narahatlıqlarını ifadə edib, münaqişənin diplomatik yolla həllinin vacibliyini vurğulayıblar. Belçika naziri bununla yanaşı, İran ərazisindən Naxçıvan istiqamətinə dron hücumu ilə əlaqədar ölkəmizlə həmrəyliyini ifadə edib. Eyni zamanda Belçika vətəndaşlarının İrandan təxliyəsinin təmin olunmasına yaradılmış şəraitə görə ölkəmizə təşəkkür bildirilib. Nazirlər, o cümlədən Azərbaycan və Ermənistan arasında normallaşma prosesi ətrafında fikir mübadiləsi aparıblar. Nazir Ceyhun Bayramov qarşı tərəfi bölgədə davamlı sülh və sabitliyin təmin edilməsi istiqamətində görülən tədbirlər barədə məlumatlandırıb.

Tərəflər Azərbaycanla Belçika arasında qarşılıqlı maraq doğuran məsələlər üzrə əməkdaşlığın daha da inkişaf etdirilməsi üçün konstruktiv dialoqun və siyasi məsləhətləşmələr kimi mövcud mexanizmlərin, qarşılıqlı səfərlərin və yüksəksəviyyəli təmasların əhəmiyyətini vurğulayıblar.

# Növbəti "Xarıbülbül" Musiqi Festivalına hazırlıqlar başlayıb

Heydər Əliyev Fondu və Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə mayın 14-15-də Şuşada "Xarıbülbül" IX Beynəlxalq Musiqi Festivalı keçiriləcək.

AZƏRTAC xəbər verir ki, builki festival da maraqlı proqram və dünyanın müxtəlif ölkələrindən istedadlı incəsənət xadimlərinin təqdimatları ilə yadda qalacaq. Festivalın əsas məqsədlərindən biri mədəni dialoqun inkişafına töhfə vermək və musiqiçilər arasında yaradıcılıq mübadiləsini təşviq etməkdir. Məhz bu səbəbdən zəngin mədəniyyət hadisəsi olan "Xarıbülbül" Beynəlxalq Musiqi Festivalına Azərbaycan ifaçıları və musiqi kollektivləri ilə yanaşı, ABŞ, Qazaxıstan, Özbəkistan, Türkmənistan, Yaponiya və digər ölkələrdən incəsənət nümayəndələri dəvət alıb.

Festivala mayın 14-də Cıdır düzündəki konsertlə start veriləcək. Tədbir iki gün ərzində Şuşanın bir sıra məkanlarını əhatə edəcək. Şuşanın rəmzi olan gülün adını daşıyan "Xarıbülbül" Musiqi Festivalı 1989-cu ildən keçirilir. Festival həmin il may ayında məşhur xanəndə, pedaqoq, Xalq artisti Seyid Şuşinskinin 100 illik yubileyi ilə əlaqədar Ağdam rayonunun Abdal Gülablı kəndində başlayıb, Şuşada davam edib və Ağdamda yekun konsertlə başa çatmışdı. 1990-cı ildən isə "Xarıbülbül" festivalı beynəlxalq status alıb. Qarabağ münaqişəsi dövründə əsas konsertlər Ağdamda təşkil edilib. Festivalın bir sıra konsertləri Bərdə və Ağcabədidə də keçirilib. Vətən müharibəsindəki tarixi Zəfərimizlə torpaqlarımız işğaldan azad olunduqdan sonra festival yenidən Şuşaya qayıdıb. Festivalın bəzi konsertləri Laçın şəhərində də olub.

Dünyanın bir çox ölkələrindən çoxsaylı musiqiçinin iştirak etdiyi bu dostluq və musiqi bayramı mədəni irsimizin zəngin ənənələrinin qorunub saxlanılması ilə yanaşı, mədəniyyətlərarası dialoqun möhkəmləndirilməsinə də öz töhfəsini verir.

# Çinin rəsmi Sinxua agentliyi Gəncə şəhəri barədə oçerk dərc edib

Çinin rəsmi Sinxua agentliyi Gəncə şəhəri barədə oçerk dərc edib.



AZƏRTAC xəbər verir ki, jurnalistlər Liu Şuçenin müəllifi olduğu "Qədim mənbələrdən yeni marşrutlara - Çin Azərbaycanın ikinci ən böyük şəhəri ilə əlaqələrini necə gücləndirir" sərlövhəli materialda qeyd olunur: "Azərbaycanın ikinci ən böyük şəhəri olan Gəncədə yol kənarındakı çayxanada çay süfrəsi ətrafındakı rahat söhbətlərindən fasilə verən yerli sakinlər Sinxua müxbirlərini səmimi təbəssümlərlə qarşılayırlar. Gəncə paytaxt Bakıdan 300 kilometr qərbdə yerləşir. Şəhər böyük bir adın kölgəsində yaşayır: XII əsrdə burada şair Nizami Gəncəvi anadan olub. Bir çox sakin üçün Çinlə ilk tanışlıq xəbərlərlə deyil, səkkiz əsrdən çoxdur ki, şəhərin tarixi yaddaşına həkk olunmuş Nizaminin poetik obrazları ilə başlayır".

Şairin məqbərəsinin yaxınlığında Sinxua müxbiri şagirdləri ilə birlikdə orada ekskursiyada olan ibtidai sinif müəllimi Zinyət xanımla söhbət edib. O deyib: "Uşaqlarımız Nizaminin şeirlərini dördüncü sinifdən öyrənməyə başlayırlar".

Yerli bələdçi Almaz xanım müxbirlə söhbətində qeyd edib ki, Nizami Gəncəvi məqbərəsi təkcə azərbaycanlıları deyil, həm də xarici qonaqları cəlb edir. O, 2012-ci ildə Pekində Nizaminin abidəsinin qoyulduğunu və Çinli məktəblilərin şairin şeirlərini Çin dilində oxuduğunu öyrənəndə sevincini gizlədə bilməyib.

Oçerkdə bildirilir ki, XII və XIII əsrlərdə Gəncə qədim İpək Yolunun əsas mərkəzi olub. Tarixçilər Nizaminin əsərlərində yer alan Çin şahzadəsinin obrazının karvanların gətirdiyi Şərq nağıllarından ilhamlandığına inanırlar. Materialda daha sonra qeyd olunub: "Bu gün şəhər yenidən "Bir kəmər, bir yol" təşəbbüsünün bir hissəsi olaraq Çin və Azərbaycan arasında əməkdaşlıq üçün əhəmiyyətli bir mərkəzə çevrilir. Orta Dəhliz kimi də tanınan Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutunun dəmir yolu xətti də oradan keçir. Orta Dəhlizin ardınca müasir Çin avtomobil sənayesi də Gəncəyə gəlib. "Yutong Bus Co., Ltd"nin avtobusları şəhərin ictimai nəqliyyat sisteminin əsasını təşkil edir, onlar şəhər parkının təxminən 84 faizini təşkil edir və təxminən 20 xəttə xidmət göstərir. 2025-ci ilin sentyabr ayında şəhərə 235 yeni EURO-6 avtobusu gətirilib".

"Bu nəqliyyat vasitələri Ələt limanından Gəncəyə bərə ilə çatdırılıb", -deyə şirkətin Azərbaycandakı meneceri Han Ventao bildirib. O, əlavə edib ki, hazırda Gəncədə 280 ədəd "Yutong" avtobusu fəaliyyət göstərir və şirkət Azərbaycan bazarındakı iştirakını daha da genişləndirməyi planlaşdırır.

Sinxua AZƏRTAC-ın müxbirinə istinadla yazıb ki, Çinin Gəncədəki iştirakı artıq nəqliyyatla məhdudlaşmır. 2026-cı ilin yanvar ayında açılan Qərb Sənaye Parkı bir neçə Çin şirkətinin marağını cəlb edib.

Oçerkin sonunda qeyd edilir: "Əməkdaşlığın dinamikası xidmət sektoruna və kənd təsərrüfatına da şamil olunur: aprelin əvvəlinə qədər şəhərdə ənənəvi Çin təbabəti klinikası və MINISO mağazasının açılması planlaşdırılır və Azərbaycan Dövlət Aqrar Universiteti 2027-ci ilə qədər Çinin göbələk becərilməsi texnologiyasını tətbiq etmək niyyətindədir.

# Myanmada xunta lideri prezidentliyə namizəddir

Myanmaya faktiki rəhbərlik edən hərbi xuntanın başçısı Min Aunq Hlainq prezidentliyə namizəd kimi irəli sürülüb. Bu məqsədlə o, 2011-ci ildən bəri tutduğu Ali Baş Komandan vəzifəsindən istefa verib.



Myanma parlamentinin aşağı palatası ölkəyə faktiki başçılıq edən hərbi xuntanın rəhbəri Min Aunq Hlainqi üç vitse-prezidentdən biri kimi namizəd göstərib. AFP-nin yerli mediaya istinadən verdiyi məlumata görə, Myanma qanunvericiliyinə əsasən, növbəti prezident bu namizədlər arasından seçiləcək.

Prezident seçilmək imkanı qazanmaq üçün 69 yaşlı Min Aunq Hlainq 2011-ci ilin mart ayından bəri tutduğu Ali Baş Komandan vəzifəsindən istefa verib. Siyasi ekspert Nainq Min Xantın sözlərinə görə, Myanma hakimiyyətinin hərəkətləri göstərir ki, 2021-ci ildə çevrilişi həyata keçirən xunta başçısı "legitimlik görüntüsünü qoruyub saxlayaraq ölkəni dəmir yumruqla idarə etməyə davam etmək" niyyətindədir.

Eyni zamanda BBC-nin qeyd etdiyi kimi, Min Aunq Hlainq baş komandan vəzifəsindən ayrılmaqla hakimiyyətini təhlükəyə atıb. O, bu vəzifəyə özünün sadiq tərəfdarı, keçmiş kəşfiyyat rəisi Ye Vin Oonu təyin edib. Lakin bəzi yüksəkrütbəli ordu komandirlərinin ölkə rəhbərliyindən narazı olduğu bildirilir. Onlardan gələn potensial təhlükənin qarşısını almaq üçün Min Aunq Hlainq ordu da daxil olmaqla, hər bir sahəyə nəzarəti saxlamağa imkan verən Məsləhət Şurası yaradıb.

Xatırladaq ki, 2021-ci ilin fevral ayında Myanmada hərbi çevriliş baş verib. Dövlət müşaviri Aunq San Suu Çi və prezident Vin Myint də daxil olmaqla ölkə liderləri həbs edilib. Hakimiyyət Ali Baş Komandan Min Aunq Hlainqə və hərbçilərə keçib.

Generallar 2020-ci ildə Nobel Sülh Mükafatı laureatı Aunq San Suu Çinin Milli Demokratiya Liqası partiyasının qələbəsi ilə nəticələnən seçkilərdə qanun pozuntularının baş verdiyini iddia ediblər və bununla çevrilişə bəraət qazandırmaq istəyiblətr. Lakin hərbçilər bu qanun pozuntularına dair heç bir dəlil təqdim etməyiblər. Aunq San Suu Çi müxtəlif ittihamlarla təqsirli bilinərək həbs edilib. 2024-cü ilin aprelində o, ev dustaqlığına buraxılıb.

Ötən ilin iyul ayında fövqəladə vəziyyət rəsmi olaraq başa çatıb. Lakin ordu faktiki olaraq ölkəyə nəzarəti davam etdirir. 2025-ci ilin dekabr - 2026-cı ilin yanvar aylarında ölkədə çevrilişdən bəri ilk parlament seçkiləri keçirilib və nəticədə hər iki palatadakı yerlərin əksəriyyətini xuntaya yaxın olan "Həmrəylik və İttifaqın İnkişafı" Partiyasının (USDP) üzvləri, eləcə də hərbçilər əldə ediblər.

***Rizvan CƏFƏROV, "Azərbaycan"***

RƏSMİ DÖVLƏT QƏZETİ

AZƏRBAYCAN

1 aprel 2026-cı il

# Gələcəyə hesablanmış enerji strategiyasının tərkib hissəsi

## Azərbaycan MDB məkanının ən böyük Batareya Enerji Saxlanc Mərkəzi istifadəyə verildi

Qədim zamanlardan neft-qaz ölkəsi kimi tanınan, son onilliklər ərzində karbohidrogenlərin sabit təchizatçısı kimi dünyada nüfuz qazanan Azərbaycan bu gün "yaşıl enerji" layihələri ilə də qiqqət mərkəzindədir. 2027-ci ilədək ölkəmizdə ümumi gücü iki qiqavatdan çox olan "yaşıl enerji" layihələrinin reallaşdırılması nəzərdə tutulur. Bu enerji mənbələrinin texniki potensialının böyük olması gələcək üçün daha geniş perspektivlər açır.



Azərbaycan quruda 135 QVt, dənizdə 157 QVt "yaşıl enerji" potensialına malikdir. Hədəf bu imkandan istifadə edərək enerjini təkcə istehsal etmək deyil, həm də onu ixraca yönəltməkdir. Məlum olduğu kimi, 2022-ci il dekabrın 17-də Buxarestdə "Azərbaycan Respublikası, Gürcüstan, Rumıniya və Macarıstan hökumətləri arasında "yaşıl enerji"nin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Saziş" imzalanmışdır. Buna əsasən, Qara dənizin dibi ilə "yaşıl enerji" kabeli çəkiləcək.

"Xəzər-Qara dəniz-Avropa Yaşıl Enerji Dəhlizi" adlanan bu layihədə Mərkəzi Asiya respublikaları da iştirak edir. 2024-cü il noyabrın 13-də Bakıda COP29 çərçivəsində Azərbaycan, Qazaxıstan və Özbəkistan prezidentləri "Azərbaycan Respublikası, Qazaxıstan Respublikası və Özbəkistan Respublikası hökumətləri arasında "yaşıl enerji"nin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Saziş" imzalamışlar. Həmin sənədə əsasən, Xəzər dənizinin dibi ilə elektrik kabelinin çəkilməsi nəzərdə tutulur. Bu xətt Mərkəzi Asiyada istehsal olunan "yaşıl enerji"ni Azərbaycanın infrastrukturuna birləşdirəcək.

Deməli, Azərbaycan "yaşıl enerji"nin tranzitini də həyata keçirəcək. Bunun üçün isə enerji saxlanc mərkəzləri kimi bir infrastrukturun yaradılması zərurəti gündəmə gəlir. Bir həftə əvvəl belə mərkəzlərdən birinin - "AzərEnerji" ASC-nin "Abşeron" Batareya Enerji Saxlanc Mərkəzinin açılışı oldu. Tədbirdə Prezident İlham Əliyevin iştirak etməsi hadisənin önəminə bir daha diqqət çəkir.

Ümumiyyətlə, batareya enerji saxlancı nə deməkdir? Batareya enerji saxlama sistemi (BESS) elektrik enerjisini kimyəvi enerji şəklində saxlaya bilən və lazım olduqda buraxa bilən bir cihazdır. BESS enerji sisteminə bərpaolunan enerji inteqrasiyasını artırmaq, enerjinin keyfiyyətini və etibarlılığını artırmaq, pik tələbatı və istixana qazı emissiyalarını azaltmaq kimi müxtəlif üstünlüklərə malikdir və xidmətlər təqdim edə bilər.

Batareya Enerji Saxlanc Mərkəzləri gələcəyə hesablanmış enerji strategiyasının tərkib hissəsidir. Prezident İlham Əliyevin tapşırığına əsasən, "AzərEnerji" ASC tərəfindən daxili maliyyə vəsaiti hesabına iki əsas yarımstansiyada - 500 kV-luq "Abşeron" və 220 kV-luq "Ağdaş" yarımstansiyalarının ərazilərində böyük enerji saxlanc mərkəzləri yaradılıb. Onların ümumi gücü 250 MVt, enerji tutumu isə 500 MVt/saatdır. Bu miqyasda mərkəzlərin qurulması təkcə ölkəmizdə deyil, ümumilikdə MDB məkanında birinci dəfədir .

Onu da qeyd edək ki, beynəlxalq məsləhətçi şirkətlərin - ABŞ-nin TETRA Tech və Türkiyənin EPRA şirkətlərinin apardıqları araşdırma Azərbaycanda təxminən 1850 MVt gücündə bərpaolunan enerji mənbələrinin təhlükəsiz şəkildə enerji sisteminə qoşulması üçün bu cür batareya sistemlərinin yaradılmasının zəruri olduğunu göstərib.

"Abşeron" Batareya Enerji Saxlanc Mərkəzi haqqında aydın təsəvvür yaratmaq üçün deyək ki, onun ərazisində 50 akkumulyator batareya və 13 invertor konteyneri quraşdırılıb. Bu mərkəz çevikliyi ilə seçilir. Belə ki, iki saat ərzində tam doldurula və ya boşaldıla bilər. Artıq enerji, o cümlədən günəşli saatlarda istehsal olunan enerji burada toplanır və pik saatlarda - enerjiyə tələbat artan zaman avtomatik olaraq şəbəkəyə verilir. Qısaca desək, bu sistemlər enerjini yığıb saxlayır, lazım gəldikdə isə onu istifadəyə yönəldir.

Belə bir mərkəzin tətbiqi enerji şəbəkəsinə bir sıra üstünlüklər verir. Məsələn, SCADA sistemi ilə enerji sisteminə real vaxt rejimində nəzarət olunur, şəbəkədə sabitlik, o cümlədən tezlik və gərginlik qorunur, qəfil enerji çatışmazlıqları avtomatik tənzimlənir, qəzaların təsiri azalır və sistem daha etibarlı olur. Bundan əlavə, pik saatlarda elektrikə tələbat daha rahat qarşılanır. Günəş və külək enerjisindəki fasilələrin təsiri azalır. Enerji sisteminin sıfırdan bərpası mümkün olur. Eyni zamanda günəş batan saatlarda yük dəyişiklikləri daha rahat idarə edilir.

Batareya Enerji Saxlanc Mərkəzinin yaradılması sayəsində ölkəmizin enerji sistemi daha müasir, çevik və dayanıqlı olacaq. Günəş və külək enerjisinin artdığı bir dövrdə bu cür saxlanc sistemlərinin əhəmiyyəti də getdikcə artır. Yaxın gələcəkdə böyükhəcmli bərpaolunan enerji mənbələri enerjisistemə inteqrasiya ediləcək və 2028-ci ildə ümumilikdə 2100 MVt-dan çox "yaşıl enerji" artıq şəbəkədə olacaq.

Hazırda ölkəmizdə tikilən 2 GVt bərpaolunan enerji mənbələrinin enerjisistemə inteqrasiyasını dayanıqlı və təhlükəsiz şəkildə həyata keçirmək, Bakının, o cümlədən Ələt Azad İqtisadi Zonasının enerji təchizatında "yaşıl enerji"nin payını yüksəltmək, "Nəvahi Yaşıl Enerji" qovşağını əsas qovşaq yarımstansiyalarından birinə çevirmək üçün icra edilən "AZURE" layihəsi çərçivəsində işlərin əsas mərhələsi artıq başa çatıb.

Layihə çərçivəsində "Nəvahi" yarımstansiyasına "Abşeron" yarımstansiyasından 65 kilometr məsafədə 500 kV-luq, "Bankə" və "Biləsuvar" Günəş-Elektrik stansiyalarından isə ümumilikdə 181 kilometr məsafədə 330 kV-luq ötürmə xətləri çəkilib. Perspektivdə "Nəvahi" yarımstansiyasına Mingəçevirdən 235 kilometr 500 kV-luq, Qobu, Ələt və Qobustandan isə ümumilikdə 103 kilometr 330 kV-luq ötürmə xətlərinin çəkilişi nəzərdə tutulur.

*Flora SADIQLI,*
*"Azərbaycan"*

# Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının Novruz və Ramazanla bağlı bayram tədbirləri









Minilliklər boyu xalqımızın yaddaşında yaşayan, baharın gəlişini müjdələyən və hər evə sevinc, yenilənmə ruhu gətirən Novruz bayramı bu il də ölkəmizdə yüksək əhvali-ruhiyyə ilə qeyd edilib.

Bu münasibətlə Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası (AHİK) və üzv təşkilatlar tərəfindən respublikanın müxtəlif bölgələrində uşaqlar üçün bayram şənlikləri keçirilib, azyaşlılara unudulmaz anlar bəxş olunub.

Tədbirlərin məqsədi gələcəyimiz olan uşaqların asudə vaxtını səmərəli təşkil etməklə yanaşı, zəngin milli adət-ənənələrimizin və mənəvi dəyərlərimizin gənc nəslə aşılanması, onlarda Novruzun yaratdığı birlik və sevinc ruhunun yüksəldilməsidir.

Bayram proqramlarında şəhid övladlarının iştirakı xüsusi diqqətdə saxlanılıb. Eyni zamanda uşaq evlərində və internat məktəblərində təlim-tərbiyə alan, valideyn himayəsindən məhrum olan uşaqlarla görüşlər keçirilib, onlarla bayram sevinci bölüşülüb.

Novruzun sevilən personajları - Kosa, Keçəl və Bahar qızının maraqlı çıxışları, şən zarafatları və uşaqlarla birgə rəqsləri tədbirlərə fərqli ab-hava qataraq balacaların sevincini artırıb.

Bayram günlərində AHİK-in sağlamlıq və istirahət mərkəzlərində də Novruz şənlikləri təşkil olunub, tonqallar qalanıb, müxtəlif əyləncəli proqramlar təqdim edilib.

Tədbirlərdə çıxış edən AHİK nümayəndələri Azərbaycan Respublikası Prezidentinin rəhbərliyi ilə beynəlxalq müstəvidə Novruz bayramının tanıdılması istiqamətində həyata keçirilən tədbirlərdən, həmçinin ölkəmizdə uşaqların sağlam və firavan böyüməsi, Vətənə sədaqət ruhunda yetişməsi üçün yaradılan şəraitdən danışıblar. Eyni zamanda Birinci vitse-prezident Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun uşaqların rifahına yönəlmiş sosial-humanitar təşəbbüslərinin əhəmiyyəti vurğulanıb, mədəniyyət və incəsənətlə bağlı layihələrinin Azərbaycanın mənəvi, tarixi, mədəni irsinin qorunması işində əvəzolunmaz rolundan bəhs olunub.

Qeyd edək ki, bu il Novruz bayramının yenilənmə ruhu ilə Ramazan ayının mənəvi kamillik çağırışı eyni günlərə təsadüf edib. AHİK, qurumun üzv və tabe təşkilatları tərəfindən Ramazan ayı boyunca ittifaq üzvləri və şəhid ailələrinin iştirakı ilə iftar süfrələri təşkil olunub. İftar süfrələri ətrafında bir araya gələn həmkarlar ittifaqı üzvləri müqəddəs ayın mənəvi dəyərlərini bölüşərək ölkəmizə sülh, əmin-amanlıq və davamlı inkişaf arzulayıblar.

*Nərminə ƏSGƏROVA,*
*"Azərbaycan"*

# ADAU-da alternativ enerji mənbələri üzrə tədqiqatlar aparılır

21 oktyabr 2004-cü ildə Prezident İlham Əliyev tərəfindən təsdiq edilmiş "Azərbaycan respublikasında alternativ (bərpaolunan) enerji mənbələrindən istifadə üzrə Dövlət Proqramı"na uyğun olaraq, universitetimizdə su və günəş enerjisi ilə bərabər, digər alternativ enerji mənbələrindən, o cümlədən külək enerjisindən yararlanmaq üçün müxtəlif layihələr işlənib hazırlanır.

Öncə onu qeyd edək ki, ölkəmizin sərhəd rayonlarının elektrik enerji tələbatçıları əsas şəbəkələrdən uzaqda yerləşdirildiyindən və əksəriyyəti də birfazalı işlədicilər olduğu üçün həmin ərazinin elektrik şəbəkəsində enerji itkiləri çox, həmin hissənin elektrik təchizatında elektrik enerjisinin keyfiyyət göstəriciləri aşağı olur və o hissədə qeyri-simmetriklik yaranır. Bu hallar istər-istəməz ölkənin elektrik sisteminin işinə mənfi təsir göstərir. Belə vəziyyətin yaxşılaşdırılması və respublikanın elektrik sisteminin qoyuluş gücünü artırmaq üçün bərpaolunan enerji mənbələrindən kompleks istifadə edilməsi layihəsinin hazırlanması və icrası aktual problem kimi gündəliyə gəlir.

Qarşıya qoyulan məqsədə çatmaq üçün bu sətirlərin müəllifinin rəhbərliyi ilə ADAU-nun Energetika kafedrası layihə hazırlayıb. Layihənin əsas məqsədi daha çox bərpaolunan enerji mənbələrindən istifadə etməklə müstəqil və ya mövcud elektrik şəbəkəsi ilə paralel işləyəcək dayanıqlı, fasiləsiz və keyfiyyətli elektrik enerjisi hasil edən enerji mənbəyinin yaradılmasıdır. Məsələn, Gəncə-Daşkəsən zonasında küləyin orta illik sürəti saniyədə 3,5 metr olduğu üçün o zonada orta güclü külək elektrik qurğularından istifadə etməyin mümkünlüyü elmi əsaslarla sübut olunmuşdur. Lakin aparılan müşahidələr və ölçmələr nəticəsində həmin regionun digər ərazilərində küləyin daha böyük sürətə malik olduğu təsdiq edilmişdir. Aparılan elmi araşdırmalarla sübut olunmuşdur ki, külək qurğularının Daşkəsən rayonu ərazisindən keçən Qoşqar çayının sağ sahilindəki "Kobalt" qəsəbəsinin yerləşdiyi dağın zirvəsində quraşdırılması daha məqsədəuyğundur. Həmin dağ zirvəsində dəqiq ölçmələr apararaq ilin ayları üzrə küləyin orta sürətini təyin edib külək qurğusunun tipini və gücünü daha dəqiqliyi ilə seçmək mümkündür.

Layihədə Daşkəsən rayonu ərazisində - Qoşqar çayı üzərində tikilməsi nəzərdə tutulan su-elektrik stansiyasına yaxın digər dağ zirvəsində günəş panellərinin qurulması da nəzərdə tutulur. Dağ zirvəsində qurulacaq Günəş panellərinin gücləri daha böyük olacaq. Çünki panellər yüksəkliklərə qaldırıldıqca günəş şüasının intensivliyi yüksəlir. Nəticədə günəş panelinin çıxış gücü artır. Layihənin bu hissəsində tədqiqatların aparılması ilə günəş panellərinin tipini və sayını seçmək mümkün olacaq.

Layihənin icrası ilə yaradılacaq elektrik enerji mənbəyinin üstünlükləri odur ki, o heç bir yanacaq resursları tələb etmir, ətraf mühitə mənfi təsir göstərmir və iqtisadi cəhətdən sərfəlidir.

*Siyasət MƏMMƏDOV,*
*ADAU-nun Energetika kafedrasının dosenti*

**Şəhərsalma və Memarlıq İli**

# Qalaların kölgəsində, karvanların səsində: Gəncə, Şamaxı və Beyləqan

Orta əsr Azərbaycan şəhərləri həm yaşayış məskəni, həm də ticarət və mədəniyyət mərkəzi kimi inkişaf etmişdi. Bu baxımdan, Şamaxı, Gəncə və Beyləqan şəhərləri əsas ticarət yollarının kəsişməsində yerləşərək, iqtisadi və strateji əhəmiyyət qazanmışdı. Buralarda şəhərsalma prinsipləri ticarət yollarının tələbləri ilə sıx bağlı olmuş, şəhər qalaları və yaşayış zonalarının yerləşməsi həm müdafiə, həm də iqtisadi məqsədlər nəzərə alaraq qurulmuşdu. Karvansaralar isə şəhərlərin planlaşdırılmasında mühüm rol oynayaraq ticarətçilər və səyahət edənlər üçün mərkəzi dayanacaqlar kimi fomalaşmışdı.



Həmin dövrdə Azərbaycan şəhərlərinin planlaşdırılmasında ticarət yollarının rolu xüsusi əhəmiyyət daşıyırdı. Ticarət yolları şəhər küçələrinin və bazar sahələrinin yerləşməsini müəyyənləşdirir, karvanların hərəkətini asanlaşdırmaq üçün düz və geniş küçələrin salınmasına təsir edirdi. Məsələn, Şamaxıda bazar sahəsi əsas karvan yoluna yaxın yerləşirdi ki, bu da şəhərin iqtisadi inkişafını sürətləndirirdi. Bu gün də Şamaxının mərkəzi və bazar ərazilərində Orta əsr şəhərsalma prinsiplərinin izləri qalmaqdadır. Bəzi küçələr hələ də düz və geniş uzanaraq keçmişin şəhərsalma izlərini xatırladır, əsas yol kəsişmələri şəhərin tarixi ritmini yaşadır. Amma şəhərin böyük hissəsi yenilənib, bazar sahələri isə dükanlar, marketlər və ticarət mərkəzləri ilə canlandırılıb. Bununla da şəhərin ticarət həyatı yeni ritm və rəng qazanıb. Bununla belə şəhərin planı və yol şəbəkəsi ilə Orta əsr ticarət yollarının xəritəsi arasında oxşarlıqlar hələ də müşahidə edilir.

Eyni fikirləri Gəncə haqqında da söyləmək mümkündür. Gəncənin mərkəzi hissələrində və bazar sahələrində də Orta əsr şəhərsalma prinsiplərinin təsirləri aydın görünür. Şəhərin bəzi küçələri düz və geniş şəkildə qorunmuşdur, əsas yol kəsişmələri şəhərin tarixi xəritəsi ilə uyğun gəlir. Lakin şəhərin böyük hissəsi müasir tikililərlə yenilənib, bazar sahələri isə modern ticarət obyektlərinə çevrilib. Gəncədəki tarixi izlər kimi Beyləqanda da Orta əsr şəhərsalma prinsiplərinin təsirlərini müəyyən dərəcədə görmək mümkündür. Bəzi küçələr və yol kəsişmələri Orta əsrləri xatırladır, lakin şəhər geniş şəkildə yenilənib və müasir yaşayış sahələri ilə əvəz olunub.

Müdafiə məsələsi də Orta əsr şəhərsalmasının əsas tələblərindən idi. Şəhər qalaları strateji yüksəkliklərdə yerləşir, ətrafında yaşayış zonaları, emalatxanalar və məhəllələr uzanırdı. Qalalar ticarətçiləri və səyahətçiləri qorumaqla yanaşı, şəhərin müdafiəsini də təmin edirdi. Onların yaxınlığında yaşayan insanlar həm müdafiədə iştirak edir, həm də şəhərin ticarət və sənət fəaliyyətinə dəstək verirdilər. Bu ümumi müdafiə prinsipləri Gəncə şəhərində özünü aydın şəkildə göstərib. Gəncə çayının sol sahilində yerləşən Gəncə qalası həmin dövrün mühüm hərbi və memarlıq nümunələrindəndir. Qala Qafqaz hərb tarixinin ən mühüm istehkamlarından hesab olunur. XVI əsrdə Osmanlı - Səfəvi müharibələrinin qızğın dövründə sərkərdə Fərhad Paşa tərəfindən tikilən bu müdafiə qurğusu sadəcə hərbi-siyasi gücün simvolu kimi diqqət çəkmir. O, regionda memarlıq ənənələrinə yenilik gətirib. Səkkizbucaqlı poliqonal plana malik qala qısa müddətdə ucaldılıb. Bura 6-12 metr hündürlüyündə və təxminən iki metr qalınlığında kərpicdaş divarlarla əhatə olunub, bürclərarası məsafə o dövr üçün ideal atəş açmağa imkan verirdi. İnşaatda Arran memarlıq məktəbinə xas bişmiş qırmızı kərpic, çınqıllı gil məhlulu və bazalt bünövrə materiallarından istifadə edilib.

Şamaxıda da qala və ətraf yaşayış məhəllələri oxşar şəkildə təşkil olunub. Şəhər qalası strateji yüksəklikdə yerləşərək ticarət yollarını və bazar sahələrini qoruyub, yaxınlıqda yaşayan sakinlər isə müdafiə işlərində fəal iştirak ediblər. Bu, Şamaxının həm iqtisadi, həm də hərbi cəhətdən sabitliyini təmin edirdi. Beyləqanda isə qalaların və ətraf məhəllələrin rolu bir qədər fərqli olsa da, əsas məqsəd eyni idi: müdafiə ilə yanaşı, şəhərin ticarət və sənət fəaliyyətinə dəstək vermək. Karvansaraların və bazar sahələrinin qala yaxınlığında yerləşməsi ticarətçilərin təhlükəsizliyini təmin edir, eyni zamanda şəhərin iqtisadi həyatını canlandırırdı. Qeyd etdiyimiz bu qarşılıqlı əlaqə şəhərsalmanın strateji və iqtisadi aspektlərini birləşdirir, Orta əsr şəhərlərinin həm müdafiə, həm də ticarət funksiyalarını harmonik şəkildə həyata keçirməsinə imkan verirdi.

İndi də bu şəhərlərin şəhərsalmada oxşar və fərqli tərəflərini nəzərdən keçirək. Orta əsrlərdə Gəncə, Şamaxı və Beyləqanı əsasən ticarət yollarının kəsişməsi və strateji mövqeləri birləşdirirdi. Hər üç şəhər Qafqaz regionunda ticarət karvanları üçün mühüm dayanacaq olmuş, bazar və karvansaralar vasitəsilə iqtisadi həyatın mərkəzi kimi diqqət çəkirdi. Ümumi faktorlar sırasında şəhər qalaları, ətraf məhəllələr və karvansaraların şəhərsalma prinsiplərində rolu önəmli yer tuturdu. Fərqlər isə əsasən coğrafi mövqe və müdafiə strategiyası ilə bağlı idi. Gəncə şəhəri çayın sahilində yerləşdiyindən qala və inzibati quruluş daha çox strateji və hərbi yönümlü idi. Şamaxı ticarət mərkəzi kimi iqtisadi fəallığı ilə seçilirdi, Beyləqan isə karvan yolları boyunca kiçik ticarət və sənət mərkəzi kimi önəm daşıyırdı.

Göründüyü kimi, Orta əsr Azərbaycan şəhərləri olan Gəncə, Şamaxı və Beyləqan şəhərsalma prinsiplərinə görə, iqtisadi, müdafiə və mədəniyyət mərkəzi kimi strateji əhəmiyyət daşıyıb. Bu şəhərlərin inkişafında ticarət yolları, karvansaralar və şəhər qalaları bir-biri ilə sıx bağlı olub ki, bu da şəhərsalmanın bütün sahələrinə təsir göstərib.

*Züleyxa ƏLİYEVA,*
*"Azərbaycan"*

## Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi / Məşğulluğa Dəstək Layihəsi

### AZ-MLSPP-497385-CS-QCBS

### Müqavilə barədə bildiriş

**Satınalan təşkilat:** Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi
**Layihə:** Məşğulluğa Dəstək Layihəsi
**Müqavilənin adı:** ÖMP (Özünüməşğulluq proqramı) benefisiarları üçün müşahidə səfərlərinin və mentorluq xidmətlərinin göstərilməsi və həvəsləndirmə mükafatlarının, əməkhaqqı subsidiyasının və İYT (iş yerində təcrübə) xidmətlərinin təşkilində köməklik və şagirdlik fəaliyyətlərinə vasitəçilik üzrə Məsləhət Xidmətlərinin satın alınması
**Ölkə:** Azərbaycan
**Kredit №:** AZ-9712
**RFP №:** AZ-MLSPP-497385-CS-QCBS

Hazırkı bildiriş ÖMP (Özünüməşğulluq proqramı) benefisiarları üçün müşahidə səfərlərinin və mentorluq xidmətlərinin göstərilməsi və həvəsləndirmə mükafatlarının, əməkhaqqı subsidiyasının və İYT (iş yerində təcrübə) xidmətlərinin təşkilində köməklik və şagirdlik fəaliyyətlərinə vasitəçilik üzrə Məsləhət Xidmətlərinin satın alınması ilə bağlı keçirilmiş açıq tender prosesini, qiymətləndirmə nəticələrini və müqavilənin təltif edilməsi məlumatlarını əks etdirir.

Satınalan təşkilat maraq ifadələrinin təqdim edilməsi üçün 7-8 iyul 2025-ci il tarixlərində "Azərbaycan" qəzetində, "Azerweb" portalında və Dünya Bankının saytında elanlar yerləşdirilmişdir. Elan nəticəsində ümumilikdə 9 ölkədən (Azərbaycan, İspaniya, Almaniya, Litva, Türkiyə, Hindistan, Banqladeş, Ukrayna, ABŞ) maraq ifadələri qəbul olunmuşdur. Qısa siyahıya daxil edilmiş aşağıdakı məsləhət şirkətlərinə Təklif üçün Dəvət (RFP) göndərilmiş və təqdimetmə tarixi 25 noyabr 2025-ci il kimi müəyyən olunmuşdur:

- AIM Texas Trading MMC, BM-in aparıcı qurumu, EDUSER Education Consultancy and Expert Services Ltd. (Azərbaycan/Türkiyə)
- EPTISA Mühendislik Ltd. Şti, BM-in aparıcı qurumu, EPTISA Servicios de Ingenieria, S.L. (Türkiyə/İspaniya)
- Finance and Social Innovation Consulting MMC konsorsium Azerbaijan Micro-Finance Association (AMFA) (Azərbaycan)
- GURT Resource Centre, BM-in aparıcı qurumu, Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası - ASK, PARITET-M MMC, Sistem Global Danışmanlık A.Ş. - Sistem Global, Berlin Open Space Cooperative eG - Boscop (Ukrayna/Azərbaycan/Türkiyə/Almaniya)
- SEFT Consulting MMC (Azərbaycan)

Məsləhətçilərin seçimi Keyfiyyət və Qiymət Əsaslı Seçim (KQƏS/QCBS) metodu ilə aparılmışdır. Dəvət göndərilən şirkətlərdən biri "GURT Resource Centre, BM-in aparıcı qurumu, Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası - ASK, PARITET-M MMC, Sistem Global Danışmanlık A.Ş. - Sistem Global, Berlin Open Space Cooperative eG - Boscop" tərəfindən təqdim edilmiş təklif müəyyən edilmiş son tarixdən gec təqdim olunduğuna görə qəbul edilməmişdir.

Beləliklə, qısa siyahıya daxil edilmiş aşağıdakı 4 iddiaçı texniki təkliflərini müəyyən olunmuş zaman ərzində təqdim etmişdir və 25 noyabr 2025-ci il tarixində, yerli vaxtla saat 15:00-da açılmışdır. Texniki təkliflərin qiymətləndirilməsi nəticəsində məsləhətçilərə aşağıdakı texniki ballar verilmişdir:

- AIM Texas Trading MMC, BM-in aparıcı qurumu, EDUSER Education Consultancy and Expert Services Ltd. - 77.71 bal
- EPTISA Mühendislik Ltd. Şti, BM-in aparıcı qurumu, EPTISA Servicios de Ingenieria, S.L. - 72.41 bal
- Finance and Social Innovation Consulting MMC konsorsium Azerbaijan Micro-Finance Association (AMFA) - 70.46 bal
- SEFT Consulting LLC - 82.16 bal

İddiaçılar tərəfindən təqdim edilmiş qiymətlər aşağıdakı kimidir:

| No. | İddiaçı | Elan olunmuş təklif dəyəri | Qiymətləndirilmiş təklif dəyəri |
|---|---|---|---|
| 1 | AIM Texas Trading MMC, BM-in aparıcı qurumu, EDUSER Education Consultancy and Expert Services Ltd. (Azərbaycan/Türkiyə) | 3.689.220,00 ABŞ dolları | 3.689.220,00 ABŞ dolları |
| 2 | EPTISA Mühendislik Ltd. Şti, BM-in aparıcı qurumu, EPTISA Servicios de Ingenieria, S.L. (Türkiyə/İspaniya) | 39.445.535,00 ABŞ dolları | 39.445.535,00 ABŞ dolları |
| 3 | Finance and Social Innovation Consulting MMC konsorsium Azerbaijan Micro-Finance Association (AMFA) (Azərbaycan) | 9.559.701,00 ABŞ dolları | 9.559.701,00 ABŞ dolları |
| 4 | SEFT Consulting LLC (Azərbaycan) | 3.498.267.00 ABŞ dolları | 3.498.267.00 ABŞ dolları |

Satınalma Komissiyası maliyyə təkliflərini qiymətləndirmiş və SEFT Consulting MMC ilə müqavilənin imzalanmasını tövsiyə etmişdir. Uğursuz iddiaçılara tenderin nəticələri haqqında bildirişlər 27 fevral 2026-cı il tarixində göndərilmişdir. Gözləmə müddəti 02-16 mart 2026-cı il tarixləri arasında tətbiq edilmişdir. Bu vaxt ərzində Layihə İcra Qrupuna heç bir şikayət/aydınlaşdırma sorğusu daxil olmamışdır. Gözləmə müddəti bitdikdən sonra qalib gələn iddiaçıya müqavilə imzalanması barədə bildiriş göndərilmişdir. Keçirilmiş müsabiqə nəticəsində 19 mart 2026-cı il tarixində aşağıdakı müqavilə imzalanmışdır:

*SEFT Consulting LLC - Cəmi müqavilə dəyəri ƏDV daxil - 4.127.955,06 ABŞ dolları (dörd milyon yüz iyirmi yeddi min doqquz yüz əlli beş dollar və altı sent). Müqavilə müddəti: 19.03.2026 - 31.12.2029.*

## Ministry of Labor and Social Protection of Population / Employment Support Project

### AZ-MLSPP-497385-CS-QCBS

### AWARD NOTICE

**Purchaser:** Ministry of Labor and Social Protection of Population
**Project:** Employment Support Project
**Contract title:** Provision of follow-up visits and mentoring services for SEP beneficiaries, and assistance in organization of matching awards, wage subsidy and OJT services and intermediation of apprenticeship activities
**Country:** Azerbaijan
**Loan No.:** AZ-9712
**RFP No:** AZ-MLSPP-497385-CS-QCBS

This notice includes the RFB process conducted for the procurement of consulting services for the provision of follow-up visits and mentoring services for SEP beneficiaries, and assistance in organization of matching awards, wage subsidy and OJT services and intermediation of apprenticeship activities under the Employment Support Project (ESP), as well as the evaluation results and contract award information.

The Procuring Agency published the request for expressions of interest on July 7-8, 2025 in the "Azerbaijan" newspaper, on the "Azerweb" portal, and on the World Bank external website. As a result of the announcement, expressions of interest were received from a total of 9 countries (Azerbaijan, Spain, Germany, Lithuania, Türkiye, India, Bangladesh, Ukraine, and the USA). The Request for Proposals (RFP) was sent to the following consulting firms shortlisted, and the proposal submission deadline was set for November 25, 2025:

- AIM Texas Trading LLC, Leader of the JV, EDUSER Education Consultancy and Expert Services Ltd. (Azerbaijan/Türkiye)
- EPTISA Mühendislik Ltd. Şti, Leader of the JV, EPTISA Servicios de Ingenieria, S.L. (Türkiye/Spain)
- Finance and Social Innovation Consulting LLC in consortium with Azerbaijan Micro-Finance Association (AMFA) (Azerbaijan)
- GURT Resource Centre, Leader of the JV, National Confederation of Entrepreneurs (Employers) Organizations of the Republic of Azerbaijan - ASK, PARITET-M LLC, Sistem Global Danışmanlık A.Ş. - Sistem Global, Berlin Open Space Cooperative eG - Boscop (Ukraine/Azerbaijan/Türkiye/Germany)"
- SEFT Consulting LLC (Azerbaijan)

Selection of consultants was carried out using the Quality and Cost Based Selection (QCBS) method. One of the invited applicants, "GURT Resource Centre, Leader of the JV, National Confederation of Entrepreneurs (Employers) Organizations of the Republic of Azerbaijan - ASK, PARITET-M LLC, Sistem Global Danışmanlık A.Ş. - Sistem Global, Berlin Open Space Cooperative eG - Boscop", was not accepted as its proposal was submitted after the specified deadline.

Accordingly, the following four shortlisted applicants submitted their technical proposals within the specified time, and the proposals were opened on November 25, 2025 at 15:00 (local time). As a result of the evaluation of technical proposals, the following technical scores were awarded to the applicants:

- AIM Texas Trading LLC, Leader of the JV, EDUSER Education Consultancy and Expert Services Ltd. - 77.71 score
- EPTISA Mühendislik Ltd. Şti, Leader of the JV, EPTISA Servicios de Ingenieria, S.L. - 72.41 score
- Finance and Social Innovation Consulting LLC in consortium with Azerbaijan Micro-Finance Association (AMFA) - 70.46 score
- SEFT Consulting LLC - 82.16 score

The prices submitted by the applicants are as follows:

| No. | Name of Applicant | Proposal Price as Read Out | Evaluated Proposal Price |
|---|---|---|---|
| 1 | AIM Texas Trading LLC, Leader of the JV, EDUSER Education Consultancy and Expert Services Ltd. (Azerbaijan/Türkiye) | 3.689.220,00 USD | 3.689.220,00 USD |
| 2 | EPTISA Mühendislik Ltd. Şti, Leader of the JV, EPTISA Servicios de Ingenieria, S.L. (Türkiye/Spain) | 39.445.535,00 USD | 39.445.535,00 USD |
| 3 | Finance and Social Innovation Consulting LLC in consortium with Azerbaijan Micro-Finance Association (AMFA) (Azerbaijan) | 9.559.701,00 USD | 9.559.701,00 USD |
| 4 | SEFT Consulting LLC (Azerbaijan) | 3.498.267.00 USD | 3.498.267.00 USD |

The Evaluation Committee evaluated the financial proposals and recommended the contract award to SEFT Consulting LLC. Notices on the tender results were sent to the unsuccessful bidders on 27 February 2026. A standstill period was applied from March 02-16, 2026. During this period, the Project Implementation Unit did not receive any complaints or requests for clarification. After the standstill period ended, the successful applicant was notified to proceed with contract signing. As a result of the competition, the following contract was signed on March 19, 2026:

*SEFT Consulting LLC - Total contract price including VAT - USD 4.127.955,06 (four million one hundred twenty-seven thousand nine hundred fifty-five dollars and six cents). Contract duration - 19.03.2026 - 31.12.2029.*



# Bakı və İrəvan arasında sülh prosesi geri dönməz hal alır

## İki ölkə arasında yaradılan kommunikasiya əlaqələri barışın ən güclü zəmanətidir

Uzun müddət münaqişə və hərbi-siyasi qarşıdurma terminləri ilə ifadə olunan Azərbaycan-Ermənistan münasibətləri son aylarda fərqli müstəvidə irəliləyir. Ötən bir il ərzində sülh prosesində əldə olunan uğurlar, diplomatik təmaslar iqtisadi və humanitar sahələrdə əməkdaşlıq üçün yeni üfüqlər açıb. Xüsusən, 2025-ci ilin avqust ayında Vaşinqtonda keçirilən yüksəksəviyyəli görüşlərdən sonra tərəflər ticarət, nəqliyyat və enerji sektorlarındakı mövcud potensialı reallaşdırmaq məqsədilə praktiki addımlar atmağa başlayıblar.

İki ölkə arasında onilliklər boyu bağlı qalan nəqliyyat marşrutlarının bərpasına dair ilk real nümunə 2025-ci ilin oktyabrında qeydə alınıb. Oktyabrın 21-də Azərbaycan Prezidenti İlham Əliyev Qazaxıstan dövlət başçısı Kasım-Jomart Tokayevlə mətbuata birgə, Bəyanatında işğal dövründən bəri Ermənistana tətbiq edilən bütün yük tranziti məhdudiyyətlərinin rəsmən aradan qaldırıldığını elan edib. Bu qərar faktiki olaraq iki ölkə arasında yeni iqtisadi münasibətlərin təməlini qoyub. Həmin vaxtdan etibarən Azərbaycan üzərindən Ermənistana mal daşınması mütəmadi xarakter alıb.

Ermənistan rəsmi dairələri iqtisadi əməkdaşlığı regional əlaqələrin canlanması və qarşılıqlı inamın möhkəmlənməsi üçün həlledici amil kimi dəyərləndirirlər. Baş nazirin müavini Mqer Qriqoryan Qazaxıstanda Avrasiya İqtisadi Birliyinin Hökumətlərarası Şurasının iclasında bildirib ki, Azərbaycan ərazisindən Ermənistana tranzit məhdudiyyətlərinin aradan qaldırılması İrəvan üçün əhəmiyyətli bir hadisədir. Onun sözlərinə görə, bu, regionun bütün potensialının üzə çıxarılması üçün perspektivlər açır və qarşılıqlı ticarətin artmasına töhfə verir.

Statistik rəqəmlər də müsbət dinamikanı əks etdirir. 2026-cı ilin ilk rübü tranzitin intensivləşdiyini göstərir. Martın 25-də Azərbaycan ərazisindən tranzit keçməklə növbəti dəfə Ermənistana 350 ton buğda göndərilib. 19 mart tarixində Azərbaycandan keçməklə Rusiyadan Ermənistana ümumi çəkisi 488 ton olan taxıl yüklü 7 vaqon yola salınıb. Bundan əlavə, martın 11-də və 9-da ümumilikdə 18 taxıl vaqonu Azərbaycan ərazisindən keçməklə Ermənistana çatdırılıb. Taxılla yanaşı, gübrə və digər məhsullar da daşınır. Martın 24-də 271 ton gübrə və 68 kq qarabaşaq Ermənistana göndərilib. İndiyədək Azərbaycandan tranzit keçməklə 23 min tondan çox taxıl, həmçinin 700 tondan çox gübrə Rusiyadan Ermənistana daşınıb.

Azərbaycan sülh prosesində, sadəcə, tranzit qovşağı rolunu oynamır, həm də Ermənistana birbaşa enerji məhsullarının satışını həyata keçirir. 2025-ci il dekabrın 18-dən etibarən SOCAR tərəfindən Ermənistana neft məhsullarının ixracına start verilib və 1 220 ton Aİ-95 markalı avtomobil benzini göndərilib. Ardınca 2026-cı ilin yanvar, fevral və mart aylarında Ermənistana davamlı olaraq enerji məhsulları, benzin və dizel göndərilib. Cari ilin ilk iki ayında Azərbaycan Ermənistana 4 milyon 220,3 min ABŞ dolları dəyərində məhsul ixrac edib. Dövlət Gömrük Komitəsinin məlumatına görə, bu, Azərbaycanın ümumi ixracının 0,12 faizini təşkil edib. Hələlik əks istiqamətdə mal göndərişi qeydə alınmasa da, bu rəqəmlər uzunmüddətli iqtisadi sükutdan sonra kifayət qədər mühüm strateji və siyasi əhəmiyyət daşıyır. İrəvandan verilən rəsmi bəyanatlara görə, Ermənistan ixrac edə biləcəyi məhsulların siyahısını Azərbaycan şirkətlərinə təqdim edib. Bu ölkənin iqtisadiyyat naziri Gevorq Papoyan bildirib ki, İrəvan və Bakı Ermənistandan Azərbaycana alüminium folqa, alüminium folqa üçün xammal, ferromolibden, ev heyvanları, konyak üçün xammal, tütün və tekstil məhsullarının ixracı imkanlarını müzakirə edirlər: "Azərbaycan tərəfi onları maraqlandıran konkret məhsulların siyahısını təqdim edib, biz isə ixrac edə biləcəyimiz həcmləri göndərmişik. Bizim siyahıda qızılgül və istixana məhsulları, pomidor, bibər də var".

İqtisadi addımlar sülh prosesini geri dönməz mərhələyə daşıyır. Ermənistanın Baş naziri Nikol Paşinyanın son bəyanatları bu reallığı təsdiqləyir. Baş nazir 2024-cü ilin fevralından bəri sərhəddə ölüm və yaralanma halının qeydə alınmamasını sülhün ən böyük nailiyyəti hesab edir. Paşinyanın sözlərinə görə, əvvəlki dövrlər sülh yox, "müharibənin təxirə salınması" mərhələsi idi. Onun fikrincə, iki ölkə arasında sülh artıq de-yure əsasa malikdir. Paşinyan Ermənistan vətəndaşlarını əldə olunmuş sülhə sahib çıxmağa çağırıb. Baş nazirin açıqlamaları Ermənistan tərəfindəki konseptual dəyişikliyi göstərir. Sülhün alternativi müharibə, fəlakət və bütün regional əməkdaşlıqdan, iqtisadi dividendlərdən təcrid olunmuş Ermənistandır. Paşinyan erməniləri sülhə səsləməklə, toplumu revanşistlərin təhlükəli oyunlarına aldanmamağa, ölkəni yenidən bataqlığa sürükləməməyə çağırış edir.

Nəticə etibarilə, Azərbaycanın Ermənistan üçün tranzit marşrutlarını açması və birbaşa enerji ixracını həyata keçirməsi dayanıqlı sülhlə yanaşı, regionun təhlükəsizlik arxitekturasını da möhkəmləndirir. Bir vaxtların keçilməz sərhədlərindən indi taxıl vaqonlarının və enerji daşıyıcılarının keçməsi sülhün insanların gündəlik həyatına və rifahına toxunan real prosesə çevrildiyini sübut edir. İqtisadi asılılıq müharibə ritorikasını əməkdaşlıq dialoqu ilə əvəz edən ən güclü mexanizmdir. Bu, həmçinin Ermənistanı sülh yolunda daha konstruktiv addımlar atmağa da sövq edir. Əgər tərəflər, ələlxüsus İrəvan bu dinamikanı qoruyub saxlaya bilsə, Cənubi Qafqaz Avrasiyanın mühüm logistik və enerji qovşaqlarından birinə çevriləcək. Prosesdə Azərbaycanın nümayiş etdirdiyi həlledici və konstruktiv mövqe isə təkcə region üçün yox, beynəlxalq birlik üçün də təhlükəsizlik və sabitlik modeli formalaşdırmaqdadır.

*İsmayıl QOCAYEV,*
*"Azərbaycan"*

# Yazda sağlam qalmağın sirri

Bahar təbiətə yeni nəfəs gətirsə də, insan orqanizmi üçün bu dövr bəzən gözlənildiyi qədər asan keçmir. Qışın uzun sürən soyuq havasından sonra temperaturun dəyişməsi, gün işığının artması və həyat ritminin yenilənməsi bədən üçün bir növ sınaq mərhələsinə çevrilir.

Bəzi insanlar məhz bu aylarda daha çox yorulduğunu, tez-tez xəstələndiyini və enerjisinin azaldığını hiss edir. Bunun əsas səbəbi isə immun sisteminin mövsüm keçidinə uyğunlaşmaqda çətinlik çəkməsidir. Yaz mövsümündə virus və soyuqdəymə hallarının artması da məhz bununla əlaqələndirilir. Bu səbəbdən ilin bu dövründə sağlamlığın qorunması, xüsusilə də immunitetin gücləndirilməsi prioritet məsələyə çevrilir.

İmmun sistemi orqanizmin müdafiə mexanizmidir və onun düzgün işləməsi bir çox amildən asılıdır. Ən vacib faktor isə qidalanmadır. Qış aylarında bədən daha çox enerji sərf etdiyi üçün əsasən kalorili mənşəli qidalara üstünlük verilir. Lakin yazda vəziyyət dəyişir. Havanın isinməsi ilə orqanizm artıq istilik balansını qorumaq üçün əvvəlki qədər enerji sərf etmir. Bu isə qidalanma rejiminin yenidən tənzimlənməsini zəruri edir. Xüsusilə zülalların rolu burada ön plana çıxır. İmmunitet hüceyrələrinin əsas tərkib hissəsi zülal olduğundan gündəlik rasionda bu maddənin kifayət qədər olması vacibdir. Ət, balıq, yumurta və süd məhsulları bu baxımdan əvəzolunmazdır. Bununla yanaşı, yaz aylarında bitki mənşəli zülallara da yer vermək tövsiyə olunur.

Qidalanmanın yalnız zülallarla məhdudlaşmadığını qeyd etmək lazımdır. Orqanizmin güclü qalması üçün vitamin və mineralların da rolu danılmazdır. Xüsusilə mart və aprel aylarında tez-tez rast gəlinən vitamin çatışmazlığı bir çox narahatlığa səbəb olur. İnsan özünü halsız hiss edir, diqqəti azalır, dəri və saçlarda problemlər yaranır. "Avitaminoz" kimi tanınan bu vəziyyət əsasən qış boyu təzə meyvə-tərəvəzin az istifadəsi ilə əlaqədardır. Belə hallarda vitaminlə zəngin qidaların rasiona daxil edilməsi vacibdir. Bu baxımdan, ən çox diqqətçəkən maddələrdən biri C vitaminidir. O, immun sisteminin güclənməsində, dəri sağlamlığının qorunmasında və dəmirin mənimsənilməsində mühüm rol oynayır. Eyni zamanda güclü antioksidant kimi fəaliyyət göstərərək hüceyrələri zərərli təsirlərdən qoruyur. Maraqlıdır ki, bir çox insan C vitaminini yalnız portağalla əlaqələndirsə də, əslində, bu maddənin daha zəngin mənbələri mövcuddur. Məsələn, kivi, çiyələk və bolqar bibəri kimi məhsullar bu baxımdan daha üstün hesab edilir.

Kivi təkcə C vitamini ilə deyil, həm də digər faydalı maddələrlə zəngindir. Onun tərkibində fol turşusu, E və K vitaminləri də mövcuddur ki, bunlar orqanizmin ümumi fəaliyyətinə müsbət təsir göstərir. Lakin bu meyvədən maksimum fayda əldə etmək üçün onun təzəliyinə diqqət etmək lazımdır. Uzun müddət saxlanılan və uzaq məsafədən gətirilən meyvələr qida dəyərinin bir hissəsini itirə bilər.



Çiyələk isə yazın ən sevilən nemətlərindən biridir. Onun tərkibində olan antioksidantlar beyin fəaliyyətini dəstəkləyir və hüceyrələri zədələnmədən qoruyur. Meyvənin qırmızı rəngi onun nə qədər faydalı olduğunu göstərən əsas göstəricilərdən biridir. Rəng nə qədər parlaqdırsa, tərkibindəki faydalı maddələrin miqdarı da bir o qədər yüksək olur. Digər tərəfdən, bolqar bibəri də C vitamini baxımından olduqca zəngindir. Hətta az miqdarda qəbul edildikdə belə gündəlik ehtiyacın böyük hissəsini ödəyə bilir. Onun tərkibində olan beta-karoten isə orqanizmdə A vitamininə çevrilərək görmə və dəri sağlamlığına müsbət təsir göstərir.

Yaz mövsümündə istifadə edilən digər faydalı məhsullar sırasında müxtəlif göyərtilər də xüsusi yer tutur. Cəfəri, şüyüd, kahı kimi bitkilər vitamin və minerallarla zəngindir. Eyni zamanda yerkökü də karotinoidlərin əsas mənbələrindən biridir və bu maddələr orqanizmdə A vitamininə çevrilərək immun sistemini dəstəkləyir.

Qoz-fındıq və toxumlar da sağlam qidalanmanın ayrılmaz hissəsidir. Badam, qoz, püstə, kətan və çia toxumları omeqa-3 və omeqa-6 yağ turşuları ilə zəngindir. Bu maddələr orqanizmdə iltihabi proseslərin azalmasına kömək edir və ürək-damar sistemini qoruyur. Bundan əlavə, bu məhsulların tərkibində olan E vitamini hüceyrələri oksidləşdirici stresdən qoruyur.

İmmunitetin gücləndirilməsində bağırsaq sağlamlığının rolu da olduqca böyükdür. Bağırsaq mikroflorası milyardlarla faydalı bakteriyadan ibarətdir və bu bakteriyalar immun cavabın formalaşmasında mühüm rol oynayır. Faydalı və zərərli bakteriyalar arasındakı balans pozulduqda orqanizmdə iltihabi proseslər arta bilər. Bu isə immun sisteminin zəifləməsinə gətirib çıxarır. Ona görə də liflə zəngin qidaların qəbulu, tam taxıllı məhsullara üstünlük verilməsi və probiotiklərin istifadəsi tövsiyə olunur.

Həyat tərzi də immun sisteminə birbaşa təsir edir. Kifayət qədər yuxu, fiziki aktivlik və stresin idarə olunması sağlamlığın qorunmasında mühüm rol oynayır. Gündəlik ən azı 7-8 saat yatmaq, müntəzəm olaraq hərəkət etmək və psixoloji gərginliyi azaltmaq immuniteti gücləndirən əsas amillər sırasındadır.

Eyni zamanda bəzi vərdişlərdən uzaq durmaq da vacibdir. Həddindən artıq şəkərli və emal olunmuş qidalar immun sisteminə mənfi təsir göstərir. Bu cür məhsullar orqanizmdə iltihabı artıraraq müdafiə mexanizmlərini zəiflədir. Antibiotiklərin həkim məsləhəti olmadan istifadəsi də bağırsaq mikroflorasına zərər verərək immuniteti aşağı sala bilər.

Yaz aylarında tez-tez rast gəlinən problemlərdən biri də allergiyalardır. Bitkilərin çiçəklənməsi ilə əlaqədar havada polenlərin miqdarı artır və bu da bəzi insanlarda allergik reaksiyalara səbəb olur. Bu zaman immun sistemi daha çox yüklənir və əlavə dəstəyə ehtiyac duyur.

Bəzi hallarda vitamin və mineral çatışmazlığını qida ilə tam şəkildə kompensasiya etmək mümkün olmur. Bu zaman əlavə preparatlardan istifadə gündəmə gələ bilər. Lakin bu cür vasitələrin seçimi diqqətlə aparılmalıdır. Tərkibində yalnız bir vitamin deyil, bir neçə faydalı komponentin olduğu komplekslərə üstünlük vermək daha məqsədəuyğundur. Bununla belə, hər hansı əlavə qəbul etməzdən əvvəl mütəxəssislə məsləhətləşmək vacibdir.

*Ülkər XASPOLADOVA,*
*"Azərbaycan"*

# İş yoldaşımızın xatirəsi

**Bəzən ölüm, sadəcə, bir insanı bizdən almır. Bir səs susur, bir baxış donur, bir ömürlük xatirələr sükuta qərq olur. Elə bir sükut ki, nə söz onu doldura, nə də zaman sağalda bilir.**

Martın 27-si səhərini "Azərbaycan" qəzetinin şöbə redaktoru, Vətən müharibəsi iştirakçısı Rəşad Baxşəliyevin ölüm xəbəri ilə açdıq.

Rəşadın timsalında təkcə "Azərbaycan" qəzeti yox, bütünlükdə Azərbaycan mətbuatı Vətən sevgili ləyaqətli bir oğlunu itirdi. Bu itki təkcə bir jurnalistin yoxluğu deyildi, qələmi və silahı ilə Vətənə xidmət edən, torpağı igidliklə qoruyan 48 yaşlı bir insanın yoxluğu idi.

Rəşad Baxşəliyev artıq aramızda yoxdur… Amma onun adı kollektivimizin sırasında, izi Qarabağda, amalı yazılarında yaşayır.

Rəşad savaşdan sonra Qarabağa və Şərqi Zəngəzura dəfələrlə səfər etmişdi. İşğaldan azad olunmuş torpaqlarda aparılan abadlıq və quruculuq işlərindən reportajlar hazırlayırdı. Həmkarları ona "Vətən" deyirdi. Bu sözü çox sevirdi. Ona belə deyəndə qürurlanırdı. Çünki bu onun üçün, sadəcə, söz deyildi, ana südü qədər haqq etdiyi torpağın özü idi. O torpaq ki, bu gün qoynunda əbədi uyuyur.

Vətən müharibəsi başlayanda Rəşad könüllü olaraq qələmini silahla əvəzlədi. Torpaqlarımızın azad olunması uğrunda



gedən savaşda cəsur döyüşçülərdən biri oldu. Müharibədən söz düşəndə qürurla deyirdi: "Ehtiyatda olan zabit kimi illərlə gözlədiyim an gəlmişdi. Kənarda durub seyrçi qala bilməzdim. Əgər şəhid olsaydım, dövlətimin ailəmə sahib çıxacağını bilirdim. Çox şükür, torpaqlarımızı azad edib sağ-salamat evimə, ailəmin yanına, doğma kollektivə qayıtdım. İndi hər dəfə Qarabağa, Şərqi Zəngəzura gedəndə qürurlanıram ki, həmin ərazilərin azad olunmasında mənim də payım var".

Rəşadla birgə işğaldan azad olunmuş ərazilərə səfər edən həmkarı deyir ki, ilk dəfə Cəbrayıldan keçib Ağalı kəndinə gedəndə yumruğunu necə düyünləmişdisə, dırnaqları ovcunu qanatmışdı, başının tükləri biz-biz olmuşdu. "Qardaş, məni qorxutma" deyəndə titrək səslə cavab vermişdi: "Bu, ürəyimdən axan qandır. Burada elə oğullar itirmişik ki…" Sonra birdən susmuş, avtomobildən düşüb irəli qaçmış, dayanıb hönkürtü ilə ağlamışdı. "Burada mövqe tutmuşduq. Birdən mərmi düşdü. Döyüşçülərdən birini parça-parça etdi. Bu torpağın hər qarışı qanla suvarılıb. Biz bu torpaqları canımızla, qanımızla azad etmişik"- demişdi.

O an onun yaşadıqlarını, içində daşıdığı ağrını, Vətən sevgisinin ağırlığını bir özü bilirdi. Sanki müharibə onun içində heç vaxt bitməmişdi. Çünki ürəyi məcazi mənada müharibədə yaralanmışdı. Və bu ağrı ilə uzun yaşamağın mümkün olmadığını kollektivimiz hiss edirdi. Hiss edirdi ki, o, ağır xəstədir. Amma onu da görürdük ki, bütün təkidlərə baxmayaraq, sağlamlığına biganə idi. Fikirləşirdi ki, müharibənin cəngindən salamat çıxıbsa, xəstəlik ona nə edəcək ki...

Son dəfə telefonda danışanda da dedi ki, ağrıları azalıb. Sən demə, bizi arxayınlaşdırırmış. Səsi əvvəlki kimi olsa da, gerçək tamam başqaymış. Ermənini qanına qəltan etmək olar, ürəklə bacarmaq isə çətinmiş.

Doğmaları kimi, kollektivimiz üçün də Rəşadın yoxluğu ilə barışmaq çətindir. Amma təsəllimiz var. Özündən sonraya iki gözəl övlad, örnək bir Vətən sevgisi nümunəsi qoyub. Bir də bilirik ki, onun azad olunmuş torpaqlarda izi, Qarabağda, Şərqi Zəngəzurda boy atan fidanlarda nəfəsi var.

Allah rəhmət eləsin!

***"Azərbaycan"***


## OXUCULARIN VƏ MƏTBUAT YAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN"** *qəzetinə abunə yazılışı davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Azərmətbuatyayımı" ASC* | *(012) 441-19-91, (050) 322-33-17* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

**1 illik -156** (yüz əlli altı) **manat**
**6 aylıq - 78** (yetmiş səkkiz) **manat**
**3 aylıq - 39** (otuz doqquz) **manat**
**1 aylıq - 13** (on üç) **manat**


BAYRAMLARINIZ MÜBARƏK!
AZƏRBAYCAN
Ramazan ayı hər il xalqımızın birlik və bərabərliyini daha da gücləndirir
Bütöv Azərbaycanın Zəfər tonqalı
İlham Əliyevlə Şavkat Mirziyoyev arasında telefon danışığı olub
İlahi mərhəmət və mənəvi kamillik ayı təqvimi tərk etsə də, ruhumuzda qalır
Ardıcıl, sistemli və sürətli…
Qarabağ və Şərqi Zəngəzurun bərpası istiqamətində bütün işlər uğurla yerinə yetirilir

## Hörmətli oxucular!

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya **(Tel.: (012) 539-59-33)** zəng vura bilərsiniz.*


## E L A N

Göygöl şəhəri, Səbuhi Hacıyev küçəsi, 15 ünvanda yerləşən, ləğv prosesində olan "Xanlar Məişət" Açıq Səhmdar Cəmiyyətinin (VÖEN: 7600048161) 09 aprel 2025-ci il və 10 avqust 2025-ci il tarixli qərarlarına əsasən cəmiyyətin ləğv edilməsilə əlaqədar "Xanlar Məişət" Açıq Səhmdar Cəmiyyətinin hər birinin nominal dəyəri 2 manat olan, cəmi 5402 ədəd (AZ1001011589 Dövlət qeydiyyat nömrəli) adsız səhmləri dövriyyədən çıxarılır.

***Ləğv prosesində olan Xanlar Məişət ASC-nin təsviyyəçisi (ləğvedicisi)***
***Dursunov Məhsub İspəndiyar oğlu***

# ALLAH RƏHMƏT ELƏSİN!

Milli Məclisin rəhbərliyi, deputatlar, parlament Aparatının və İşlər İdarəsinin kollektivləri Milli Məclis Sədrinin birinci müavini Əli Əhmədova əzizi
**SARA HÜSEYNOVANIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

"Azərbaycan" qəzeti redaksiyasının kollektivi Milli Məclis Sədrinin birinci müavini Əli Əhmədova əzizi
**SARA HÜSEYNOVANIN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

"Azərbaycan" qəzeti redaksiyasının kollektivi Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyevə anası
**FLORA ƏLİYEVANIN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

"Azərbaycan" qəzeti redaksiyasının kollektivi Azərbaycan Kinematoqrafçılar İttifaqının sədri Xalq artisti
**RASİM BALAYEVİN**
vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

"Azərbaycan" qəzeti redaksiyasının kollektivi iş yoldaşları
**RƏŞAD BAXŞƏLİYEVİN**
vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

"Azərbaycan" qəzeti redaksiyasının kollektivi iş yoldaşları Rüstəm Babayevə anası
**ŞAMAMA XANIMIN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Qafqaz Müsəlmanları İdarəsinin sədri, Şeyxülislam Allahşükür Paşazadə Azərbaycan Kinematoqrafçılar İttifaqının sədri Xalq artisti
**RASİM BALAYEVİN**
vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Səbinə Əliyeva Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyevə anası
**FLORA XANIMIN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin rəhbərliyi Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyevə anası
**FLORA XANIMIN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin rəhbərliyi və əməkdaşları Nazirlər Kabineti Aparatının Xarici iqtisadi əlaqələr şöbəsinin müdiri Ruslan Rüstəmliyə atası
**RÜSTƏM RÜSTƏMOVUN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin rəhbərliyi və kollektivi Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyevə anası
**FLORA ƏLİYEVANIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Respublikası Prokurorluğunun rəhbərliyi və kollektivi Zaqatala rayon prokurorunun köməkçisi Tərlan Cəbrayılova atası
**FƏRHAD MÜƏLLİMİN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin rəhbərliyi, hakimləri və aparat əməkdaşları baş prokuror Kamran Əliyevə anası
**FLORA ƏLİYEVANIN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Respublikası Mərkəzi Bankının rəhbərliyi və kollektivi Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyevə anası
**FLORA XANIMIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının kollektivi Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyevə anası
**FLORA XANIMIN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin hakimi İsa Nəcəfov, Azərbaycan Kinematoqrafçılar İttifaqının sədri Xalq artisti
**RASİM BALAYEVİN**
vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

Yeni Azərbaycan Partiyasının Mərkəzi Aparatı Azərbaycan Respublikasının Birinci vitse-prezidentinin Katibliyinin rəisi Altay Həsənova əzizi
**RAUF HACIYEVİN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Yeni Azərbaycan Partiyasının Mərkəzi Aparatı Azərbaycanın Xalq artisti
**RASİM BALAYEVİN**
vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

Azərbaycan Respublikası Maliyyə Nazirliyinin rəhbərliyi və kollektivi Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyevə anası
**FLORA XANIMIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Respublikası Maliyyə Nazirliyinin rəhbərliyi və kollektivi Azərbaycan Kinematoqrafçılar İttifaqının sədri Xalq artisti
**RASİM BALAYEVİN**
vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Respublikası Maliyyə Nazirliyinin rəhbərliyi və kollektivi Azərbaycan Respublikası Milli Məclis Sədrinin birinci müavini Əli Əhmədova əzizi
**SARA HÜSEYNOVANIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Naxçıvan şəhərindən Hüseyn Məşdi oğlu Əliyev dostu, "Azərbaycan" qəzetinin şöbə redaktoru, Vətən müharibəsi iştirakçısı
**RƏŞAD BAXŞƏLİYEVİN**
vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyinin rəhbərliyi və kollektivi Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyevə anası
**FLORA ƏLİYEVANIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyinin rəhbərliyi və kollektivi Azərbaycan Respublikasının Xalq artisti
**RASİM BALAYEVİN**
vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

Ədliyyə Nazirliyinin rəhbərliyi və kollektivi Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyevə anası
**FLORA XANIMIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

İqtisadiyyat Nazirliyinin rəhbərliyi və kollektivi Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyevə anası
**FLORA ƏLİYEVANIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

İqtisadiyyat Nazirliyinin rəhbərliyi və kollektivi Azərbaycan Respublikası Milli Məclis Sədrinin birinci müavini Əli Əhmədova əzizi
**SARA HÜSEYNOVANIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

İqtisadiyyat Nazirliyinin rəhbərliyi və kollektivi Azərbaycan Respublikasının Xalq artisti
**RASİM BALAYEVİN**
vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının rəhbərliyi və kollektivi Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyevə anası
**FLORA ƏLİYEVANIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının rəhbərliyi və kollektivi Azərbaycan Kinematoqrafçılar İttifaqının sədri Xalq artisti
**RASİM BALAYEVİN**
vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

"AzerGold" QSC-nin rəhbərliyi və kollektivi cəmiyyətin əməkdaşı Elxan Rzayevə anası
**LALA ƏLİYEVANIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin rəhbərliyi və kollektivi Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyevə anası
**FLORA ƏLİYEVANIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Respublikası Milli Məclisinin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri Hicran Hüseynova və Rüfət Səfərəliyev Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyevə anası
**FLORA ƏLİYEVANIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Respublikası Milli Məclisinin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri Hicran Hüseynova və komitənin üzvləri Azərbaycan Respublikası Milli Məclis Sədrinin birinci müavini Əli Əhmədova əzizi
**SARA HÜSEYNOVANIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin rəhbərliyi və kollektivi baş prokuror Kamran Əliyevə anası
**FLORA ƏLİYEVANIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Respublikası Memarlar İttifaqının İdarə Heyətinin üzvləri görkəmli memar, Azərbaycan Respublikası Memarlar İttifaqının qocaman üzvü
**ZİYA QƏDİR OĞLU BANANİYARSKİYİN**
vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Respublikası Memarlar İttifaqının İdarə Heyətinin üzvləri Azərbaycan Kinematoqrafçılar İttifaqının sədri, respublikanın Xalq artisti, Dövlət mükafatı laureatı
**RASİM ƏHMƏD OĞLU BALAYEVİN**
vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Respublikası Memarlar İttifaqının İdarə Heyətinin üzvləri Azərbaycanın Əməkdar memarı, memarlıq üzrə fəlsəfə doktoru, Azərbaycan Memarlar İttifaqının Ağsaqqallar Şurasının üzvü
**KAMRAN DARAB OĞLU SULTANOVUN**
vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 538-35-55 | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Kompüter mərkəzi | - 538-20-87, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Mühasibatlıq | - 539-59-33 |
| İqtisadiyyat şöbəsi | - 538-42-32 | | |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti 23L "Azərbaycan Nəşriyyatı" MMC 4-cü mərtəbə*

az.reklam@mail.ru




www.azerbaijan-news.az

**Qeydiyyat № 1**

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

**Gündəlik rəsmi dövlət qəzeti**

Tiraj **3378**
Sifariş **394**

Qiyməti 60 qəpik